RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 233 (8256) BAZAR, 20 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Şəffaf xidmət, asan qulluq



Prezident İlham Əliyevin 5 il öncə açılışını etdiyi Sabirabad "ASAN xidmət" mərkəzinin fəaliyyətindən indiyədək 1 milyondan çox vətəndaş yararlanıb



**Muğan, Mil və Şirvan düzünün kəsişdiyi, ana Kürlə xan Arazın birləşdiyi Suqovuşanda - Sabirabad rayonundayıq. Şimaldan Kürdəmir, şimal-şərqdən Hacıqabul, şərqdən Şirvan, cənub-şərqdən Salyan, qərbdən Saatlı, cənubdan Biləsuvar, yəni 6 rayonla həmsərhəd olan Sabirabadın müasir siması xoş təəssürat yaradır.**

Rayonda sosial-iaşə obyektlərinin, müxtəlif təyinatlı müəssisələrin fəaliyyəti onu deməyə əsas verir ki, burada kiçik və orta sahibkarlıq inkişaf mərhələsindədir. Əhalinin sosial problemlərinin həlli istiqamətində də uğurlu layihələr həyata keçirilir.

Sumqayıt və Gəncə şəhərlərindən sonra ölkə rayonlarında ilk "ASAN xidmət" mərkəzinin açılışı da, Prezident İlham Əliyevin iştirakı ilə keçirilən "ASAN" Könüllülərinin I Ümumrespublika Forumu da Sabirabadda reallaşıb. Gəlişimizin məqsədi də 4 ildir Sabirabad, Neftçala, Biləsuvar, Saatlı, İmişli, Kürdəmir, Hacıqabul, Şirvan, Salyan, Beyləqan və Füzuli rayonlarında qeydiyyatda olan vətəndaşların xidmətində olan bu mərkəzin fəaliyyəti ilə tanışlıqdır.

### Gün ərzində 900-1200 vətəndaşa xidmət

Rayonun Heydər Əliyev prospekti, 128 ünvanında yerləşən mərkəzin açılış mərasimi 2014-cü ilin dekabr ayının 15-də keçirilib. Prezident İlham Əliyevin yaratdığı yeni Azərbaycan brendi 5 yanvar 2015-ci il tarixdən fəaliyyətə başlayıb.

Artıq 4 ildir ki, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində öz prinsiplərinə, missiyasına sadiq qalan "ASAN xidmət" mərkəzində bu gün 12 dövlət orqanı - Ədliyyə, Daxili İşlər, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat, Xarici İşlər nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Qida Təhlükəsizliyi Agentliyi, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox müxtəlif xidmət göstərilir.

Sabirabad "ASAN xidmət" mərkəzində fəaliyyət göstərən dövlət orqanları və funksional yardımçı xidmətlər tərəfindən ümumilikdə gün ərzində 900-1200 vətəndaşa xidmət göstərilir. Bugünə qədər mərkəzə 1 milyondan çox vətəndaş müraciət edib. Ay ərzində mərkəzdə 20-25 nəfər könüllü çalışır.

### Məlumat Mərkəzi - operativlik və nəzakətlilik

Sabirabad "ASAN xidmət" mərkəzi müasir tələblərə cavab verən dördmərtəbəli inzibati binadan ibarətdir. Həyətdə uşaq avtoşəhərciyi yaradılıb və burada balacaların yol hərəkəti qaydalarını öyrənmələri, yol nişanlarını tanımaları üçün bütün şərait var.

Ardı 8-ci səh.

# Türk Şurasının fəaliyyətində yeni mərhələ başlayır

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Bakıda keçirilən VII Zirvə Görüşü bütün dünyaya verilən ən mühüm mesajlarla yadda qaldı. Belə ki, dövlət başçılarının çıxışları göstərdi ki, münasibətlərin inkişafı ilə bağlı irəli sürülən təklif gələcəkdə türkdilli dövlətlərin birliyini daha da gücləndirəcək. Ən əsası isə Bakı görüşü bir daha təsdiqlədi ki, qloballaşan və dəyişən dünya nizamına türk dövlətlərinin həmrəylik nümayiş etdirməsi olduqca vacibdir.**

### Naxçıvanda təməli qoyulan format

Türk Şurasının Bakı görüşü Naxçıvan Sazişinin 10 illiyinə təsadüf etdi. Türkdilli ölkələrin dövlət başçılarının 2009-cu il oktyabr ayının 3-də Naxçıvanda keçirilən Zirvə görüşündə imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması" haqqında sazişə əsasən təsis edilən Türk Şurası bu 10 ildə böyük inkişaf yolu keçib. Sazişə əsasən şuranın məqsədi türk dövlətləri arasında qarşılıqlı dostluğun möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, siyasi, ticari-iqtisadi, hüquq mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın edilməsi, elm, texnika, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman və turizm sahələrində qarşılıqlı əlaqələrin genişləndirilməsi, tərəflərin xalqlarının həyat səviyyəsinin daim yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması məqsədilə regionda iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi, türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və ölkələr arasında təmasların təşviqi və sairdir.

Ardı 2-ci səh.

# İşıqlı Azərbaycan naminə

Prezident İlham Əliyevin elektroenergetika sahəsindəki nəhəng layihələri bir vaxtlar əhalisini enerji ilə təmin edə bilməyən ölkəni bu gün ixracatçı dövlətə çevirib



Bax: səh. 3

# Sahibkarların qarşısında qoyulan tək tələb: verginizi ödəyin, dövlətimizi gücləndirin

**Dövlət başçısı oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə bütün nailiyyətləri inkişafın təməldaşı kimi qiymətləndirdi və islahatların daha dərin mənəvi tutumunu önə çəkdi, bu sırada ilk növbədə bütün sahibkarları dövləti aldatmamağa, vergini vaxtında və şəffaf ödəməyə dəvət etdi.**

Prezident İlham Əliyev müşavirədəki nitqində doqquz ayın sosial-iqtisadi göstəricilərini nəzərdən keçirdi, qeyri-neft sektorunda iqtisadi artımın 3 faizi keçdiyini, şaxələndirmə ilə bağlı tədbirlərin müsbət nəticələr verdiyini və yeni potensial imkanların mövcudluğunu bildirdi. Qeyri-neft sənayesində artım 15 faizi keçib. Son illər kənd təsərrüfatına yatırılan böyük investisiyalar ciddi irəliləyişlərə səbəb olub, bu sektorda 9 ayda 7 faizdən çox artım əldə edilib. Dövlət başçısı çıxışında nailiyyətləri sadalasa da, perspektivlərə, yeni uğurlara köklənməyin vacibliyini tənqidi iradları ilə məxsusi vurğuladı.

Azərbaycanın xarici dövlət borcunun aşağı səviyyədə olması - ümumi daxili məhsulun cəmi 17 faizini təşkil etməsi, inflyasiyanın 2 faizdən bir qədər artıq qeydə alınması, 4 milyon 200 mindən çox insanın maddi vəziyyətinin dövlətin sosial paketləri sayəsində yaxşılaşması, əhalinin gəlirlərinin inflyasiyanı əhəmiyyətli dərəcədə üstələməsi vacib faktorlar kimi dəyərləndirildi.

Ardı 2-ci səh.

"Mehriban xanımın sayəsində bütün arzularım çin oldu. 8 yaşlı övladım danışdı, iməklədi, yeridi..."

# Çarəsiz canların həyata dönüş ünvanı



**Bu binanın da dizaynını O verib...**
**Hər bucağını, guşəsini ən kiçik detalına qədər gözləri önündə canlandırıb, mükəmməl sənət əsərinə çevrilməsinə, müasir memarlığı ilə göz oxşamasına çalışıb...**
**Çalışıb ki, bu məkanda olanların ürəyi mənəvi sakitlik tapsın, buradakı aura onların qəlbini rahatlasın, çarəsiz körpə canlar yaşamaq şansı qazansınlar, həyata daha sıx bağlansınlar.**

Bu yuva sirli-sehirli bir dünyaya çevrilsin, kiçik sakinlərini nağıllar aləminə qovuşdursun, qalaktikaya, aya-ulduza səyahətə çıxsınlar, atəşlə rəqs etsinlər, sonsuzluğa yol alsınlar...

Naçar anaların fərəhdən ürəkləri dağa dönsün, sevincləri yerə-göyə sığmasın, üzlərində həkk olunmuş kədər cığırlarından xoşbəxtlik şəlaləsi çağlasın...

Bu sadalananlar böyük xeyirxahın, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın həyat kitabına yazdığı humanist əməllərin qızıl misralarından kiçik bir haşiyədir...



### Anaların sevinci...

"Ana idim, amma heç zaman analıq sevinci yaşaya bilməmişdim. Dünyam zülmətə dönmüşdü, oğlum serebral iflic idi. İllərlə onun danışmasını, yeriməsini, heç olmasa sürünməsini, imekləməsini o qədər arzulayırdım ki... Amma əlimdən heç nə gəlmirdi, donuq nəzərləri gözümə dikilmiş 8 yaşlı balamı bağrıma sıxıb ağlayır, dualar edirdim... Elə bil Allah dualarımı eşitdi və Mehriban xanım Əliyevanın sayəsində çarəsiz övladıma qapı açdı. Mehriban xanımın yaratdığı bu ünvanda bütün arzularım çin oldu, illərlə intizarını çəkdiyim o səsi eşitdim, oğlumun "ana" sözü qulağımda musiqiyə çevrildi, diz çökərək mənə sarı addımlamağını izlədim, o an elə bildim ki, atdığı hər qarış addım ömrümə ömür caladı, məni dünyanın bəxtəvərinə çevirdi. Bu xoşbəxtliyi mənə, mənim kimi minlərlə anaya yaşatdığına görə Mehriban xanım Əliyevaya minnətdaram" deyə bir ana sevinc göz yaşları içərisində fikirlərini bölüşür.

Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsindəyik.

Ardı 6-cı səh.

# Humanitar əlaqələrin uğurlu nümunəsi

**Ölkələr arasında humanitar əlaqələrin rolu, əhəmiyyəti müasir dünyamızda daha da güclənir. Humanitar münasibətlər sülh və sabitliyin qorunmasına, qarşılıqlı iqtisadi-ticarət əlaqələrinin güclənməsinə, insanların yüksək rifahının təmin olunmasına yönələn təşəbbüslərin daha da genişlənməsinə, bütün bu istiqamətlərdə qazanılmış nailiyyətlərin inkişafına zəmin yaradır.**

Bu gün Azərbaycan və Rusiya arasında mövcud olan humanitar əməkdaşlıq əlaqələri bunun bariz nümunəsidir. Bir neçə vaxt öncə Bakıda Rus Kitab Evinin yaradılmasının 10 illiyinin təntənə ilə qeyd edilməsi də bu əməkdaşlığın əlamətdar faktlarından biri kimi tarixə yazıldı.

### Mədəni körpülər

Müstəqil Azərbaycanın dünya miqyasında çoxmillətli və tolerant ölkə kimi tanınmasının bir mühüm səbəbi var: xalqımız tarixən sivil, mədəni yaşam və düşüncə tərzi ilə digər millətlərin mənəvi dəyərlər sisteminə - mədəniyyətinə, adət-ənənəsinə, dininə və dilinə dözümlü münasibət bəsləmiş, sivilizasiyalararası dialoqun, ümumbəşəri mədəni inteqrasiyanın tərəfdarı kimi çıxış etmişdir.

Ardı 5-ci səh.

Neft Daşları - 70

# Bu çətin peşənin adı "Xəzər neftçisi"dir

Dəniz şəhərində "Neft Daşları" NQÇİ-nin estakadayanı meydançalarının birində ayaq saxladıq. Buranın 2 nömrəli neft və qazçıxarma sahəsinin ərazisi olduğunu biləndə usta Firatı soraqladıq. Tanınmış peşəkar neftçi Firat Əliyevlə beş il əvvəl elə burada, Neft Daşlarında həmsöhbət olmuşduq. O vaxt Almaniya televiziyası Azərbaycan neftçisinin işi və həyatı barədə maraqlı bir film də çəkmişdi.

Usta ilə hal-əhval tutmaq istədik. Amma dedilər ki, əmək növbəsi sona çatdığı üçün hazırda dənizdə deyil... Xəzər neftçisinin işi-gücü, həyatı belədir. Bir ayın 15 gününü dənizdə, iş başında, digər yarısını isə quruda, evində-eşiyində olur.

2-ci sahənin 60 işçisi də bu qayda ilə çalışır. 30 nəfər dənizdə əmək növbəsində olanda qalanları vertolyot və gəmilərlə sahilə dönüb evlərində istirahət edirlər.

Bu dəfə neft və qazçıxarma ustası Namiq Səmədovla həmsöhbət olduq. Cavan olmasına baxmayaraq 10 ildir bu vəzifədə çalışır. Ürəyi dolu imiş. Maraqlı söhbət edirdi.

Ardı 5-ci səh.

# 15 ildə 3200-dən çox məktəb binası tikilib

Son illər "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulmuş, müasir tələblərə cavab verən və davamlı təhsili təmin edən təhsil infrastrukturunun yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı, təsdiq edilən proqramların reallaşdırılması nəticəsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. 2003-2018-ci illər ərzində 3200-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib ki, bu da bütün məktəblərin 72 faizini təşkil edir. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb, ikinci növbədə oxuyan şagirdlərin sayı 35 faizdən 14 faizə enib.

Ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi tədbirləri cari ildə də davam etdirilib.

Ardı 10-cu səh.

# Türk Şurasının fəaliyyətində yeni mərhələ başlayır

## İlham ƏLİYEV: “Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək”




*Əvvəli 1-ci səh.*

Bu dövrdə üzv dövlətlər şuranın məqsəd və prinsiplərinə uyğun olaraq əməkdaşlığın yeni formatlarını qurublar. Belə ki, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRK PA), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurası kimi qurumların yaradılması nəticəsində Türk Şurası çərçivəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənib.

Türk Şurası daimi fəaliyyət göstərən və BMT-nin standart və normalarına uyğun olaraq formalaşmış Katibliyə, nizamnaməyə uyğun yaradılmış rəhbər orqanlara - Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurasına malikdir.

Naxçıvan sazişinə əsasən Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi dövlətləridir. 2018-ci ildə Macarıstan Türk Şurasında müşahidəçi statusu alıb. 2019-cu ildə Özbəkistan Türk Şurasına qoşulmaq haqqında qərar qəbul edib. Türk Şurasının sammitləri də daxil olmaqla, onun müxtəlif tədbirlərində Türkmənistan da iştirak edir. Bütün bunlar şuranın təşkilatlanaraq möhkəmlənməsində mühüm rol oynayıb.

### Türk Şurasına sədrlik Azərbaycana keçdi

Bu gün bütün dövlətlər sülhün və sabitliyin qorunması, eləcə də sosial-iqtisadi rifahın və mədəni zənginliyin təmin olunması kimi müasir çağırışlarla üzləşirlər. Ona görə ortaq mədəni və mənəvi dəyərlərlə bir-birinə bağlı olan türk dövlətlərinin daha da möhkəmlənmələri, dünyada cərəyan edən proseslərə təsir göstərə bilmələri, öz milli maraqlarını müdafiə etmələri baxımından təşkilatlanmaları olduqca vacibdir. Azərbaycan türk cümhuriyyətləri ilə əlaqələrində məhz bu mövqedən çıxış edir və daim bu prinsiplərə sadiq qalır. Xarici siyasət konsepsiyasında türkdilli dövlətlərlə əlaqələrin bütün sferalar üzrə inkişaf etdirilməsini müəyyən edən Azərbaycan türkdilli dövlətlərin səylərinin birləşdirilməsini bu cür çağırışların vaxtında və effektiv cavablandırılması üçün önəmli vasitə hesab edir.

Türk Şurasının VII Zirvə Görüşündəki çıxışı zamanı Prezident İlham Əliyev bəyan etdi ki, türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir: “Qırğızıstandan Türk Şurasına sədrliyi qəbul edən Azərbaycan bu müddət ərzində ölkələrimiz arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcəkdir. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir”.

Ötən 10 il Türk Şurasının səmərəli və çoxprofilli beynəlxalq təşkilat kimi formalaşması mərhələsi olub. Xüsusən son bir ildə onun institusional dəyişməsi sayəsində bu mərhələni başa çatmış hesab etmək olar. İndi qarşılıqlı fəaliyyətin daha keyfiyyətli mərhələsinə və infrastruktur, sərmayələr, qanunvericilik sahələrində, həmçinin iqtisadiyyatın real sektorunda birgə layihələrin həyata keçirilməsini ehtiva edən sıx inteqrasiyaya keçməyin vaxtıdır. Məhz belə bir vaxtda - Türk Şurasının VII Zirvə Görüşündə quruma sədrlik Qırğızıstandan Azərbaycana keçdi.

### Bakı görüşü şuranın fəaliyyətini daha da canlandıracaq

İndiyə qədər Azərbaycan nəinki siyasi sferada, o cümlədən qlobal əhəmiyyət kəsb edən iqtisadi məsələlərdə türkdilli dövlətlərlə əməkdaşlığa, onların da beynəlxalq layihələrə cəlb olunmasına mühüm diqqət yetirib. Məsələn, respublikamızın təşəbbüsü ilə inşa edilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiyanı Avropa ilə birləşdirən nəhəng infrastrukturdur. Artıq Azərbaycan, Qazaxıstan və Türkiyə bu yoldan istifadə edir. Gələcəkdə digər türkdilli dövlətlər də buna qoşula bilərlər. Eyni zamanda Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələri dolayısı ilə türkdilli dövlətləri birləşdirir, Qazaxıstan və Türkmənistanın ixrac imkanlarını artırır. Türkiyə isə tranzit ölkə kimi neft-qaz boru kəmərlərinin bəhrəsini görür. Bütün bunlar Azərbaycanın türk dünyasına böyük töhfələridir. Bütövlükdə Azərbaycan özünün şaxələndirilmiş nəqliyyat sistemi və logistika imkanları ilə həm də türk dünyasına öz töhfəsini verir.

Türk Şurasına sədrliyi dövründə isə Azərbaycan öz təşəbbüsləri ilə türk dövlətləri arasında əlaqələrin daha da dərinləşməsinə nail olacaq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək.

10 ildə Türk Şurası qarşısında duran vəzifələrin həyata keçirilməsi istiqamətində böyük uğurlar əldə edib. Son Zirvə toplantısı göstərdi ki, təşkilat öz imkanlarından türkdilli xalqların mənafeyi naminə səmərəli istifadə etməkdədir. Bakıda keçirilən VII Zirvə Görüşü isə şuranın fəaliyyətində xüsusi canlanma yaradacaq, türk xalqlarının birliyinin daha möhkəmlənməsinə yol açan tarixi hadisə olacaq.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# *Sahibkarların qarşısında qoyulan tək tələb:* vergini ödəyin, dövlətimizi gücləndirin



*Əvvəli 1-ci səh.*

Minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycanın bu gün MDB məkanında birinci yerdə, orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdə olması böyük nəticə olsa da, bu, Prezidenti qane etmir: “Gələcəkdə də minimum əməkhaqqının, minimum pensiyanın artırılması üçün bizdə iradə var və imkanlar buna uyğun olmalıdır. Buna nail olmaq üçün bütün maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir”.

Prezident İlham Əliyev keçən il prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışını xatırlatdı, onun proqram xarakterli olduğunu bildirdi və söz verdiyi kimi, islahatların dərinləşməsi istiqamətində vacib əməli addımların atıldığını, vergi və gömrük sahələrində şəffaflıqla bağlı tədbirlərin səmərə verdiyini, 9 ayda büdcəyə plandan əlavə 700 milyon manatdan çox vəsait daxil edildiyini diqqətə çatdırdı. Müşavirədəki nitqində analitik notlara köklənən dövlət başçısı yenə böyük ehtiyatların olduğunu, hələ bir çox şirkətlərin vergini tam ödəmədiyini, qara mühasibatlığın mövcud olduğunu dedi və xüsusi tapşırığını verdi: “Vergi orqanları, digər hüquq mühafizə orqanları bu tipli dırnaqarası sahibkarlara qarşı çox ciddi tədbirlər görməlidirlər. Həmin sahibkarlar da bilməlidirlər ki, vergiləri ödəmək onların borcudur. Onlardan heç bir başqa ödəniş tələb oluna bilməz. Mən bütün qurumlar qarşısında bu vəzifəni qoydum, maksimum şəffaflıq, dürüstlük olmalıdır, rüşvətxorluğa, korrupsiyaya son qoyulmalıdır. Ancaq sahibkarlar dövlət vergisini tam şəkildə ödəməlidirlər. Biz bu vergilər hesabına sosial layihələri icra edirik, vergilər hesabına köçkünləri yerləşdiririk, vergilər hesabına ordumuzu gücləndiririk. Ona görə də vergini ödəməyən cinayət məsuliyyətinə cəlb edilməlidir”.

Əslində, dövlət başçısı bu çıxışı ilə həm sahibkarlara, həm də hüquq mühafizə orqanlarına ciddi ismarıc göndərdi. Hər kəsin borcudur ki, öncə Vətəni düşünsün, insanların sosial rifahının yaxşılaşmasına, ordunun güclənməsinə və dövlətimizin qüdrətli olmasına çalışsın. Və bu gücü təmin edən vergilərin yığılmasında, vaxtında ödənilməsində qanunun aliliyinə söykənsin, öz mənafeyi qədər də Azərbaycanın maraqlarını, vətəndaşların sosial rifahını düşünsün. Əgər biz beynəlxalq standartlardan, Avropa meyarlarından danışırıqsa, vergini də avropalı kimi ödəməyi, avropalı məmur kimi ölkənin mənafeyini daha üstün tutmağı bacarmalıyıq.

Məsələ burasındadır ki, vergidən yayınmalar bütün ölkələrdə eyni dərəcədə ağır fəsadlara gətirir, gəlirlərin gizlədilməsi vergi sisteminə dağıdıcı zərbə vurur və dövləti islahatları irəli aparmaqdan, vacib dövlət qurumlarını, hakimiyyət strukturlarını və sosial layihələri maliyyələşdirməkdən məhrum edir.

Bu baxımdan ötəri də olsa, digər ölkələrdəki vəziyyətə nəzər salmaq yerinə düşərdi. Məsələn, Argentinada hər il vergidən yayınmalar nəticəsində dövlət büdcəsindən 23 milyard dollar vəsait gizlədilir. Amma onu da qeyd edək ki, inkişaf etmiş, vergi sistemi mükəmməl fəaliyyət göstərən ölkələrdə vergi cinayətləri o qədər çox deyil. İngiltərədə hər il vergi cinayətləri ilə bağlı 50-80 nəfərə qarşı cinayət işi açılır, Kanadada 200 cinayət işi araşdırılır.

Vergidən yayınmalara qanunvericiliyin tələbləri heç də bütün ölkələrdə eyni deyil. Lüksemburq qanunvericiliyində vergidən yayınmaya görə cinayət məsuliyyəti ümumiyyətlə yoxdur, İsveçrədə isə vergi möhtəkirliyi inzibati hüquqla tənzimlənir.

Əksər dövlətlərdə qəsdən və bilərəkdən vergidən yayınma birmənalı şəkildə cəzaya layiq ictimai təhlükəli əməl kimi qiymətləndirilsə də, bir sıra ölkələrdə vergidən yayınma halları Cinayət Məcəlləsi ilə yox, müəyyən hüquqi-normativ aktlarla tənzimlənir. Vergi cinayələrinə yanaşma bəlkə buna görə də müxtəlifdir. Vergi cinayətkarlarına cərimələr, saxlanılma tətbiq edilə bilər, onlar ictimai iş və ya həbslə cəzalandırıla bilərlər. Məsələn, vergi cinayətlərinə görə müqəssir bilinənlər Latviyada 5, ABŞ, İsveçdə 6, Belarusda 7, Ectoniya və Bolqarıstanda 10 ilədək həbs edilə bilərlər. AFR, Kanada, Fransa və Çində isə bu tipli cinayət əməllərinə görə ömürlük həbs və hətta sonuncuda edam da tətbiq edilə bilər.

Bu baxımdan dövlət başçısının çıxışında beynəlxaq təcrübəyə də müraciət etməsi təsadüfi deyildi: “Bir çox hallarda eşidirik ki, bizdə standartlar, meyarlar Avropa standartlarına uyğun olmalıdır. Avropa ölkələrində vergisini ödəməyənə hansı cəza verilirsə, biz də onlardan nümunə götürməliyik. Ona görə vergidən yayınmaq çox ciddi nəticələrə gətirib çıxarmalıdır. Mən bütün aidiyyəti qurumlara bir daha bu tapşırığı verirəm”.

Bəzilərinə elə gələ bilər ki, Prezident bu addımla sahibkarlara qarşı əvvəlki münasibətini dəyişib, nisbətən sərtləşib. Təbii ki, bu, belə deyil. İş adamlarına tətbiq edilən güzəştlər, verilən imtiyazlar, aqrar sektorda isə vergi ödəmələrindən azad olunmalar və biznesin idarə edilməsini asanlaşdıran bütün qərarlar bu gün də qüvvədədir. Bütün bunların əvəzində sahibkarların qarşısında qoyulan tələbin mahiyyətini bir cümlə ilə belə ifadə etmək olar: sizə verilən imtiyazların və dəstəyin müqabilində siz də düz olun, dövlətinizi sevin və onu aldatmayın.

Dövlət başçısı müşavirədə verdiyi qərarın sərtliyini özü də izah etdi, bunun vacibliyinə aydınlıq gətirdi. Azərbaycan dövlətinin siyasəti birmənalı şəkildə sosialyönümlüdür və bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Minimum əməkhaqqı, pensiyalar artırılır, özünüməşğulluq proqramı geniş vüsət alır. Bütün sosial layihələrin inamla yerinə yetirilməsi üçün hər bir sahibkarın, iş adamının ədalətli olması, vergiləri vaxtında ödəməsi zəruridir. Düz işləyən, vergiləri yayınmadan ödəyən sahibkar dövlət üçün ən dəyərli vətəndaşdır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilib

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə 2019-cu il ərzində Xarici İşlər Nazirliyi, habelə ölkəmizin diplomatik nümayəndəlik və konsulluqları tərəfindən müxtəlif tədbirlər həyata keçirilir.





AZƏRTAC xəbər verir ki, oktyabrın 19-da Zığ-Heydər Əliyev Beynəlxalq Hava Limanı magistral avtomobil yolunda xüsusi ayrılmış ərazidə Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə keçirilən aksiyada Xarici İşlər Nazirliyinin rəhbərliyi və əməkdaşları, ölkəmizdə akkreditə olunmuş xarici diplomatik nümayəndəliklərin rəhbərləri, eləcə də diplomatiya könüllülərinin iştirakı ilə simvolik olaraq 100 ağac əkilib.

Ağacəkmə aksiyasında Azərbaycanın xarici dövlətlərdə akkreditə olunmuş diplomatik nümayəndəlik və konsulları da iştirak ediblər, onlar tərəfindən də fəaliyyət göstərdikləri ölkələrin park və digər ictimai məkanlarında ağaclar əkilib.



# Azərbaycanın Xarici İşlər Nazirliyi Fransanın Lion inzibati məhkəməsinin qərarını alqışlayır

Azərbaycanın Xarici İşlər Nazirliyi Fransa Respublikasının Lion inzibati məhkəməsinin bu ölkənin Vilörban kommunası ilə Azərbaycanın işğal olunmuş Şuşa şəhəri arasında 2015-ci il mayın 18-də, Azərbaycan və Fransa milli qanunvericiliyinə zidd olaraq imzalanan qeyri-qanuni “saziş”in ləğv olunmasına dair bu ilin 17 oktyabr tarixli qərarını alqışlayır. Bu barədə XİN-in Mətbuat xidməti idarəsinin məlumatında məlumat verilir.

Məlumatda deyilir: “Bugünədək Fransa şəhərləri ilə Azərbaycanın işğal olunmuş ərazilərindəki qondarma rejim tərəfindən yaradılan “yerli hakimiyyət orqanları” arasında imzalanan 10 qanunsuz “müqavilə” Fransanın müvafiq məhkəmə qərarları ilə ləğv olunub. Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycanın Dağlıq Qarabağ regionunun tarixi mərkəzi olan Şuşa şəhəri ilə imzalanmış 3 qanunsuz “xartiya”nın hamısı ləğv edilib.

Azərbaycan tərəfi inanır ki, hazırda qüvvədə olan və Fransa qanunvericiliyi, xüsusilə də ölkə Konstitusiyasının 73-cü maddəsi ilə ziddiyyət təşkil edən digər qeyri-qanuni “sənədlər” də tezliklə Fransa məhkəmələri tərəfindən ləğv ediləcək.

Qanunun aliliyi hər şeydən üstündür və Fransadakı erməni lobbist qrupları başa düşməlidirlər ki, onların Fransa qanunlarını və bu ölkənin beynəlxalq öhdəliklərini pozmaq bahasına öz maraqlarını reallaşdırmaq cəhdləri uğursuzluğa düçardır”.

***AZƏRTAC***

# Qarşılıqlı əlaqələrin perspektivləri və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb

Oktyabrın 17-18-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Belarus Respublikasının Minsk şəhərində Müstəqil Dövlətlər Birliyinin Sərhəd Qoşunlarının Komandanları Şurasının (SQKŞ) 82-ci iclasında müşahidəçi qismində iştirak edib. İclasda nümayəndə heyətimizin tərkibində Azərbaycan Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov da olub.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən verilən məlumata görə, iclasda MDB iştirakçısı olan dövlətlərin sərhədlərində vəziyyət, onun inkişaf tendensiyaları və sərhəd təhlükəsizliyinin təmin edilməsi barədə fikir mübadiləsi aparılmış, sərhədlərdə baş verən böhran hallarının tənzimlənməsi üzrə birgə əməliyyatların təşkil olunması, Böyük Vətən müharibəsinin 75-ci ildönümünün qeyd olunması, 2019-cu ildə SQKŞ-nin fəaliyyətinin nəticələri və 2020-ci il üçün tapşırıqları, növbəti iclasın gündəliyi və digər məsələlər müzakirə edilib.

İclas zamanı çıxış edən general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikası ərazisinin 20 faizinin, o cümlədən Azərbaycan Respublikasının Ermənistan ilə dövlət sərhədinin 427 kilometr, İran İslam Respublikası ilə dövlət sərhədinin 132 kilometr hissəsinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal altında saxlanılmasının təkcə Azərbaycan Respublikası üçün deyil, bütövlükdə regional təhlükəsizlik üçün ciddi təhdid olmasını, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi səbəbindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində konkret nəticələrin olmamasının bölgədəki sabitliyə mənfi təsir göstərməsini iclas iştirakçılarının nəzərinə çatdırıb.

Çıxışda 2018-ci ilin sonunda Azərbaycan Respublikasının Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən 130 kilometrlik hissəsinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən mühafizə altına götürülməsi barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qərarının bu münaqişənin sülh yolu ilə həllinə, bölgədə gərginliyin azalmasına və sərhəd təhlükəsizliyinin təkmilləşdirilməsinə yönəlmiş təşəbbüs olması vurğulanıb, həmin istiqamətdə sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə görülmüş işlər haqqında məlumat verilib, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin davamlı pozulması, sərhəd döyüş məntəqələrimizin, o cümlədən avtomobil və tikinti texnikasının, tibb maşınlarının, mülki heyətin mütəmadi olaraq atəşə məruz qalmaları, nəticədə döyüş məntəqəsinin arxasında təsərrüfat işləri ilə məşğul olan mülki vətəndaş 1959-cu il təvəllüdlü Səfəralı Abışovun aldığı güllə yarası nəticəsində həlak olması xüsusi qeyd olunub.

İclasdan sonra Rusiya, Belarus və Qazaxıstan Sərhəd xidmətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirilib, qarşılıqlı əlaqələrin perspektivləri və maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Rusiya Federasiyasının Sərhəd Xidmətinin nümayəndə heyəti ilə keçirilən görüşdə “AR və RF sərhəd xidmətləri arasında 2020-2021-ci illər üçün Tədbirlər Planı” imzalanıb.

***“Azərbaycan”***

# 20 Oktyabr Energetiklər Günüdür

# İşıqlı Azərbaycan naminə

## Prezident İlham Əliyevin elektroenergetika sahəsindəki nəhəng layihələri bir vaxtlar əhalisini enerji ilə təmin edə bilməyən ölkəni bu gün ixracatçı dövlətə çevirib

**Yaşadığımız 2019-cu il Azərbaycan elektroenergetikası üçün olduqca əlamətdar ildir. Çünki bu il Azərbaycanın enerji sisteminin 120, paylayıcı elektrik şəbəkəsinin 90 illiyi qeyd edilir. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 oktyabr tarixinin Energetiklər Günü kimi qeyd edilməsi ilə bağlı sərəncamının 15 ili tamam olur.**

**Bu, əlbəttə ki, dövlət başçısının elektroenergetika sahəsində çalışan insanların fədakar əməyinə verdiyi böyük qiymətin ifadəsidir. Bu həmin tarixdir ki, 38 il əvvəl, 1981-ci ilin oktyabr ayının 20-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə Mingəçevir şəhərindəki "Azərbaycan" İstilik Elektrik Stansiyasının birinci enerji bloku istismara verilib və bununla da Azərbaycan energetikasının inkişafında yeni, çox mühüm mərhələnin əsası qoyulub.**



### Heydər Əliyev dühası ilə təməli qoyulan enerji təhlükəsizliyi

Azərbaycan iqtisadiyyatının, onun sosial həyatının istər ötən əsrin 70-80-ci illərindəki, istərsə də müstəqillik dövründəki dinamik yüksəlişi bir çox mühüm amillərlə yanaşı, elektrik enerjisi sisteminə də sirayət edir. Elektrik energetikasında sürətli inkişafı təmin etmək məqsədilə hələ 1970-80-ci illərdə təxirəsalınmaz tədbirlər həyata keçirildi, bir sıra irimiqyaslı layihələr reallaşdırıldı. Məhz həmin illərdə Ulu Öndər Heydər Əliyev resbublikanın elektrik enerjisinə olan tələbatını yerli imkanlar hesabına ödəməyi qarşıya məqsəd qoyaraq, bu istiqamətdə gərgin fəaliyyətə start verdi. Demək olar ki, Azərbaycanda enerji təhlükəsizliyi sisteminin təməli həmin illərdə qoyuldu.

Bu sahədə işləri sürətləndirən dahi şəxsiyyət Azərbaycanın bugününü əvvəlcədən görürdü və hesab edirdi ki, vaxt gələcək, bu işlər müstəqil Azərbaycan dövlətinə və xalqına xidmət edəcək. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu.

Respublikaların maliyyə imkanlarının məhdud olduğu bir dövrdə çox böyük maliyyə vəsaiti tələb edən bu irimiqyaslı işlərin görülməsi üçün İttifaq büdcəsindən vəsaitin ayrılmasına nail olmaq həmin dövrdə heç də asan deyildi. Heydər Əliyev 70-80-ci illərdə energetika sahəsində gördüyü işlər haqqında sonralar belə deyirdi: "Hər dəfə elektrik stansiyası tikilməsi haqqında SSRİ rəhbərliyi qarşısında məsələ qoyarkən mənə deyirdilər ki, SSRİ-də vahid elektrik enerjisi sistemi var və Azərbaycana nə qədər elektrik enerjisi istəyirsiniz verək. Mən deyirdim ki, yox, istəyirəm bizim özümüzünkü olsun. Mən istəyirdim ki, müəyyən sahələrdə biz asılı olmayaq. Bu gün mən iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan elektrik enerjisi sahəsində asılı deyildir. Özü həmin elektrik stansiyalarında elektrik enerjisi istehsal edir".

Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu.

Diqqət etsək görərik ki, əgər 1969-cu ilə qədər Azərbaycan elektrik enerjisi idxal edirdisə, 1982-ci ildə artıq ölkəmiz elektrik enerjisi ixrac edən respublikaya çevrildi. Bununla da elektrik enerjisi sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

### Elektroenergetika sahəsində yeni əsr

Elektroenergetikanın inkişafı sahəsində dahi liderin ideyalarını uğurla həyata keçirən, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin diqqət və qayğısı da elektroenergetika sayəsindən yan keçmədi, üstəlik bir qədər də canlandı.

Yaradılma tarixi Ümummilli Liderin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi, Prezident İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək dünya standartlarına uyğun səviyyədə yenidən qurulmaqdadır.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı həyatımızın bütün sahələrində, o cümlədən elektroenergetika sisteminin inkişafında öz əksini tapıb. Ölkədə həyata keçirilən islahatlar elektrik təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına səbəb oldu.

16 il əvvəl Prezident İlham Əliyevin enerji sektorunda islahatların həyata keçirilməsinə start verməsi elektroenergetika sahəsində yeni eranın başlanmasına gətirib çıxardı. Azərbaycan elektrik enerjisi idxal edən ölkədən elektrik enerjisi ixrac edən ölkəyə çevrildi. Bu gün bu sözləri cəsarətlə demək üçün hansı əziyyətlərə sinə gərilib, nə qədər gecəli-gündüzlü əmək sərf edilib, bu da bir həqiqətdir. Müasir elektroenergetika infrastrukturu çoxlarına bəlkə də məşəqqət dolu günləri, gecələri unutdurub.

Elə cənab Prezident də müxtəlif vaxtlardakı çıxışlarında həmin günləri xatırlayarkən haqlı olaraq qeyd edir: "O illərdə ölkəmizin yarısı işıqsız qalırdı. Bakı şəhərinin özündə işıq çatışmırdı. Hətta bəzi hallarda saat 12-də televiziya kanalları da fəaliyyətini dayandırırdı ki, vətəndaşlar elektrikdən az istifadə etsinlər. Çünki elektrik çatışmırdı. Bu gün biz nəinki özümüzü təmin edirik, xaricə elektrik enerjisi ixrac da edirik".

Məhz cənab İlham Əliyevin elektroenergetika sisteminin inkişafına göstərdiyi diqqət sayəsində Azərbaycan həm də dünyada enerji ixracatçısı kimi tanınmaqdadır. Dünyanın mötəbər reytinq təşkilatlarının hər il açıqladıqları hesabatlarda Azərbaycanın adı ən islahatçı ölkə kimi qeyd edilir. Dünya Bankının "Doing Business 2020" hesabatında Azərbaycanın ötən illə müqayisədə daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilməsi də bunun təsdiqidir.




### Dayanıqlı inkişafa keçid, enerji sistemində müasir islahatlar

2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev ölkədə elektrik enerjisi ilə bağlı modernləşdirmə prosesinin davam edəcəyini vurğulayaraq bildirmişdi ki, mövcud stansiyaların potensialının gücləndirilməsi üçün işlər aparılır. Yenidənqurma, bərpa, modernləşmə işləri nəticəsində mövcud stansiyalarda ən azı 400-500 meqavat əlavə enerji gücü əldə edilməsi mümkündür.

Ümumiyyətlə, son illərdə Azərbaycanda elektrik enerjisinin istehsalı və ötürülməsi sahəsində çox böyükmiqyaslı işlər həyata keçirilir. 2018-ci ilin sentyabr ayından etibarən cənab Prezidentin tapşırığına əsasən enerji sistemində yeni islahatlara start verilib, yerli və xarici mütəxəssislərin rəyi nəzərə alınmaqla "Reabilitasiya Proqramı" hazırlanaraq dərhal icrasına başlanılıb.

"Reabilitasiya Proqramı" çərçivəsində istismar müddətini çoxdan başa vuran və ötən ilin iyul ayında qəza baş verən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyasının hər biri ayrıca elektrik stansiyası statusunda olan 8 enerji bloku növbəli şəkildə yenidən qurularaq təmir edilir. Son bir ildə 5 blokda yenidənqurma işləri aparılıb, digər 3 enerji blokunda işlər gələn ilin birinci yarısında yekunlaşacaq. Paralel olaraq "Azərbaycan" İstilik Elektrik Stansiyasında yerləşən, ölkənin 2 ən böyük yarımstansiyalarından biri olan 500 kilovoltluq yarımstansiyada işlərin 95 faizi görülüb və hazırda sazlama işləri həyata keçirilir.

2018-ci ildə qəza baş verən 330 kilovoltluq yarımstansiyada yenidənqurma sürətlə davam etdirilir və işlərin yarıdan çoxu görülüb. 330 kilovoltluq yarımstansiyanın idarəetməsi üçün tikilən mərkəzdə işlər tamamlanıb. Bundan başqa, elektrik stansiyasının Baş İdarəetmə Mərkəzində, azot-oksigen, hava kompressor sahələrində, yağ və reagent təsərrüfatlarında, kimya sexində işlər başa çatıb, son tənzimetmə işləri aparılır.

Bununla yanaşı, "Cənub" Elektrik Stansiyası etibarlı yanacaq təchizatını təmin etmək məqsədilə Hacıqabul rayonunda yerləşən qazpaylayıcı stansiyadan "Cənub" ES-ə 25 km məsafədə 530 mm diametrli (40 atm. təzyiqli) yeni qaz kəməri çəkilərək istismara verilib.

"Şimal-1" Elektrik Stansiyasında da son aylarda təmir, sazlama və bərpa işləri aparılıb. Belə ki, stansiyanın blokunda zədələnmiş rutor dəyişdirilərək başqası ilə əvəz edilib. 100 tona qədər çəkisi olan rutorun dəyişdirilməsi ilə bağlı stansiyanın fəaliyyətinin müvəqqəti dayandırılması fürsətindən istifadə edilərək, xarici və yerli mütəxəssislərin iştirakı ilə yanacaq kompressoru, işçi kürəklər, o cümlədən digər avadanlıq, aqreqatlar yenilənib, təmizlənib və təmir edilib.

"Reabilitasiya Proqramı" çərçivəsində Mingəçevir şəhərində yerləşən "Mingəçevir" Su Elektrik Stansiyasında da təmir-bərpa işləri həyata keçirilir. Hidroaqreqatlarda təmir-bərpa işləri aparılır və sifariş əsasında gətirilən ehtiyat hissələri quraşdırılır.

"Şəmkir" Su Elektrik Stansiyasında da təmir-bərpa işləri həyata keçirilir. Ötən ilin payızından başlayaraq stansiyanın hidroaqreqatlarında təmir-bərpa işləri aparılıb və 2 saylı hidroaqreqat üçün sifariş əsasında gətirilən ehtiyat hissələri dəyişdirilib, 330 kV-luq blok avtotransformatoru əsaslı təmir olunub. Bununla 100 MVt "itirilmiş" güc bərpa olunub, dayanıqlıq və etibarlıq artırılıb. Hazırda əsas işlər "Şəmkir" SES-in sutullayıcı qurğusunda aparılır. 1983-cü ildə stansiya istismara veriləndən bu günə qədər sutullayıcı qurğuda heç bir təmir işləri aparılmadığı üçün qurğu yenidən qurulacaq.

Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi "Sumqayıt" Elektrik Stansiyasını işini dayandırmaq təhlükəsi ilə üzləşdirdiyindən sahildən Xəzər dənizinin içərisinə doğru soyuq suyun 5 metr dərinlikdən götürülməsinə imkan verən 750 metr məsafədə estakada qurmağa qərar verilib. Bununla da ilk dəfə MDB məkanında soyutma suyunun kaskad vasitəsilə sakitləşdirici kanala və oradan isə stansiyaya ötürülməsi sistemi yaradılacaq. Artıq neçə müddətdir işlərə başlanılıb və növbəli iş prinsipi əsasında fasiləsiz olaraq davam etdirilir. İşlər qrafik əsasında 8 ay müddətində başa çatdırılacaq və stansiyaya Xəzər dənizinin dərinliyindən su veriləcək.

İstilik elektrik stansiyalarında aparılan işlərlə paralel ümumi layihə gücü 769 MVt olan modul tipli "Bakı", "Astara", "Şəki", "Xaçmaz", "Şahdağ" və "Səngəçal" modul elektrik stansiyalarının real generasiya gücünün artırılması və sabit fəaliyyətinin təmin edilməsi işlərinə başlanılıb. Bu məqsədlə lazım olan ehtiyat hissələrinin alınması məqsədilə Finlandiyanın "Wartsila" şirkəti ilə müvafiq müqavilələr bağlanılıb və avadanlıqlar gətirilərək quraşdırılır.

### Yenidən qurulan yarımstansiyalar

Bakı və Abşeron yarımadasının elektrik enerjisi ilə təchizatında düyün nöqtəsində yerləşən 220/110/10 kV-luq "Müşfiq", "Xırdalan", eləcə də 110/35/10 kV-luq "8-ci Km" "Zabrat", "Əhmədli" və 110/35/6 kV-luq "Dübəndi" və "Maştağa", 500/330/220 kV-luq "Abşeron" yarımstansiyalarında hal-hazırda yenidənqurma işləri aparılır. Ümumilikdə 2 ədəd 220 kV-luq və 15 ədəd 110 kV-luq yarımstansiya daxil olmaqla 17 ədəd yarımstansiyada yenidənqurma işləri həyata keçirilir. Artıq 4 ədəd, "Zabrat", "Kimyaçılar" və "Dübəndi", "Müşfiq" yarımstansiyalarında işlər başa çatıb.

"Azərenerji" ASC Bakı şəhərinin elektrik enerji təchizatının etibarlığı və dayanıqlığını gücləndirmək üçün Şirvan şəhərindəki "Cənub" Elektrik Stansiyasından "Xırdalan" yarımstansiyasına 330 kV-luq bazada çəkdiyi 220 kV-luq yüksəkgərginlikli elektrik verilişi xəttində işləri yekunlaşdırıb və xətt istismara verilib.

Müasir avadanlıqlar və proqram təminatı ilə təchiz ediləcək yeni SCADA sistemi Əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 regional monitorinq mərkəzlərindən (Bakı, Gəncə, Sumqayıt, Şirvan, Abşeron, Mingəçevir, Xaçmaz) ibarət olacaq. 21 stansiya və 70 yarımstansiyanı əhatə edəcək sistem enerji istehsalını və tezliyin tənzimatını müasir tələblər səviyyəsində aparmaq üçün yüksək texniki imkanlara malik olacaq. Burada məlumatların və idarəedici əmrlərin ötürülməsi ikiqat ehtiyatlandırılacaq və dairəvi müstəqil şəbəkə vasitəsilə həyata keçiriləcək. Həmçinin sistemin tərkibində analitik proqram modulları və dispetçerlərin məşq simulyatoru müasir proqram təminatları tətbiq edilməklə istifadəçi məmnunluğunu təmin edəcək. Genişlənməyə və yeni əlavələrə açıq olan yeni SCADA sistemi 20 il zəmanətlə işləyəcək.

Son 1 ildə cənab Prezident tərəfindən "Şimal-2", "Yeni Yaşma" və "Lerik" elektrik stansiyalarının açılışı həyata keçirilib. 2018-ci ilin oktyabr ayının 11-də Cənubi Qafqazın ən böyük külək elektrik stansiyası olan 50 meqavatlıq "Yeni Yaşma" Külək Elektrik Parkı istismara verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Stansiyanın istismara verilməsi nəticəsində Azərbaycanda alternativ enerjinin ümumi istehsalda payı 0,7 faizdən 1,8 faizədək artıb. Eyni zamanda həmin gün 3,6 MVt gücündə "Yaşma Bağları" və 1,7 MVt gücündə "Şuraabad" Külək Elektrik Parkı da istismara verilib.

2018-ci ilin 15 oktyabr tarixində isə 16,5 meqavat gücündə "Lerik" Elektrik Stansiyasının açılışı olub.

2019-cu ilin 5 sentyabr tarixində cənab Prezident İlham Əliyevin iştirakı ilə 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyası istismara verilib. Cənubi Qafqazda 57,4 faiz olmaqla ən yüksək faydalı iş əmsalına malik olan "Şimal-2" Elektrik Stansiyası "Şimal-1" Elektrik Stansiyası ilə paralel istismar edilməklə daha sabit və qənaətcil olub və ölkənin ikinci böyük elektrik stansiyası statusunu əldə edib. "Şimal-1" və "Şimal-2" elektrik stansiyaları üzrə ümumilikdə il ərzində 5,7 milyard kilovat-saat elektrik enerjisi istehsalı nəzərdə tutulub. Hər iki elektrik stansiyası birlikdə respublikanın 20 faizini, Bakı və Abşeron yarımadasının isə 50 faizini elektrik enerjisi ilə təmin edəcək.

Stansiyanın açılışını çox əlamətdar hadisə adlandıran dövlət başçısı qeyd etmişdir ki, Azərbaycanda elektrik enerjisinə olan tələbat artır və əlbəttə, istehsal gücləri bu tələbata uyğun olmalıdır. Ona görə bu stansiyanın çox böyük əhəmiyyəti var: "Bu stansiyanın fəaliyyətə başlaması elektrik enerjisi sahəsində çox əlamətdar hadisədir. Mən şadam ki, biz bu gün bu stansiyanın açılışını edirik. Azərbaycanda bundan sonra da sənaye istehsalının və iqtisadiyyatın artımı elektrik enerjisi mənbələri ilə təmin edilməlidir".

### Azərbaycandan Gürcüstan və İrana yeni elektrik xətləri çəkilir

Elektrik enerjisi mübadiləsinin yaxşılaşdırılması, ixrac imkanlarının artırılması məqsədilə qonşu İran və Gürcüstan dövlətləri arasında yüksəkgərginlikli elektrik verilişi xətti çəkilir.

Gürcüstan Respublikası ilə elektrik enerjisi mübadiləsində etibarlılığı artırmaq və daha çox elektrik enerjisi ixrac etmək, o cümlədən Gürcüstandan tranzit etməklə Avropa bazarına çıxış imkanlarını daha da artırmaq məqsədilə 330 kilovoltluq "Ağstafa-Qardabani" hava xətti 44 km məsafədə, 2 dövrəli variantda yenidən qurulur. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında enerji mübadiləsinin texniki imkanlarının artırılmasını təmin edəcək 220 kilovoltluq "Masallı-İran Astarası" arasında isə yeni elektrik verilişi xətti çəkilir. Bundan başqa, Rusiya ilə enerji mübadiləsinin yaxşılaşdırılması, ixrac imkanlarının artırılması məqsədilə 330 kV-luq "Abşeron-Yaşma-Dərbənd" yeni hava xəttinin çəkilməsi layihələndirilir.

Dövlətlər arasında yeni hava xətlərinin çəkilməsi və ya yenidənqurulması enerjisistemlər arasında əlaqələrin etibarlılığını daha da möhkəmləndirəcək, xətlərin ötürücülük qabiliyyətini yüksəldəcək və beynəlxalq enerji bazarına çıxış potensialımızı daha da artıracaq.

### 57 rayon və şəhəri əhatə edən "Azərişıq" ASC-nin uğur formulu

Paytaxtın enerji təsərrüfatında həyata keçirilən yenidənqurma işləri və uğurlu islahatlar, təbii ki, hər zaman dövlət başçısının diqqətindədir. 2015-ci ilin fevral ayının 10-da Prezident İlham Əliyevin 1045 saylı sərəncamına əsasən, "Bakıelektrikşəbəkə" ASC-nin bazasında yaradılan "Azərişıq" ASC Prezident İlham Əliyevin "İşıqlı Azərbaycan" layihəsinin reallaşdırılması və ölkəmizin ən ucqar yaşayış məntəqələrinin belə nura bələnməsi naminə yorulmadan və iftixarla çalışmaqdadır.

Respublikamızın 57 rayon və şəhərini əhatə edən "Azərişıq" ASC 7 regional enerji təchizatı satış idarəsi üzrə fəaliyyət göstərir. Səhmdar cəmiyyətin əsas missiyası istehlakçıları etibarlı, təhlükəsiz və səmərəli elektrik enerjisi ilə təchiz etmək; yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə etmək; elektrik enerjisi istehsalçıları ilə əməkdaşlıqda diversifikasiyanı təmin etmək; ən müasir texnoloji yeniliklərə əsaslanan idarəetməni formalaşdırmaq; istehlakçılara göstərilən xidmətin keyfiyyətini yüksək səviyyədə təmin etmək və daim təkmilləşdirmək; elektrik enerjisinin texnoloji sərfiyyatını minimum səviyyəyə endirmək və sairdir.

Kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsinə uyğun olaraq "Azərişıq" ASC-yə aid 3 strateji hədəf, 3 prioritet istiqaməti əhatə edən 11 tədbir üzrə müvafiq işlər tamamilə yerinə yetirilib.

"Azərişıq" ASC tərəfindən 2025-ci ilədək respublika üzrə elektrik enerjisinə olan tələbatın proqnoz göstəricilərinə dair məlumatlar hazırlanaraq "Azərenerji" ASC ilə razılaşdırılıb, həmçinin İqtisadiyyat Nazirliyi tərəfindən 2030-cu ilə qədər tikintisi nəzərdə tutulan obyektlərin elektrik enerjisinə olan tələbatın proqnoz göstəriciləri hazırlanaraq Energetika Nazirliyinin işçi qrupuna təqdim edilib. Bir sözlə, respublikanın bütün istehlakçılarının fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması istiqamətində "Azərişıq" ASC tərəfindən həyata keçirilən tədbirlər davam etdirilməkdədir.

### Elektrik ixracatçısına çevrilən Azərbaycanın artan imkanları

Ötən ilin ilk 9 ayı ilə müqayisədə 2019-cu ilin 9 ayında elektrik enerjisinin istehsalında şərti yanaçağın sərfi 2,1 faiz, xüsusi sərfiyyat 4,9 faiz, elektrik enerjisinin ötürülməsində itkilərin həcmi 5,8 faiz azaldılıb.

Bu ilin arxada qalan 9 ayı ərzində "Azərenerji" ASC tərəfindən xarici dövlətlərə 1 milyard 36 milyon kVts elektrik enerjisi ixrac edilib ki, bu da ötən ilin 9 ayı ilə müqayisədə 310 milyon kVts çoxdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ixracın artması "Reabilitasiya Proqramı" çərçivəsində görülən işlərin nəticəsi hesab edilir. Çünki elektrik stansiyalarının texniki imkanlarının müəyyən qədər artması qonşu dövlətlərə daha çox elektrik enerjisi tədarük edilməsini şərtləndirib.

Oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlət başçısı bir daha son illərdə ölkəmizdə yenidən qurulan elektrik stansiyalarının, yarımstansiyaların, ötürücü xətlərin Azərbaycana böyük dividenllər gətirdiyini bildirdi. Cənab Prezident vurğuladı ki, məhz bu reallıqlar sayəsində Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında nəhəng dövlətlər sırasında 2-ci yerdə qərarlaşıb. Hesabata əsasən elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Əlbəttə ki, son illərdə bu qədər elektrik stansiyalarının, yarımstansiyaların, ötürücü xətlərin tikilməsi ölkəmizi dünya miqyasında ikinci yerə yüksəldib. Bütün bunlar cənab Prezident İlham Əliyevin bu sahədə gördüyü uğurlu işlərə verilən beynəlxalq qiymət, yüksək dəyərdir.

Bu işdə həmçinin Azərbaycan energetiklərinin az da olsa payının olması bizə sevinc hissi bəxş edir. Cənab Prezidentin diqqət və qayğısı, beynəlxalq reytinq təşkilatlarının hesabatlarındakı rəylər Azərbaycan energetiklərini həm qürurlandırır, həm də onlara fəaliyyətlərində böyük stimul verir.

Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin qüdrətli Azərbaycanın dünyaya günəş kimi nur saçması yolunda ölkə energetikləri qarşısında qoyduğu bütün tapşırıqlar bundan sonra da uğurla icra olunacaq.

***Gününüz mübarək, əziz energetiklər!***

**Baba RZAYEV,**
***"Azərenerji" ASC-nin prezidenti***











# Radikal müxalifətin ikinci oktyabr iflası

**"Bu gün Azərbaycanda iqtidarın bütün prosesləri nəzarət altında saxladığı və hökumətin iradəsindən kənar hər hansı bir məsələnin baş tutmasının mümkünsüzlüyü bir daha öz təsdiqini tapdı". AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb.**



Statusda deyilir: "Hörmətli oxucularım yəqin ki, 2003-cü ildə Azərbaycanda keçirilən növbəti prezident seçkilərindən sonra İlham Əliyevin möhtəşəm qələbəsi ilə barışmayan radikal müxalifətin şəhərin mərkəzi küçələrində törətdiyi dağıntıları, meydanları əsl döyüş səhnəsinə çevirmək cəhdlərini yaxşı xatırlayır. O zaman qanun keşikçilərinin həyata keçirdiyi ciddi tədbirlər və öz səsini qorumağa qalxan vətəndaşların dəstəyi ilə bütün antidemokratik hərəkətlərin qarşısı alındı, təşkilatçılar qanun qarşısında cavab verdi və radikal ovqatlı müxalif düşərgə ciddi iflasa uğradı. O hadisədən 16 il keçsə də, nə bəhs etdiyimiz həmin radikal müxalifətin siması, nə də ki, onların təşkil etdiyi aksiyaların xarakteri qətiyyən dəyişməyib".

Bəllidir ki, Bakı Şəhər İcra Hakimiyyəti "milli şura" adlanan bu antidövlət qurumunun və AXCP-nin oktyabrın 19-da mitinq keçirmək haqqındakı müraciətinə razılıq verdi və müvafiq olaraq yer ayırdı. Təəssüf ki, təşkilatçılar icazəli mitinqdən imtina edərək qarşıdurma yolu tutdular və şəhərin mərkəzində ictimai asayişi pozmağa cəhd göstərdilər. Onların belə destruktiv hərəkətlərinin nəticəsi olaraq, bu gün bir neçə saat ərzində şəhərin mərkəzi hissəsində əhalinin sabit və ritmik həyatı, nəqliyyatın hərəkəti, insanların rahatlığı pozuldu. Bircə onu qeyd etmək yerinə düşər ki, Bakı Nəqliyyat Agentliyi 14 marşrutun istiqamətini dəyişdirməyə məcbur oldu ki, bu da təxminən 200 min vətəndaşın rahatlığının pozulması deməkdir. Bakı Metropoliteninin "28 May" stansiyasının fəaliyyətinin dayandırılması nəticəsində yüz minlərlə insan vaxtında nəzərdə tutulan məntəqələrə çata bilmədi və diskomfort yaşamağa məcbur oldu. Avtomobil nəqliyyatının hərəkətində yaranmış problemlər, həmin ərazidə yaşayan insanların istirahətinin tam pozulması və radikal qrupların digər qeyri-qanuni əməlləri nəticəsində yaranmış başqa problemlər vətəndaşlarımıza həm fiziki, həm də mənəvi cəhətdən ciddi problemlər yaşatdı. Bəs bunun hesabını kim ödəməlidir? Bu qanunsuzluğa, özbaşınalığa görə kim məsuliyyət daşımalıdır?

Xatırlatmaq istərdim ki, aksiyadan bir neçə gün qabaq təşkilatçılar və potensial iştirakçılar müvafiq qurumlara dəvət olunaraq xəbərdar edilmişlər. Lakin həmin insanlar polis şöbələrindən çıxan kimi sevincək halda sosial şəbəkələrdə statuslar paylaşır, barələrində heç bir ölçü götürülmədiyini qeyd edir və oktyabrın 19-na təyin etdikləri qeyri-qanuni aksiyaya qoşulacaqlarını bildirirdilər. Təəssüf ki, onlar başa düşmədilər və təşkilatçılar da belələrinə başa salmadılar ki, müvafiq xəbərdarlıqdan sonra qeyri-qanuni əməllərin törədilməsi artıq birbaşa cinayət məsuliyyəti doğuran haldır və buna görə cavab vermək lazım gələcək.

Beləliklə, oktyabrın 19-da "milli şura" və AXCP-nin hakimiyyətə "diş qıcayaraq" "əzələ nümayiş etdirmək istəyi", ən əsası, israrla tez-tez təkrarlanan "xalq bizimlədir" tezisini rəhbər tutaraq Bakı şəhərində inqilabi ssenari reallaşdırmaq cəhdi yuxarıda qeyd etdiyim fəsadlardan əlavə, həm də onunla nəticələndi ki:

1. Əli Kərimlinin o zaman əsas rəhbərlərdən biri olduğu Xalq Cəbhəsi-Müsavat hakimiyyətinin səriştəsizliyi və antimilli siyasi ambisiyaları ucbatından 1992-1993-cü illərdə Azərbaycanın uçurumun kənarına necə gətirildiyini və yalnız Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti sayəsində fəlakətdən necə xilas edildiyini yaxşı xatırlayan xalqımız 2003-cü və 2019-cu ilin oktyabr aylarında bu dağıdıcı ünsürlərin yenidən ölkədə sabitliyi pozaraq aranı qarışdırmaq və öz antimilli ambisiyalarını reallaşdırmaq istiqamətindəki cəhdlərini birmənalı şəkildə boykot etdi və ona layiq olduğu yerini göstərdi.

2. Xalqımızın dağıdıcı müxalifətin ölkəni yenidən qarışdırmaq cəhdlərinə qarşı nümayiş etdirdiyi münasibət bir daha təsdiq etdi ki, bu xalq 2003-cü ilin oktyabrında olduğu kimi, 2019-cu ilin oktyabrında da Prezident İlham Əliyevi Azərbaycan dövlətçiliyinin əsas qarantı, milli maraqlarımızı yüksək səviyyədə ifadə edən və xalqın iradəsini hər şeydən üstün tutan lider kimi ciddi dəstəkləyir, ona alternativ görmür, dövlət başçısına etimad və güvəni hədsizdir, öz rəhbərinin arxasında sona qədər dayanmağa hazırdır.

3. Vətəndaşlarımızın dağıdıcı müxalifətin bugünkü aksiya cəhdinə münasibəti nümayiş etdirdi ki, bu xalq Prezident İlham Əliyevin başdan-başa yenilədiyi və qüdrətli dövlətə çevirdiyi Azərbaycanın yenidən 1990-cı illərin təhlükəli riskləri və eksperimentləri ilə üzüzə qoyulmasına heç zaman imkan verməyəcək.

4. Bugünkü aksiyanın digər maraqlı tərəfi ondan ibarət oldu ki, uzun müddətdir sosial şəbəkələrdə reklam aparılması, əhalinin israrla küçə və meydanlara dəvət olunması, mitinqə yüz minlərin qoşulacağı barədə boğazdan yuxarı iddialara baxmayaraq, radikal qruplar müxtəlif nöqtələrdən 10-15 nəfərlik lokal qrupları səfərbər edərək Mərkəzi Bankın qabağına cəmi 100-150 nəfər çıxara bildi. Qeyri-qanuni aksiya cəhdi sosial şəbəkələrdə "xalq iqtidardan bezib", "bu xalqın mitinqidir", "xalq haqqını tələb etmək üçün meydanlarda olacaq" hayqıran Əli Kərimli və tərəfdarlarının, əslində, heç bir ictimai dəstəyə malik olmadıqlarını və dediklərinin yalnız ucuz piar xarakteri daşıdığını əyani şəkildə təsdiqlədi.

5. Müxalifətin qeyri-qanuni 19 oktyabr aksiyasının qarşısının qətiyyətlə alınması həm də Azərbaycan iqtidarının nə qədər güclü, monolit olduğunu, xalq tərəfindən birmənalı şəkildə necə dəstəkləndiyini, dövlət orqanlarının funksionallığının yüksək səviyyəsini, xüsusən hüquq mühafizə orqanlarının, polisin peşəkarlığını, hakimiyyətin bütün hadisələri, prosesləri nəzarət altında saxladığını və idarə etdiyini, onun iradəsindən kənar, xalqın maraqlarına uyğun olmayan hər hansı bir məsələnin baş tutmasının mümkünsüzlüyünü nümayiş etdirdi.

6. Bu aksiyanın nəticəsi bir daha göstərdi ki, "milli şura" adlanan quruma və AXCP adlı partiyaya rəhbərlik edən şəxslər və onların ətrafındakı bir ovuc radikallar 25 ildən artıq bir dövrdə xarici anti-Azərbaycan dairələrin təhriki ilə antimilli fəaliyyət sürdürmüş, Azərbaycanın siyasi tarixində yalnız qeyri-etik qalmaqallarla, daxili didişmələrlə, qopma və parçalanmalarla yadda qalmış və qeyri-konstruktiv müxalifət imici qazanaraq özü-özünü fəlakətin bir addımlığına gətirmişdir. Bu da onu göstərir ki, cəmiyyətimiz davamlı şəkildə onun sabit, təhlükəsiz və inkişafda olan həyatını pozmağa çalışan belə müxalifətçilərlə gələcəyə doğru birgə addımlaya bilməz. Deməli, hakimiyyət uğrunda sivil mübarizə apara bilməyən belə radikal, dağıdıcı müxalifətlə nə iqtidar-müxalifət dialoqu aparmaq mümkündür, nə də onların bundan sonrakı dövrdə ölkənin siyasi səhnəsində qalması Azərbaycanın gələcək siyasi palitrası üçün yaxşı heç nə vəd etmir.

P.S. Diqqətə çatdırmaq istərdim ki, mənim aksiya ilə bağlı paylaşdığım bu yazıda gəldiyim qənaətlər heç də iş yerimdə oturaraq hasil etdiyim nəticə deyil, bilavasitə 3 saatını sərf edərək hadisə yerində prosesləri yaxından izləyən insanların verdiyi məlumatlar əsasında formalaşmış mülahizələrdir".

# Azərbaycanın Dövlət Müstəqilliyi Günü Ankarada qeyd olunub

Azərbaycanın Ankaradakı səfirliyi tərəfindən 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günü və diplomatik xidmət orqanlarımızın yaradılmasının 100 illiyi münasibətilə tədbir təşkil olunub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə rəsmi şəxslərin və diplomatların iştirakı ilə səfirliyin həyətində diplomatik orqanlarımızın yaradılmasının 100 illiyi münasibətilə ağac əkilib. Sonra bu aksiya Türkiyə paytaxtında yerləşən Heydər Əliyev Parkında davam edib.

Daha sonra Heydər Əliyev Parkında Ankaranın Mamak rayonundakı Əli Kuşçu adına orta məktəbin şagirdlərinin Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr etdikləri bədii proqram olub.



Ümummilli Lider Heydər Əliyevin abidəsi önündə Azərbaycanın Dövlət himnini xorla oxuyan şagirdlər vətənimizə, Azərbaycan-Türkiyə qardaşlığına həsr olunan şeirlər səsləndiriblər. Qeyd edək ki, şagirdlərin bu proqramı Ankaranın Əli Kuşçu adına orta məktəblə Bakıdakı 47 nömrəli tam orta məktəbin şagirdləri arasında keçirilən "Məktub qardaşlığı" layihəsinin tərkib hissəsidir.

Tədbirin sonunda ölkəmizin Ankaradakı səfiri Xəzər İbrahim və Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri Necdət Ünüvar Azərbaycanın Dövlət Müstəqilliyi Günü və diplomatik orqanlarımızın yaradılmasının 100 illiyi ilə bağlı fikir və mülahizələrini jurnalistlərlə bölüşüblər.

# Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə Londonda və Strasburqda tədbir keçirilib



Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin və Azərbaycan Evinin təşkilatçılığı ilə Londonda Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Evində keçirilən tədbirdə əvvəlcə ölkəmizin Dövlət himni səsləndirilib. Sonra Dövlət Müstəqilliyi Günü ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadə qonaqlara Dövlət Müstəqilliyi Gününün tarixi barədə məlumat verib. Müasir Azərbaycanın 1918-1920-ci illərdə fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu söyləyən səfir müstəqilliyin qorunub saxlanılmasının gənc nəslin əlində olduğunu bildirib. Azərbaycan Evi Mədəniyyət və Dostluq Mərkəzinin yaradıcısı və rəhbəri Əli Təkin Atalar Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin müasir tariximizin parlaq səhifəsi olduğunu qeyd edib.

Daha sonra gürcü əsilli antropoloq və etnoqraf, İngiltərənin ən məşhur universitetlərində dərs demiş Tamara Draqadze çıxış edib. O, müstəqilliyin əldə edilməsi ərəfəsində Azərbaycanın üzləşdiyi çətinliklərdən danışıb və qonaqların suallarını cavablandırıb.

Tədbirdə Böyük Britaniyada təhsil alan tələbələr də Dövlət Müstəqilliyi Günü ilə bağlı fikirlərini bölüşüblər.

* * *

Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyində Dövlət Müstəqilliyi Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Azərbaycan icmasının üzvləri və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirin əvvəlində Azərbaycanın Dövlət himni səsləndirilib. Sonra daimi nümayəndəliyimizin rəhbəri, səfir Fəxrəddin İsmayılov çıxış edərək 1991-ci ildə dövlət müstəqilliyinin bərpa edilməsinin müasir tariximizin parlaq səhifəsi olduğunu söyləyib. O, 28 il ərzində ölkəmizdə keçilən yola nəzər salaraq Azərbaycanın üzləşdiyi çətinliklər, xüsusən Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin işğal edilməsi, bir milyondan artıq insanın məcburi köçkün və qaçqına çevrilməsi barədə danışıb. Səfir çətinliklərə baxmayaraq, ölkəmizin böyük tərəqqi yolu keçdiyini deyib.



Tədbirdə həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 may 2019-cu il tarixli Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı Fransada Azərbaycan diasporunun üzvü, ölkəmizlə bağlı çoxsaylı yazıların müəllifi Şirin Melikoffa təqdim edilib. Diasporla İş üzrə Dövlət Komitəsi həmin medalı təqdim etməyi daimi nümayəndəliyimizə həvalə edib. Təltifə görə ölkə rəhbərliyinə dərin minnətdarlığını ifadə edən Ş.Melikoff ilk dəfə Azərbaycana 1970-ci illərdə getdiyini və həmin vaxtdan davamlı olaraq ölkəmizlə təmasda olduğunu bildirib. O, hətta bir çox tarixi hadisələrin, o cümlədən 20 Yanvar faciəsinin baş verdiyi vaxtlarda və 1991-ci ilin 18 oktyabrında Azərbaycanda olduğunu bildirərək xatirələrini bölüşüb.

Qeyd edək ki, XX əsrin əvvəllərində Fransaya gələn Azərbaycan mühacir nəslinin nümayəndəsi Ş.Melikoffun anası İren Melikoff da uzun illər Azərbaycan daxil olmaqla, türk dünyası ilə bağlı apardığı araşdırmalarla tanınıb.

# Koreya Prezidenti Azərbaycan ilə ali səviyyəli qarşılıqlı səfərlərin reallaşdırılmasını maraqla gözləyir

Koreya Respublikasının Prezidenti Mun Ce-in və xanımı Kim Cunq-suk Koreyada fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri üçün rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, rəsmi qəbulda iştirak edən ölkəmizin Seuldakı səfiri Rəmzi Teymurov Prezident Mun Ce-inlə görüşü zamanı Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını çatdırıb. O, Koreya Respublikası Milli Assambleyasının sədri Mun He-sanqın Azərbaycana səfərinin uğurla həyata keçdiyini, səfər zamanı ikitərəfli və çoxtərəfli formatda əlaqələrin inkişafına töhfə verəcək mühüm məsələlərin müzakirə edildiyini bildirib. Səfir, həmçinin Azərbaycan və Koreya Respublikası arasında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin vacibliyini diqqətə çatdırıb. Koreya Respublikası Prezidenti Mun Ce-in öz növbəsində onun da salamlarının Azərbaycan Prezidentinə çatdırılmasını xahiş edib. O, Azərbaycan ilə ali səviyyəli qarşılıqlı səfərlərin reallaşdırılmasını maraqla gözlədiyini bildirib.



Rəsmi qəbulda çıxış edən Prezident Mun Ce-in Koreya yarımadasında davam edən nüvəsizləşdirmə prosesinə dair sülhə istiqamətləndirilmiş danışıqların gələcəkdə öz bəhrəsini verməsi üçün diplomatik korpusun və beynəlxalq ictimaiyyətin dəstəyinin vacibliyini vurğulayıb.

Tədbirdə Koreya Respublikasındakı səfirlər və beynəlxalq təşkilatların nümayəndəliklərinin rəhbərləri, hökumət və parlament üzvləri, prezident administrasiyasının rəsmiləri iştirak ediblər.

# *Bakı Şəhər Baş Polis İdarəsi:* "Görülmüş tədbirlərlə hüquqazidd hərəkətlərin genişlənməsinin qarşısı alınıb"

Özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurumun üzvləri oktyabrın 19-da paytaxtın mərkəzi ərazilərindən birində mitinq keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişlər.

Müraciətə baxılaraq "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun müvafiq tələblərinə əsasən ictimai asayişin pozulmasının qarşısının alınması, iğtişaş və cinayətlərin baş verməməsi, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə aksiyanın şəhərin mərkəzi hissəsində keçirilməsi onun yerinin dəyişdirilməsi formasında məhdudlaşdırılaraq Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki "Neftçi" idman klubunun təlim bazası təklif olunmuşdur. Bu barədə müraciətin müəlliflərinə rəsmi məlumat verilmiş və onlar müəyyən edilməmiş yerlərdə keçiriləcək mitinqin qarşısının alınacağı, baş verə biləcək ictimai qayda pozuntularına görə məsuliyyət daşıyacaqları barədə Bakı Şəhər Baş Polis İdarəsi və Şəhər Prokurorluğu tərəfindən rəsmi xəbərdar edilmişlər.

Bakı Şəhər Baş Polis İdarəsindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, buna baxmayaraq, aksiyanın təşkilatçıları oktyabrın 19-da saat 15:00-dan başlayaraq ümumi sayı təxminən 220 nəfərədək olan bir neçə qrupla müxtəlif istiqamətlərdən metronun "28 May" stansiyasının önündəki meydana daxil olmağa cəhd göstəriblər.

Görülmüş tədbirlərlə hüquqazidd hərəkətlərin genişlənməsinin qarşısı alınıb, qanunsuz aksiyanın təşkilatçıları və fəal iştirakçıları da daxil olmaqla 60 nəfər saxlanılıb. Onlardan 18 nəfərin əməlləri ərazi polis qurumlarında müvafiq qaydada sənədləşdirilərək toplanmış materiallar qanunla müəyyən edilmiş tədbirlərin görülməsi üçün məhkəmələrə göndəriləcək. İzahatları alınmış daha 42 nəfər hüquqazidd hərəkətlərin yolverilməzliyi barədə rəsmi xəbərdarlıq edildikdən sonra buraxılıb.

# "Əsrin müqaviləsi" ilə dünyaya səs salan Azərbaycan iqtisadiyyatı şaxələndirməklə inkişafını təmin edə bilər

"Əsrin müqaviləsi" ilə dünyaya səs salan Azərbaycan iqtisadiyyatı şaxələndirməklə inkişafını təmin edə bilər. AZƏRTAC xəbər verir ki, bu fikirlər Yaponiya-Rusiya Ticarət Assosiasiyasının direktor müavini, iqtisadçı ekspert Ritsuka Hattorinin "Globe Asahi" qəzetində dərc olunmuş "Azərbaycan neft tükənsə belə yaşaya bilərmi? "İkinci Dubay"ın dönüş nöqtəsi" adlı məqaləsində öz əksini tapıb.

Ölkəmizin coğrafi mövqeyi, zəngin karbohidrogen ehtiyatları, Bakıda neft sənayesinin tarixi və bu günü barədə çox müfəssəl məlumatların əks olunduğu məqalədə müəllif son vaxtlar Azərbaycanın neft ehtiyatlarının azalması barədə bir sıra istehlakçı ölkələri narahat edən suala cavab verməyə çalışıb. Qeyd edib ki, Azərbaycan keçmiş sovet ölkələri arasında özünün sürətli inkişafı ilə fərqlənib. Karbohidrogen hasilatından əldə edilən mənfəətdən bacarıqla istifadə edən Azərbaycan yalnız paytaxtda deyil, həmçinin regionlarda da müasir inkişafa nail olub. Nəticədə öz gözəlliyi ilə seçilən Bakı "İkinci Dubay" adını qazanıb.

Azərbaycanda neftin sənaye üsulu ilə hasilatı tarixi barədə ətraflı danışan R.Hattori ilk neft buruğunun məhz Bakıda XIX əsrin ortalarında quraşdırıldığını xatırladıb. Qeyd edib ki, Azərbaycanın "qara qızıl"ı həmin dövrün böyük kapitalistləri olan Rotşildlərin və Nobel qardaşlarının buraya xüsusi diqqətinin yaranmasına səbəb olub. XX əsrin əvvəllərində isə dünya neft hasilatının təxminən yarısı Bakıda toplanıb. Bu gün dünyada böyük populyarlıq qazanmış Nobel mükafatının əsasında məhz Bakı neftindən əldə edilən mənfəət dayanır.

Sovet illərində də Bakı neftinin keçmiş SSRİ-nin iqtisadi inkişafında mühüm rol oynadığını deyən müəllif, nasist Almaniyasının II Dünya müharibəsi dövründə Qafqaza yürüşünün məqsədinin bu nefti ələ keçirmək olduğunu xüsusi qeyd edib. 1960-cı illərdə Bakıda neft hasilatı azalarkən Rusiyanın Volqa ətrafı və Qərbi Sibir regionlarında aşkar edilən neft yataqlarının məhz müvafiq olaraq "İkinci Bakı" və "Üçüncü Bakı" adlandırıldığını xatırladıb.

1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpasından sonra neft hasilatının bərpası istiqamətində mühüm addımların atıldığına diqqət çəkən R.Hattori bunun üçün böyük kapital tələb edən Xəzər dənizindəki yataqların istismarının gündəmə gəldiyini qeyd edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin böyük zəhməti və siyasi iradəsi nəticəsində 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" yataqlarının istismarı məqsədilə beynəlxalq konsorsiumla imzalanan "Əsrin müqaviləsi"nin xüsusi əhəmiyyət daşıdığını vurğulayır. Bildirir ki, bu sənəd məhz çox nəhəng həcminə görə həmin adı alıb. Bu müqavilənin həyata keçməsi nəticəsində inşa edilən Bakı-Tbilisi-Ceyhan neft kəməri Türkiyədən və Aralıq dənizindən keçməklə 2006-cı ildə Bakı neftinin dünya bazarlarına çıxışını təmin edib.

Həmin layihənin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük roluna diqqət çəkən müəllif, Ulu Öndər Heydər Əliyevin siyasətinin 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini bildirir. Xüsusi vurğulayır ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil siyasət xətti bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan rəhbərliyinin bu siyasəti beynəlxalq ictimaiyyət tərəfindən çox yüksək qiymətləndirilir.

Neft gəlirlərinin Azərbaycan iqtisadiyyatının sürətli inkişafına səbəb olduğunu vurğulayan R.Hattori nəticədə ümumi daxili məhsulun dəfələrlə artdığını, bu göstəricinin bütün dünya üzrə ən yüksək həddə çatdığını qeyd edir. Bildirir ki, neftdən əldə edilən gəlir ölkədə müasir infrastrukturun inkişafına, nəhəng inşaat və quruculuq işlərinə yol açıb. Bakı göydələnlər şəhərinə - "İkinci Dubay"a çevrilib.

Vurğulayır ki, Azərbaycan həm də böyük idman yarışlarının, beynəlxalq mədəni tədbirlərin təşkil edildiyi mərkəzə dönüb. "Eurovision" mahnı müsabiqəsi, Birinci Avropa Oyunları, "Formula-1" Azərbaycan Qran Prisi buna ən parlaq misal kimi göstərilir. Qeyd edilir ki, bütün bu uğurlar Bakının Olimpiya Oyunlarına evsahibliyi etmək üçün Tokio, 2025-ci il Dünya sərgisi ilə əlaqədar Osaka ilə rəqabət aparmasına imkan yaradıb.

Azərbaycanda neft hasilatının azalması ilə bağlı narahatlıq keçirənlərə müraciət edən müəllif ölkəmizin həm də böyük qaz yataqları olmasına diqqət yönəltməyi məsləhət görür. Qeyd edir ki, "Şahdəniz" yatağından çıxarılan qazı Gürcüstan vasitəsilə Türkiyəyə ötürən TANAP boru kəmərinə xüsusi diqqət yetirmək lazımdır. Vurğulayır ki, bu sahənin hələ uzun müddət inkişaf edəcəyini mütəxəssislər də təsdiq edirlər.




Bununla yanaşı, R.Hattori ölkə rəhbərliyinin iqtisadiyyatın şaxələndirilməsinə böyük diqqət yetirdiyini də məqaləsində xüsusi vurğulayır. Bildirir ki, Azərbaycan bununla ölkə iqtisadiyyatının neftdən asılılığını aşağı salmağa çalışır. Xarici investisiyaların cəlbi yolu ilə qeyri-neft sektorunun, emal sənayesinin, kənd təsərrüfatının, yüngül sənayenin, nəqliyyat infrastrukturunun inkişafına böyük önəm verilir.

Azərbaycan rəhbərliyinin xidmət sahələrinə, xüsusən nəqliyyat sektorunun inkişafına xüsusi diqqət yetirdiyini qeyd edən müəllif, ölkəmizin "İpək Yolu" üzərində olan qədim ticarət və ötürücü mərkəzlərdən biri olduğunu xatırladır. Bu, Azərbaycanı Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində mühüm dayaq nöqtəsinə çevirir. Qeyd edir ki, məhz bu ənənələri nəzərə alan Azərbaycanda yeni avtomagistrallar, aeroportlar, dəmir yolu üzərində qurulan "Dəmir İpək yolu"nun inşasına xüsusi diqqət yetirilir. 2017-ci ildə fəaliyyətə başlayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti də məhz bu ideyanın reallaşmasına xidmət edir.

Məqalənin sonunda müəllif bir daha qeyd edir ki, yuxarıda sadalanan istiqamətlər Azərbaycanın hələ uzun müddət dinamik inkişafını təmin etməklə, bu ölkəni bütün dünyaya daha yaxından tanıdacaq.

Yazıda Bakı və Azərbaycan rayonlarının inkişafını, neft və qaz sənayesinin görüntülərini əks etdirən fotolara da geniş yer verilib.

## Azərbaycan-Rusiya münasibətləri

# Humanitar əlaqələrin uğurlu nümunəsi

Əvvəli 1-ci səh.

Hazırda bütün planeti öz təsiri altına almış qarşısıalınmaz qloballaşma prosesləri xalqımızın milli kimliyini və özünəməxsusluğunu qorumaqla yanaşı, fərqli mədəniyyətlərlə yaxından təmasda olmağı, habelə dünyaya çıxış üçün aparıcı xarici dilləri, ortaq dəyərləri öyrənməyi zəruri edir.

Təcrübə göstərir ki, xalqlar arasında mövcud olan tarixi-mədəni əlaqələr diplomatik münasibətlərin səmərəli qurulmasında mühüm əhəmiyyət daşıyır və rəsmi Bakı Rusiya ilə əlaqələrin inkişafında bu amili hər zaman nəzərə almağa çalışır. Azərbaycanın sivilizasiyalararası dialoq təşəbbüskarı kimi çıxış etməsi, ölkədə milli azlıqların bütün hüquqlarının ciddi səviyyədə qorunması, yüksək tolerantlıq mühitinin hökm sürməsi Rusiya-Azərbaycan münasibətlərinə müsbət təsirini göstərir. Azərbaycan bu gün MDB-də azsaylı respublikalardan biridir ki, burada dövlət büdcəsi hesabına rus dilinin, rusdilli təhsilin inkişafına diqqətlə yanaşılır.

Xalqımız bir sıra obyektiv tarixi proseslər fonunda rus dili ilə bağlı olmuş, dünya mədəniyyətinə məhz bu dilin köməyi ilə çıxmışdır. XIX-XX əsrlərdə respublikamızın bir çox nüfuzlu ziyalıları, yazıçı və dramaturqları Rusiyada yüksək ali təhsil almışlar. İki əsrdən artıq müddətdə respublikamızda rus mədəniyyətinin və maarifinin pozitiv təsirləri duyulmuş, mütərəqqi təhsil ənənələrinin formalaşmasında öz sözünü demişdir. Qonşu ölkədə yaşayan azərbaycanlılar isə ictimai-siyasi, sosial-iqtisadi, mədəni, elmi sahələrdə çalışır, ikitərəfli əlaqələrə öz layiqli töhfələrini verirlər.

Postsovet məkanında Rusiya və xarici ölkə yazıçılarının müxtəlif janrlarda rus dilində nəşr olunmuş kitablarının təqdim edildiyi ilk ixtisaslaşmış Rus Kitab Evi də Azərbaycan paytaxtının mədəni-intellektual mühitində özünəməxsus rol oynayır. Bura həm rus dilində mütaliə həvəskarlarının sevimli ünvanı, həm də millətlərarası həmrəyliyin möhkəmlənməsi və Azərbaycanla Rusiyanın mədəni-humanitar əlaqələrinin dərinləşməsi üçün əlverişli məkandır. Öz fəaliyyəti ilə bu kitab evi də Azərbaycan və Rusiya arasında mehriban dostluq münasibətlərinin inkişafına, humanitar sferada qarşılıqlı əlaqələrin gücləndirilməsinə öz dəyərli töhfələrini verir.

Müstəqil dövlət kimi Azərbaycan və Rusiya arasında diplomatik münasibətlər təxminən 26 illik dövrü əhatə etsə də, tarixilik baxımından bunun kökü daha qədimlərə gedib çıxır. Azərbaycan və rus xalqlarını təkcə ərazi yaxınlığı, ortaq sərhədlər deyil, həm də tarixi, mədəni, sosial bağlar bir-birinə birləşdirir. Bu mənada, iki xalq və dövlət arasındakı münasibətlər təkcə sərhədlərə dayanan qonşuluqla əlaqədar deyil, həm də dostluq və əməkdaşlığa əsaslanır.

### Qarşılıqlı hörmətə əsaslanan münasibətlər

Son iki əsr ərzində olduğu kimi, ölkələrimiz və xalqlarımız bu gün də dostluq və mehriban qonşuluq ənənələrini qoruyurlar. Bu ənənələrdən hər iki cəmiyyət üçün faydalı məqsədlərlə istifadə edilir. Dövlət müstəqilliyinin bərpasından sonra bu tarixi əlaqələrin qorunub saxlanması, keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi belə bir strateji əməkdaşlığın təməlini qoymuş Ümummilli Lider Heydər Əliyevin, həmçinin bu siyasəti davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin böyük xidmətləridir.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışından sonra bir çox sahələrdə olduğu kimi, Azərbaycanla Rusiya arasındakı münasibətlərdə də əvvəlki səriştəsiz iqtidarlar dövründə yaradılmış geriləmələr, gərginliklər tədricən aradan qalxmağa başladı. 2000-ci ildə Rusiyada Vladimir Putinin Prezident seçilməsi ilə qonşu dövlətin siyasətində, xüsusilə də ənənəvi müttəfiqlərlə münasibətlərində praqmatizm və konstruktivizm, sağlam, qarşılıqlı faydalılığa və səmərəliliyə dayanan əməkdaşlıq meyilləri özünü göstərdi.

Ulu Öndər Heydər Əliyevin Rusiya ilə bağlı daimi xoşməramlı mövqeyi Azərbaycan-Rusiya münasibətlərində yeni inkişaf mərhələsinin əsasını qoydu. Azərbaycan və Rusiya prezidentlərinin qarşılıqlı səfərləri dostluq və etimad bağlarının möhkəmlənməsinə, hərtərəfli mübadilələrin genişlənməsinə təkan verdi. Bir çox mühüm məsələlər və sahələr üzrə hər iki dövlətin və xalqın milli, dövlətçilik maraqlarına cavab verən sazişlər, müqavilələr imzalandı. Bu razılaşmaların mühüm bir qismi də məhz humanitar sahədə əməkdaşlıqları nəzərdə tuturdu. Beləliklə, münasibətlər əvvəlki tempinə, normal səviyyəsinə qaytarıldı və bu nəticənin əldə olunmasında humanitar əlaqələrin gücləndirilməsi mühüm rol oynadı.



2003-cü ilin oktyabrında cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsi, Ulu Öndərin milli dövlətçilik kursunu davam etdirməsi Azərbaycan və Rusiya münasibətlərində daha ciddi, hərtərəfli tərəqqi meyillərinin uğurlu yüksəkliyinə gətirib çıxardı. Əslində bu da yeni inkişaf mərhələsinin əsası idi. Azərbaycan Prezidenti dəfələrlə Rusiyaya rəsmi və işgüzar səfərlər etdi. Eyni zamanda Rusiya Prezidenti V.Putinin bir neçə dəfə Azərbaycana yüksək səviyyəli səfərləri reallaşdı. Hətta bu səfərlərin, qarşılıqlı etimada, etibara və səmimiyyətə dayanan münasibətlərin nəticəsi olaraq ölkəmiz ilk dəfə, 2016-cı ilin avqustunda Bakı şəhərində Azərbaycan, Rusiya və İran prezidentlərinin - "Üçlər" formatının zirvə toplantısına evsahibliyi etdi. Bunun davamı olaraq növbəti görüş 2017-ci ilin noyabr ayında İranda, Tehran şəhərində gerçəkləşdirildi.

Şübhəsiz ki, bu əməkdaşlıq formatlarının alınmasında Azərbaycan və Rusiya prezidentlərinin xidmətləri müstəsnadır. 3 oktyabr 2019-cu ildə Soçi şəhərində Rusiyanın təşəbbüsü ilə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubundakı tarixi çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanla Rusiya arasındakı münasibətlərin mövcud səviyyəsini belə qiymətləndirdi: "Ölkələrimiz arasında münasibətlər strateji əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, biz bir-birimizi strateji tərəfdaşlar adlandırırıq. Bu gün biz ikitərəfli münasibətlərin çox geniş gündəliyini nəzərdən keçirdik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirdik. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Dövlət başçılarının və digər rəsmi şəxslərin müntəzəm görüşləri əməkdaşlığımızın dərinləşməsinə şərait yaradır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, ən mühüm, ümdə məsələlərdə ənənəvi olaraq bir-birimizi dəstəkləyirik".

Hər iki ölkənin dövlət rəhbərləri arasındakı qarşılıqlı inam və etimad bu gün ikitərəfli münasibətlərin sivil məcrada yüksəlişini təmin edir. Prezident İlham Əliyev Bakıdakı Rus Kitab Evinin 10 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Rusiya nümayəndə heyətini qəbul edərkən bu məsələni xüsusi vurğulayaraq demişdir: "Heç kəs üçün sirr deyil ki, mənim Vladimir Vladimiroviçlə əslində qarşılıqlı hörmətə, qarşılıqlı anlaşmaya və əməkdaşlığı dərinləşdirmək cəhdlərinə əsaslanan mötəbər, mən deyərdim ki, dost münasibətlərimiz mövcuddur".

### Ənənələr davam etdirilir

Dövlət rəhbərimizin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubundakı tarixi çıxışında da qeyd etdiyi kimi, ölkələrimiz arasında ticari-iqtisadi münasibətlərin inkişafında müsbət dinamika müşahidə olunur. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Rəsmi statistikaya görə, 2018-ci ildə 880 min rusiyalı Azərbaycana səfər edib. Bu il isə onların sayı daha da çoxalıb. Rusiyalı turistləri Azərbaycana cəlb edən amillər sırasında təbii ki, ölkəmizin füsunkar guşələri, mədəni-tarixi yerləri, milli mətbəximizin dadı ilə yanaşı ölkəmizdəki təhlükəsizlik, əmin-amanlıq, rahatlıq mühitinin də böyük rolu var.

Humanitar əlaqələrin mühüm bir qismi də təhsil sferasını əhatə edir. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Hazırda Rusiyanın müxtəlif nüfuzlu ali məktəblərində 11 mindən çox tələbə təhsil alır. Bu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı nəcib ənənənin davamıdır. O illərdə Ulu Öndərin təşəbbüsü, bilavasitə dəstəyi ilə hər il minlərlə Azərbaycan gənci keçmiş ittifaqın, xüsusilə də Rusiyanın aparıcı ali məktəblərində təhsil almaq üçün göndərilir, bu gənclər oxuduğu illərdə həm rus dilinə dərindən yiyələnir, həm də ölkəmiz üçün xüsusilə vacib ixtisaslar üzrə peşəkar bacarıqlar qazanaraq vətənə dönürdülər. Heydər Əliyevin sovet dövründə Rusiyaya təhsil almaq üçün göndərdiyi gənclərin böyük qismi bu gün də Azərbaycan həyatının müxtəlif sahələrində layiqincə çalışır, dövlətimizin inkişafına öz dəyərli töhfələrini verirlər.

### Azərbaycanda rus dilinə münasibət

Azərbaycan bu gün postsovet məkanında rus dilinə böyük hörmət bəslənən azsaylı ölkələrdən biridir. Respublikamızda hazırda 120 mindən çox təkcə rus əhalisi yaşayır.

Bakıda rus dilinin öyrənilməsi üzrə iri mərkəzlərdən biri - Bakı Slavyan Universiteti uzun illərdən bəri uğurla fəaliyyət göstərir və ölkəmizdə slavyan dilləri, xüsusilə rus dili üzrə peşəkar pedaqoji kadrların hazırlanmasında, elmi tədqiqatların aparılmasında mühüm rol oynayır. Bundan başqa, bütün dövlət ali məktəblərimizdə rus dili bölmələri var, bu bölmələrdə 25 mindən çox tələbə təhsil alır. Təhsilin rus dilində olduğu 338 məktəbdə isə 130 min azərbaycanlı şagird rus dilində oxuyur.

Bütün bunlar zəngin elm, mədəniyyət, təhsil dili kimi rus dilinin köməyi ilə Azərbaycanda formalaşan intellektual ənənələrdən irəli gəlir. Məlum olduğu kimi, hələ çar Rusiyası dövründə və sovet hakimiyyəti dönəmində Azərbaycan cəmiyyətinin dünyada özünü göstərən inkişaf meyilləri ilə tanışlığı məhz rus dili vasitəsilə baş verir, bu dilin elmi, mədəni, ədəbi mühitində əxz olunurdu.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra da rus dilinin zəngin resurslarına, ünsiyyət imkanlarına müsbət mənada ehtiyac qaldığından bu dil özünün millətlərarası kommunikasiya mövqeyini tam itirmədi.

Azərbaycanda rus dilinə olan yüksək hörməti Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov Bakı Rus Kitab Evinin 10 illik yubileyində iştirak etmək üçün ölkəmizdə səfərdə olarkən müsahibələrinin birində xüsusi təqdir etdi.

"Azərbaycanda rus dilinə olan münasibəti başqalarına nümunə göstərmək olar" deyən L.Kalaşnikovun qənaətincə postsovet məkanında rus dilinə Azərbaycandakından daha isti, effektiv münasibət, çətin ki, tapılar. O hesab edir ki, Azərbaycanda doğma dilimizə sadiq qalmaqla rus dilinə bu qədər isti münasibət göstərilməsi həmin dilin dünya mədəniyyətinə çıxış kanalı olmasından irəli gəlir.

Dövlət Dumasının komitə sədri Azərbaycanda rus dilinin qorunması və inkişafında Ümummilli Lider Heydər Əliyevin xidmətlərini xüsusi vurğuladı.

Azərbaycan dövlətinin müstəqillik illərində rus dilinə bir çox keçmiş ittifaq ölkələrindən fərqli olaraq ögey münasibət göstərməməsi Ulu Öndərin müdrikliyindən irəli gəlirdi. Rus dilinin imkanlarından mədəni inkişaf üçün yetərincə bəhrələnmiş Azərbaycan xalqı müstəqillik dövründə bu dildən çəkinməyə ehtiyac görmədi, rus mədəni arealında iştirakını saxladı. Digər tərəfdən bu amildən Rusiya ilə münasibətlərin inkişafında əhəmiyyətli məqam kimi faydalandı və bu gün də faydalanır.

### Yaradıcı əlaqələr

Hazırda Bakıda dünyanın düşüncə tarixinin böyük şəxsiyyətlərindən olan dahi rus şair və yazıçıları Puşkinin, Lermontovun, Tolstoyun adlarını daşıyan küçələr var. Paytaxtın mərkəzindəki bağların birində Puşkinin şərəfinə abidə ucalır. Bakıdakı Yesenin və Lermontov muzeylərində bu şairlərin ölkəmizdə olması ilə bağlı xatirələr qorunub saxlanır. Bakıda Səməd Vurğun adına Rus Dram Teatrı fəaliyyət göstərir. Bu teatr öz maraqlı repertuarı, yaradıcı heyəti, nümayiş etdirdiyi tamaşalarla azərbaycandilli teatr həvəskarları arasında da kifayət qədər populyardır. Azərbaycan teatrlarının əksəriyyətində də rusdilli truppalar çalışır.

2009-cu ildən Bakıda Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi fəaliyyətdədir. Mərkəz Azərbaycan və Rusiya arasında mədəni, təhsil, elmi-texniki və informasiya əlaqələrinin inkişafı missiyasını yerinə yetirir. Azərbaycanın yaradıcı və mədəni-maarifləndirici təşkilatları ilə əməkdaşlığın yaranmasına və inkişafına, ölkələr arasında qarşılıqlı işgüzar münasibətlərin genişlənməsinə şərait yaradır.

Bakıda 2004-cü ildən "Luç" Azərbaycan Mədəniyyət Xadimləri Assosiasiyası da fəaliyyət göstərir. Bu ictimai təşkilatın yaradılmasının təşəbbüsçülərindən biri Azərbaycan Rus İcmasıdır. "Luç" Assosiasiyası respublikanın yaradıcı insanlarını - Bakı universitetlərinin rus dili və ədəbiyyatı kafedralarında çalışan ədəbiyyatşünas və dilçiləri, rusdilli dövri nəşrlərin jurnalistlərini, həvəskar və ya peşəkar səviyyədə ədəbi yaradıcılıqla məşğul olan insanları sıx birləşdirmək, Azərbaycanda rus dilini qoruyub saxlamaq və inkişaf etdirmək istiqamətində səmərəli iş aparır. Assosiasiyanın fəaliyyəti çoxşaxəlidir. O, Azərbaycan Yazıçılar Birliyi və "Rossotrudniçestvo" agentliyi ilə sıx əlaqə saxlayır, Rusiya ilə Azərbaycan arasında ədəbi əlaqələri inkişaf etdirir.

"Luç" Assosiasiyası müntəzəm olaraq dünya, Azərbaycan və rus ədəbiyyatının korifeylərinin yubileylərinə həsr edilmiş tədbirlər, rus dili və ədəbiyyatı üzrə ustad dərsləri, beynəlxalq ədəbi müsabiqələr keçirir.

Ölkəmizdə rus dilində çoxsaylı informasiya portalları, qəzet və jurnallar, dərsliklər, bədii ədəbiyyat nümunələri nəşr olunur, televiziya və radio kanallarında verilişlər translyasiya edilir, Rusiyanın çoxsaylı dövri mətbu nəşrləri satılır. Rusiyanın bir sıra informasiya agentliklərinin Azərbaycanda müxbir məntəqələri var.

### Multikulturalizm nümunəsi

Cənubi Qafqazda etnik rusların ən böyük icmasının məhz Azərbaycanda yaşaması, onların öz ana dillərini, mədəniyyətlərini, milli adət-ənənələrini qoruyub saxlamaları, cəmiyyətin ictimai-siyasi, elmi-mədəni və sosial-iqtisadi həyatında geniş təmsil olunmaları, dövlətçiliyimizin möhkəmlənməsində fəal iştirak etmələri ölkəmizdəki multikulturalizm mühitinin nailiyyətidir.

Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə yaradılmış Bakı Beynəlxalq Humanitar Forumunun müntəzəm iclasları da ölkələrimiz arasındakı humanitar əlaqələrin daha bir uğurudur. Bu beynəlxalq platformanın əsas məqsədi humanitar sahədə əlaqələri gücləndirmək, beynəlxalq səviyyədə humanitar çağırışları aktuallaşdırmaqdır.

Bakı Beynəlxalq Humanitar Forumu hər il keçirilir, onun işində dünyanın elmi-mədəni və siyasi elitasının görkəmli nümayəndələri, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri və KİV əməkdaşları iştirak edirlər. Bu görüşlərdə müasir dövrün aktual problemləri müzakirə olunur. Forum çərçivəsində təşkil edilən "dəyirmi masa"lar, dialoqlarla bilik mübadiləsinə, konstruktiv debat və müzakirələrə şərait yaradılır. Hər müzakirənin nəticələri beynəlxalq təşkilatlara, dünya ölkələrinə və ayrılıqda fərdlərə ünvanlanmış tövsiyə və müraciətlərdə təcəssüm olunur.

Rusiya ilə humanitar əlaqələrin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun, fondun vitse-prezidenti Leyla xanım Əliyevanın Rusiyanın müxtəlif şəhərlərində, o cümlədən Həştərxanda, Volqoqradda, Ulyanovskda həyata keçirdiyi humanitar layihələrin çox böyük rolu var.

### "Qarabağ Azərbaycandır və NİDA"

Hələ də ədalətli həllini tapa bilməmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə tənzimlənməsi prosesində vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupunun 3 həmsədrindən biri kimi də Rusiya ilə əməkdaşlıq əlarələrinin ölkəmiz üçün önəmi böyükdür.

Azərbaycan cəmiyyətində Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində gözləntilər digər həmsədr dövlətlərdən bəlkə də ən çox qonşu və dost Rusiyadandır. Azərbaycan vətəndaşları bu münaqişənin sülh yolu ilə ədalətli həllinə Rusiyanın töhfələr verəcəyinə daha çox ümidlidirlər. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti Rusiyanın təşəbbüsü ilə təşkil olunan "Valday" Beynəlxalq Diskussiya Klubundakı çıxışında da bu məqama xüsusi yer ayırdı və Ermənistanın nöqtə sonluqlu sərsəm bəyanatları ilə məşhurlaşmağa çalışan yeni rəhbərliyinə sarsıdıcı zərbə vurdu: "Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib" dedi Azərbaycan Prezidenti: "Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Bunun davamı olaraq MDB Dövlət Başçıları Şurasının Türkmənistanın Aşqabad şəhərində keçirilmiş məhdud tərkibli iclasında da cənab İlham Əliyev gündəlikdə Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar məsələnin olmasından istifadə edərək Ermənistanı 2016-cı ildə Yerevanın mərkəzində faşist cəlladı və satqın Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana 6 metrlik heykəlin qoyulmasına görə ifşa etdi. Ermənistanın baş naziri Nikol Paşinyanı fakt qarşısında qoydu.

Bütün bunlar bir tərəfdən Azərbaycan Respublikası Prezidentinin diplomatiya, siyasət sahəsindəki yüksək peşəkarlığının ifadəsidirsə, digər tərəfdən də öz prinsiplərinə sadiqliyinin, münasibətlərdə hər zaman səmimiyyətə, qarşılıqlı hörmətə yüksək dəyər kimi üstünlük verməsinin göstəricisidir. Dərin köklərə əsaslanan Azərbaycan - Rusiya münasibətləri də bu gün hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsipləri əsasında qurulub. Ona görə də bu münasibətlər belə faydalı və uğurludur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

---

## Neft Daşları - 70

# Bu çətin peşənin adı "Xəzər neftçisi"dir









Əvvəli 1-ci səh.

Amma özü haqqında deyil, çalışdığı sahə, iş yoldaşları haqqında məlumat verirdi. Neft Daşlarının bugünkü həyatı barədə bildiklərinin hamısını paylaşmaq istəyirdi.

"Neft Daşları" 70 yaşına çatıb. Neft və qaz verən bir yataq üçün bu, az müddət deyil. Odur ki, "Neft Daşları" da köhnə yataq sayılır. Lakin bu zəngin karbohidrogen mənbəyinin keçmişi nə qədər şərəflidirsə, sabahı da bir o qədər xoş olacaq. Çünki hələ ehtiyatları çoxdur. Təkcə 2 nömrəli sahə sutka ərzində 368 ton neft verir. Daha doğrusu, bu, sahənin planıdır. Neftçilər hasilatı nəinki sabit saxlamağa, hətta artırmağa nail olurlar. Bu da həyata keçirilən çoxşaxəli tədbirlərdən irəli gəlir.

Son illərdə "Neft Daşları"nda yeni estakada və meydançaların tikintisi və əsaslı təmir olunması geniş vüsət alıb. O cümlədən 2-ci sahədə də 418 və 331 nömrəli meydançalar inşa edilib. 331 nömrəli meydançada 3 quyu qazılıb və mənimsənilib. Bütün işlər son texnika və texnologiyanın nailiyyətlərinin tətbiqi ilə həyata keçirilir. Nəticədə işçinin əl əməyi yüngülləşib, fiziki yükü azalıb. Quyulara elektron sistemlə nəzarət olunur. Alınan neft və qazın təhlili ən müasir laboratoriyalarda aparılır. Odur ki, 2-ci sahə idarənin ən gənc istehsalat obyektlərindən sayılır. Əslində isə bu sahə Neft Daşlarının yaşıdıdır. Ona görə elə "veteran" sahələrdən də söz düşəndə, 2 nömrəlinin adı çəkilir.

Deyilənlər özünü burada çalışanların yaşında və iş stajında da göstərir. Belə ki, sahədə yaşlı usta və operatorlarla çiyin-çiyinə cavan və bacarıqlı həmkarları da işləyir. Xəzərin fırtınalarında bərkimiş, dostluqları, yoldaşlıqları Neft Daşlarının dayaqlandığı polad kimi möhkəmlənmiş bu insanlar bir-birinə yüksək dəyər verir, əməyini qiymətləndirir. Odur ki, qabaqcılları soruşanda bir-bir hamısının adını çəkdilər. Hətta növbədə olmayanları da unutmadılar. Usta və operatorlar Qahir Ədilov, Ramiz Ələsgərov, Nazir Məmmədov, Fərrux Musayev, Asəf Cəbrayılov, Dərgah Əliyev, Bəhrəm Atakişiyev, Sərvan Baxşıyev, Mayıl Hacıyev və başqaları müxtəlif yaşlı insanlar olsalar da, onları peşə borcu və seçdikləri işə sevgi birləşdirir. Bu çətin peşənin adı "Xəzər neftçisi"dir.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***







# Çarəsiz canların həyata dönüş ünvanı

"Mehriban xanımın sayəsində bütün arzularım çin oldu. 8 yaşlı övladım danışdı, iməklədi, yeridi..."

*Əvvəli 1-ci səh.*

Elə bir ünvanda ki, buradakı bütün anaların duaları Mehriban xanıma yönəlib. Qayəsi, seçimi insanlara kömək göstərmək, konkret problemləri həll etmək olan Mehriban xanım Əliyevaya.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan mərkəzdə fiziki qüsurlu uşaqlara müstəqil yaşamaq vərdişləri öyrədilir

Yeni Günəşli yaşayış massivində yerləşən bu müəssisə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun və Rusiyanın "Uralsib" maliyyə korporasiyasının birgə əməkdaşlıq layihəsi çərçivəsində inşa edilib. 2007-ci il noyabrın 5-də tərəflər arasında imzalanan Anlaşma Memorandumuna əsasən mərkəzin tikintisinə başlanılıb və bina 2011-ci il aprelin 5-də istifadəyə verilib. Mehriban xanım Əliyeva mərkəzin açılış mərasimində iştirak edib, binada yaradılan şəraitlə tanış olub.

1700 kvadratmetr sahəsi olan mərkəz müasir standartlara uyğun tikilib və müasir avadanlıqla təchiz olunub. Burada uşaqların müalicəsi üçün qum terapiyası, artterapiya üsullarından, müalicəvi vannalardan istifadə edilir. Uşaqlarla sosial mühit oriyentasiyası tədrisi aparılır, onlara müstəqil yaşamaq vərdişləri öyrədilir.

Psixoloji sərbəstlik - sensor terapiya kabineti psixoemosional vəziyyəti yaxşılaşdırmaq, narahatlıq və aqressiyanı azaltmaq, qorxu və sinir gərginliyini aradan götürmək, normal yuxunu bərpa etmək, psixoloq və uşaq arasında etibarlı kontakt yaratmaq məqsədi daşıyır.

Mərkəzdə müalicə ilə yanaşı, tədris işləri də aparılır. Uyğunlaşdırılmış otaqda uşaq və yeniyetmələrin tədrisi oyun və oyuncaqlar vasitəsilə əyləncəli formada həyata keçirilir. Mərkəzdə uşaqların psixoloji və fiziki imkanlarının qiymətləndirilməsi də həyata keçirilir. Bunun üçün ayrılan xüsusi otaqda müayinə və qiymətləndirmə 3 mütəxəssis - pediatr, nevroloq və psixoloq tərəfindən aparılır.

Müəssisədə uşaq serebral iflici, Daun sindromu, autizm əlaməti olan 3-18 yaş arası uşaqlar müalicə olunur. Eyni zamanda psixoloji vəziyyətində əqli gerilik, kəkələmə, nitq qüsurlu uşaqlara da xidmət göstərilir. Müəssisəyə qəbul tibbi sosial ekspert komissiyasının göndərişi əsasında olur. Burada 15-ə yaxın prosedur həyata keçirilir. Prosedurların əsasını müalicəvi bədən tərbiyəsi təşkil edir. Çünki bu uşaqların fiziki sağlamlığını bərpa etmək üçün idman daha çox kömək edir. Adele kostyumları, müxtəlif trenajorlar, masaj, banyoterapiya - mirvari suyu ilə olan vannalarla uşaqlar müalicə edilir.

## Valideynlər, uşaqlar üçün əvəzedilməz mükafat

Mərkəzdə Heydər Əliyev Fondunun müraciəti ilə internat evlərindən gələn kimsəsiz uşaqlar da reabilitasiyadan keçirlər. Əvvəlcə bura qəbul olunan uşaqların həkim və sosioloqlar tərəfindən kompleks qiymətləndirilməsi həyata keçirilir. Qiymətləndirmə nəticəsində hər bir uşağa fərdi reabilitasiya proqramı tərtib olunur. Bu proqrama əsasən uşaqlar 10 gün reabilitasiya kursunu davam etdirirlər. Onlara hər üç aydan bir, ildə dörd dəfə belə kurslar keçirilir və bu, 18 yaşlarına qədər davam etdirilir, 18 yaşı tamam olanlar isə böyüklər üçün bərpa mərkəzlərinə keçirilirlər.

Bu ilin 7-8 ayı ərzində 300-dən çox uşaq mərkəzdə reabilitasiya kursu keçib. Müəssisədəki bütün xidmət, müalicə, müayinə və prosedurlar pulsuzdur. Müəssisənin direktoru Sevinc Yusifova deyir ki, ölkəmizdə bu cür reabilitasiya mərkəzlərinin yaradılmasına çox ehtiyac var: "Çünki bu xəstəliklər dövrümüzün fəlakətidir və təəssüf ki, getdikcə artır. Daun sindromlu, autizmli uşaqların sayı çoxalır, o cümlədən də serebral iflic olanların. Mehriban xanım Əliyeva belə reabilitasiya mərkəzləri yaradaraq bu cür uşaqlara, onların valideynlərinə böyük xeyirxahlıq edir".

S.Yusifova məlumat verir ki, bu uşaqlarda 70 faiz irəliləyiş ola bilər, tam sağalma isə, demək olar ki, mümkün deyil, amma nisbi yaxşılaşmalar müşahidə edilir: "Oturmayan uşaqlar mərkəzimizdə bunu bacarıblar, danışmayanlar danışıblar. Gəzməyən uşaqlar var ki, ilk addımlarını burada atıblar".

"Uşaq serebral iflicli, Daun sindromlu, autizmli uşaqların çoxalmasının əsas səbəbi yaxın qohum evliliyinin, erkən və gec hamiləliyin olmasından irəli gəlir" deyən direktor qeyd edir ki, burada infeksiyaların da öz rolu var. Qadınlarda toksoplazma, herpes, rubella kimi infeksiyaların faizinin çox olmasının nəticəsi uşaqlarda serebral iflic diaqnozunun artmasına gətirib çıxarır: "Qadınlar uşağı planlamazdan əvvəl həkimə müraciət edib müayinə olunmalı və bu mikrobları varsa müalicə etdirməli, hamiləlik dövründə isə vaxtlı-vaxtında həkim nəzarətindən keçməlidirlər. Bu, gec ailə quran xanımlara da aiddir. Daun sindromlu uşaqların əksəriyyəti 40 yaşdan sonra həyata gətirilən uşaqlardır. Burada da mütləq ultrasəs müayinələrindən keçilməlidir. Dölün birinci trimestrində Daun sindromu özünü büruzə verir. Ona görə də vaxtında ginekoloq məsləhəti alıb nəzarət altında olan valideynlərin həyata daha sağlam uşaq gətirmə ehtimalı çoxdur. Erkən hamiləliklər də ziyandır, 16-17 yaşda bədən tam formalaşmır və həyata sağlam uşaq gətirmir. Acınacaqlıdır ki, hətta elə ailələr var orada iki uşaq serebral iflicidir, autizmdir, əqli geridir və s. Bu, çıxılmaz bir vəziyyətdir və valideyn üçün də yaşamaq çox ağır olur".

## Uşaq serebral iflicinin əsas səbəbi qohum nikahlarıdır

Həkim-nevropatoloq İsmayıl Kərimov da vurğuladı ki, uşaq serebral iflicinin getdikcə artmasının ən ciddi səbəbi qohum nikahlarıdır: "Biz xəstəni qəbul edərkən verdiyimiz ilk sual valideynlər arasında qohumluq əlaqələrinin olub-olmamasıdır. Demək olar ki, müraciətlərin 45-50 faizində qohum evlilikləri qeydə alınır. Bu baxımdan yaxın qohumla nikaha girmək düz deyil. Ola bilər ki, həmin ailədə doğulan uşaqlarda problem olmasın, ancaq gələcək nəsildə bu, mütləq özünü göstərə bilər".

Fizioterapevt Aynur Həsənova söyləyir ki, uşaq serebral iflicindən əziyyət çəkən xəstələrin müalicəsi uzun sürən prosesdir. Buna görə də zamanında və vaxtlı-vaxtında müalicə vacibdir. Əgər müalicə kursu ləngidilərsə, yaxşı nəticə gözləməyə dəyməz.

Ruhəngiz adlı valideynlə söhbət edirik. Bildirir ki, qızı Əminə serebral iflicdir, artıq 4-5 kursdur bu müəssisəyə gəlir: "Nəticələr ürəkaçandır. Psixologiyasında, sosial uyğunlaşmasında irəliləyişlər var. Əminənin bədən qüsurları, yerişi düzəlib, psixi inkişafı artıb".

Uşaqlarda kiçik motorikanın inkişafını həyata keçirən Esmira Qurbanova deyir ki, hazırda məşğul olduğu 4 yaşlı uşağın əl əzələləri az inkişaf edib və onunla didaktik vəsaitlərlə işləyir. Bura seqem lövhələr, mozaikalar, piramidalar daxildir. Sonrakı mərhələdə isə özünə xidməti inkişaf etdiriləcək, düyməmələmə, geyinmə-soyunma və digər vərdişlər yaranacaq. Məktəb dövründə isə məktəbəhazırlıq başlayacaq. Qələmi tutmaq, rəngləmə, oyun xəmiri ilə iş və s.: "Uşaqların həyata inteqrasiyası da unudulmur, onlarda özlərinə xidmət bacarıqlarını inkişaf etdiririk. Belə uşaqlar müəssisəyə gələndə əksər halda geyinib-soyuna, hətta qaşığı belə tuta bilmirlər. Amma 10 günlük reabilitasiya kursunu bitirəndən sonra bu bacarıqlar onlarda əmələ gəlir".

Azərbaycanda yeganə bu müəssisədə olan sensor terapiya kabinetinə daxil oluruq.

Yarıqaranlıq otağın tavanında ulduzlu göy bərq vurur, quşların cəh-cəhi, çayların şırıltısı, meşənin pıçıltısı duyulur, sanki cənnətə düşürsən...

Psixoloq Nərmin Cəbrayılova məlumat verir ki, bu otaqda aktivləşdirici və passivləşdirici elementlər var: "Məsələn, otağın küncündəki dekorativ ocaq sanki yanır. Autizm uşaqlar bundan çox qorxurlar, amma yaxınlaşdıqda təhlükə olmadığını görürlər, yəni imitasiya edirlər. Buradakı güzgüyə baxaraq sonsuzluğa doğru gedişi kəşf edir, tavana baxaraq səma-ulduzların cazibəsinə qapılırlar, Bethovenin musiqilərini, təbiətin melodiyalarını dinlədikcə sakitləşirlər..."

















## Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır...

15 yaşlı Kənan Xanlarzadə serebral iflicdir və bu mərkəzə gələndə danışa, otura, yeriyə bilməyib, həmçinin də psixoloji olaraq heç bir şey anlamayıb. Anası söyləyir ki, Kənan onun ilk övladıdır və doğuş zamanı travma alıb: "İndi onda çox irəliləyiş var. Yavaş-yavaş sözlər deyir, sərbəst oturur, yeriyə bilir, ətrafa reaksiya verir, başa düşür: "Ana kimi bu sevinci mənə yaşatdığı üçün Mehriban xanıma təşəkkür edirəm. Birinci xanım mənim övladım da aralarında olmaqla, bu cür fiziki qüsurlu uşaqlara yüksək qayğı göstərir, bərpa mərkəzlərində onlara hər cür şərait yaradır. Mehriban xanım Əliyevanın bizim kimi çarəsiz analara etdiyi yaxşılığın haqqı ödənilməz".

Sağlam övlad bütün valideynlərin arzusudur. Təəssüf ki, həyatda bir çox valideyn bu arzudan kənarda qalır və bir ömür boyu övladının xəstəliyi ilə mübarizə aparmağa məhkum olur. Uşaq serebral iflici, Daun sindromu, autizm sağalan xəstəlik deyil, amma əlamətlərinin yaxşılaşması mümkündür. Elə bu məsələni əldə əsas tutan Mehriban xanım Əliyeva da ümidsiz körpələrə, yaralı analara dayaq durmağa çalışır. Çalışır ki, həyatda heç bir valideyn məyus olmasın, uşaqlar sağlam, qayğısız böyüsünlər.

*Və hər dəfə Birinci vitse-prezidentin təşəbbüsü ilə yaradılan bu cür mərkəzlərdə olarkən qaçan, oynayan, danışan, gülən, sevinən uşaqları gördükcə bir daha əmin oluruq ki, Mehriban xanım Əliyeva qarşısına qoyduğu bu müqəddəs amala çatır. Amma yenə də hər zaman vurğulayır ki, uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır...*

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Bir gündə 650 min ağac əkilməsi təşəbbüsü ekologiyanın sağlamlaşdırılmasına sanballı töhfədir

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük Azərbaycan şairi Nəsiminin 650 illik yubileyi münasibətilə 650 min ağac əkilməsi təşəbbüsü ölkəmizdə ekologiyanın sağlamlaşdırılmasına daha bir sanballı töhfədir.

Bunu AZƏRTAC-a açıqlamasında AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Əlövsət Quliyev deyib.

Alim bildirib ki, Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ekoloji problemlərin həlli barədə demişdir: "Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genefondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür". Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyi dövründə bu istiqamətdə kompleks tədbirlər həyata keçirilib, respublikamızın bütün bölgələrində yaşıllaşdırma işləri geniş vüsət alıb.

Ümummilli Liderin yolu bu gün ölkəmizdə uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidentinin təşəbbüsü və səyi ilə ölkəmizdə ekologiyanın sağlamlaşdırılması, yeni yaşıllıqların salınması istiqamətində analoqu olmayan işlər görülür. 650 min ağac əkilməsi təşəbbüsü də bu işlərin məntiqi davamıdır.

Əlövsət Quliyev bildirib ki, Mehriban xanımın bu təşəbbüsü bütün ölkə ictimaiyyəti, xüsusən ziyalılar, elm adamları tərəfindən yüksək qiymətləndirilib. Bu təşəbbüsün uğurla reallaşdırılması üçün əlimizdən gələn dəstəyi verməyə hazırıq. Bu işlər ölkəmizin sağlam gələcəyinə xidmət edir.

# Ağcabədidə bir gündə 650 min ağac əkilməsi təşəbbüsünə hazırlıq işləri görülür

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə ölkəmizdə 650 min ağacın əkilməsi ilə bağlı təşəbbüsü şairin irsinin daha geniş təbliğinə və xatirəsinin əbədiləşdirilməsinə böyük töhfədir. Əkiləcək ağaclar, salınacaq bağlar, parklar ölkəmizdə ekoloji mühitin daha da sağlamlaşdırılmasına müsbət təsir göstərəcək.

Mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü respublikamızın bütün bölgələrində, o cümlədən Ağcabədi rayonunda da böyük rəğbətlə qarşılanıb və hazırda bu təşəbbüsə ciddi hazırlıq işləri görülür.

Ağcabədi Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Qurban Babayev AZƏRTAC-a bildirib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə 650 min ədəd ağac əkilməsi ilə bağlı nəcib təşəbbüsü Azərbaycan şairi İmaməddin Nəsiminin xatirəsinin əbədiləşdirilməsi və təbliği ilə yanaşı, həm də ekoloji mühitin qorunması və yaxşılaşdırılması baxımından olduqca əhəmiyyətlidir. Bu xeyirxah təşəbbüslə əlaqədar respublikamızın hər yerində olduğu kimi, Ağcabədi rayonunda da hazırlıq işləri aparılır. Ağacların Mingəçevir-Bəhramtəpə magistral avtomobil yolunun Ağcabədi rayonu ərazisindən keçən 74-121 kilometrlik və Ağcabədi-Ağdam avtomobil yolunun Boyat və Sarıcalı kəndlərinə qədər olan hissəsində əkilməsi nəzərdə tutulur. Artıq ağacların əkiləcək ərazilərində şum işləri aparılıb, arxlar çəkilib, çalalar qazılıb. Sahələrə peyin verilərək əkinə hazırlanıb. Ağcabədi rayonu ərazisində yerli şəraitə uyğun 17 min ədəd həmişəyaşıl və meşə ağacları əkiləcək.

Ağcabədi sakinləri rayon ərazisində yaşıllığın artmasına töhfə verəcək bu nəcib təşəbbüsə həvəslə qoşulublar. Rayon sakini Aqil İsmayılov deyib: "Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə 650 min ədəd ağac əkilməsi ilə bağlı nəcib təşəbbüsü ekoloji mühitin yaxşılaşdırılmasına yönəlib. Mən də bir Ağcabədi sakini kimi bu təşəbbüsə həvəslə qoşulmuşam. Hazırda ağacların əkilməsi üçün hazırlıq işləri aparırıq. Ağaclar gələndə onların əkilməsində iştirak edəcəyəm".

# Abşeron rayonunda bir gündə 20 min ağac əkiləcək

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyev tərəfindən İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması görkəmli şairin ədəbi irsinin təbliği və öyrənilməsində yeni imkanlar açıb. Həmçinin "Nəsimi ili" çərçivəsində ölkəmizdə və dünyada bir sıra mühüm tədbirlər də keçirilir.

Mütəfəkkir şairin 650 illik yubileyi münasibətilə Birinci vitse-prezident Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü də respublikamızda, o cümlədən Abşeron rayonunda böyük razılıqla qarşılanıb. Azərbaycanda ilk dəfə bir gündə bu qədər sayda ağac əkiləcək. Bu təşəbbüsə layiqincə qoşulmaq əzmində olan abşeronlular böyük həvəslə hazırlıq işlərini davam edirlər.

Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini İlham Quluyev AZƏRTAC-a bildirib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə noyabr ayında, əkin mövsümündə respublikamızın bütün bölgələrində bir gündə 650 min ağac əkiləcək. Bu təşəbbüsə ürəklə qoşulan Abşeron rayonunda həmin gün 20 min ağac əkilməsi nəzərdə tutulur. Bununla bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə yerli şəraitə uyğun ağac növləri müəyyən olunub və hazırda ağacların əkilməsi üçün nəzərdə tutulan ərazilərdə çalaların qazılması, su xətlərinin çəkilməsi və digər zəruri hazırlıq işləri görülür.

Ağacların yol kənarı ilə yanaşı, eyni zamanda, Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində Xırdalan şəhəri ərazisində çoxmənzilli binaların ətrafında da əkilməsi nəzərdə tutulur. "Abşeronlular bu vacib və nəcib təşəbbüsün əhəmiyyətini yüksək dəyərləndirir və bu genişmiqyaslı tədbirə böyük həvəslə hazırlaşırlar", - deyə İ.Quluyev əlavə edib.

Rayon ərazisində yaşıllığın artmasına töhfə verəcək bu nəcib təşəbbüsə Abşeron ziyalıları da qoşulacaqlar.

Abşeron sakini, müəllim Elmar Hüseynov deyib: "Mətbuatdan eşitdim ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə noyabr ayında ölkəmizdə Nəsiminin 650 illik yubileyi münasibətilə 650 min ağac əkiləcək. Bu xəbər məni çox sevindirdi. İnşallah, ailəmlə birgə genişmiqyaslı tədbirdə iştirak edəcəyik".

"Hər ağac bir insan ömrüdür. Beləliklə, əkilən ağaclar ölkəmizin təbii sərvətini, təmiz havasını, sağlamlıq üçün vacib olan oksigeni təmin edir. Baxın, indiyə kimi əkilən ağaclar ölkəmizin təbiətinə nə qədər gözəllik qatır, yaşıllığı artırır, ekologiyaya müsbət təsir göstərir. Biz abşeronlular bu təşəbbüsü yüksək dəyərləndiririk", - deyə o qeyd edib.

# İlham Əliyevin "QARABAĞ AZƏRBAYCANDIR!" çağırışı milli ideyaya və hərəkata çevrilir

# Zəfərin Komandanı



## "Qarabağ Azərbaycandır!" hərəkatının əsas istinadgahı YAP gəncləri olacaq

**"Qarabağ Azərbaycandır və nida işarəsi".**
**İki həftədən artıqdır ki, ölkənin hər yerində - kəndlərdə, rayonlarda, şəhərlərdə böyüklü-kiçikli hamı qürurla Azərbaycan Prezidentinin bu tarixi ifadəsini səsləndirir və artıq bu fikir devizə, hərəkata çevrilməkdədir. Cənab İlham Əliyevin böyükdən-kiçiyə hər kəsi qürurlandıran bu bəyanatı Azərbaycan gəncliyini də səfərbər edib. Ölkənin aparıcı qüvvəsi sayılan gənclik "Qarabağ Azərbaycandır!" hərəkatının fəal dəstəkçisinə çevriliblər. Görünən odur ki, tezliklə bu hərəkat möhtəşəm sarsılmaz birlik kimi formalaşıb cənab İlham Əliyevin hücum diplomatiyasına, müstəqil və qətiyyətli siyasətinə dəstək verəcək.**
**Hər zaman Azərbaycan gənclərinin böyük hamisi olan cənab Prezidentin son iki həftə ərzində beynəlxalq toplantılarda səsləndirdiyi bəyanatlar həm səngərdəki əsgərin döyüş ruhunu, qələbə əzmini, həm də ölkə gəncləri arasında həmrəyliyi, milli ruhu daha da yüksəldib.**



Bu gün istənilən məclisdə, toplantıda cənab İlham Əliyevin beynəlxalq forum və konfranslarda Ermənistanın işğalçılıq siyasətini ifşa edən bəyanatları müzakirə mövzusuna çevrilib. Hər kəs birmənalı şəkildə vurğulayır ki, dövlət başçısının "Qarabağ Azərbaycandır və nida işarəsi" mesajı, təkcə işğalçıya deyil, həm də beynəlxalq auditoriyaya, dünya ictimaiyyətinə və təşkilatlarına ünvanlanmış mesajdır.

Əgər diqqət etsək görərik ki, həm Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda, həm MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən toplantısında, həm də Bakıda reallaşan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə səsləndirdiyi fikirləri, bəyanatları ilə Prezident İlham Əliyev Ermənistanın dövlət siyasətinin faşizmə dəstək verən işğalçı, terorrçu siyasət olduğunu dünyaya nümayiş etdirdi.

Öncə cənab Prezident Soçidə Ermənistanın baş naziri Nikol Paşinyanın işğal altında saxladıqları Dağlıq Qarabağla bağlı 3 ay ərzində verdiyi bəyanatlara, o cümlədən "qərar Azərbaycan, Ermənistan və Qarabağ xalqları üçün qəbuledilən olmalıdır" sərsəm iddiasına "Qarabağ Azərbaycandır və nida işarəsi" fikri ilə tutarlı cavab verdi. Siyasətdə naşı, sərsəm bəyanatları ilə ad çıxarmış Paşinyanın replikalarına təmkinlə reaksiya verən cənab İlham Əliyev özünün yüksək mədəniyyətə sahib olduğunu Rusiyada bir daha hər kəsə göstərdi. Xarizmatik görünüş, səlis nitq qabiliyyəti və auditoriyanı ələ almaq bacarığına sahib olan Azərbaycan Prezidenti Ermənistan baş nazirinin sözlərinin, doğrudan da sayıqlama olduğunu, həddini aşdığını dəqiqliklə əsaslandırdı. Bəlkə də N.Paşinyanın özü orada olsaydı belə, etiraz etməyə söz tapmayacaqdı.

Cənab İlham Əliyevin vurduğu tərs şillədən hələ tam ayılmayan Ermənistanın baş naziri cəmi bir həftə sonra Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında daha bir zərbə aldı. Bu dəfə Azərbaycan Prezidenti dünyanın diqqətinə çatdırdı ki, Ermənistan faşizmi dövlət səviyyəsində təbliğ edir. Faşizmə dəstək verən erməniyə abidə ucaldan Ermənistan Azərbaycanla bağlı da faşist siyasəti yürüdür. Ona görə də bu ölkəyə dəstək olmaq faşizmə, nasizmə dəstək olmaqdan başqa bir şey deyil. Bununla da cənab Prezident Azərbaycanın indiyədək apardığı mübarizəni işğalçı dövlətin terror rejiminə qarşı mübarizə kimi qiymətləndirdi. Azərbaycan Prezidentinin söylədiyi fikirlərə N.Paşinyanın seyrçi mövqe nümayiş etdirməsi isə cənab İlham Əliyevin söylədiklərinin həqiqət olduğunu dünyaya nümayiş etdirdi.

Cəmi 4 gün sonra Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə isə Azərbaycan Prezidenti bir daha Ermənistanın işğalçı siyasətini türk dünyasına bəyan etdi və eyni kök, eyni soydan olan ölkələrə səslənərək bildirdi ki, dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir.

Prezident İlham Əliyevin bu bəyanatlarını birmənalı şəkildə dəstəkləyən ölkə əhalisinin münaqişənin həllinə əminlik hissini daha da möhkəmləndirdi. Çünki bu mesajlar Azərbaycanın dəyişməz mövqeyinin real təzahürü idi. Hər kəs dövlət başçısı ilə qürur duydu və xalq bir daha əmin oldu ki, cənab Prezidentin işğal altında olan torpaqlarımızın geri qaytarılması istiqamətində apardığı qətiyyətli siyasəti dəyişməzdir.

Əlbəttə ki, Prezidentin hər üç qətiyyətli bəyanatı, Ermənistan hakimiyyətinin yürütdüyü siyasəti ifşa edən fikirləri istər ölkədə, istərsə də Azərbaycandan kənarda olan hər bir gənc üçün əsl örnək və nümunədir. Yaşadığı məkandan asılı olmayaraq istənilən gənc ermənilərin saxta iddialarına, təxribat xarakterli bəyanatlarına həmişə cənab Prezident kimi belə kəskin cavablar verməli, onları susdurmalıdır. Azərbaycan gəncliyi dövlət başçısının müdrik xarici siyasətindən nümunə götürməli, erməni təxribatına qarşı ciddi mübarizə aparmalıdır.

Əminliklə deyə bilərəm ki, hər zaman Prezident İlham Əliyevin mütərəqqi, qətiyyətli siyasətinə dəstək olan, Azərbaycanın davamlı, dayanıqlı inkişafına öz töhfəsini verən Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin üzvləri yeni yaranan "Qarabağ Azərbaycandır!" hərəkatının ən fəalları olaraq hərzamankı kimi ön cərgədə irəliləyəcəklər. Prezident İlham Əliyevin ətrafında sıx birləşən YAP gəncləri bu hərəkata öz töhfəsini vermək üçün əllərindən gələni əsirgəməyəcəklər.

***Amil CAVADOV,***
***YAP Gənclər Birliyinin Şura üzvü***

# Milyonların səs verdiyi çağırış

## Azərbaycan gəncləri Qarabağda zəfər nidasını qoymağa tam hazırdır

**"Qarabağ Azərbaycandır!" çağırışı hər bir azərbaycanlının ürəyinin səsi idi. 28 illik Qarabağ həsrətinin artıq sona çatacağının sevinc sədasıdı... İllərdir yurd-yuvasından didərgin düşərək vətən həsrəti ilə yaşayan kəlbəcərlilərin, şuşalıların, laçınlıların, xocalıların, ağdamlıların və digər məcburi köçkün yurddaşlarımızın ümid harayıdı...**



Bu, Ali Baş Komandan İlham Əliyevin xalqa ünvanlanmış qələbə, Qarabağa qayıdış, xoşbəxtlik, sevinc nidaları duyulan çağırış mesajı idi...

Və 10 milyonluq Azərbaycan xalqı, dünyada yaşayan bütün soydaşlarımız Prezident İlham Əliyevə məxsus bu qələbə paroluna səs verdi, bu çağırışa qoşuldu, dəstək aksiyaları düzənlədi, hərəkatlar başlandı...

Bu gün bütün fəaliyyət istiqamətlərimizin yalnız bir ünvanı var: Qarabağ...

Artıq dünya bu faktı qəbul etmək məcburiyyətindədir: Qarabağ Azərbaycandır və nida işarəsi...

Hər bir Azərbaycan vətəndaşı qəti surətdə əmindir ki, qələbə sevinci uzaqda deyil.

Prezident-xalq birliyi zəfərə gedən yolumuzun açarıdır. İstənilən beynəlxalq toplantıların ali tribunalarından Azərbaycanın haqq səsini dünyaya bəyan edən, əsl həqiqətləri faktlarla, sübutlarla ortaya qoyan Prezident İlham Əliyevin son bəyənatı, "Valday" Beynəlxalq Diskussiya Klubunda "Qarabağ Azərbaycandır!" nidasını səsləndirməsi bir daha işğalçı Ermənistana çox ciddi mesaj oldu. Bu ölkənin baş naziri Nikol Paşinyanın Xankəndidə səsləndirdiyi cəfəng, məsuliyyətsiz bəyanatının üstündən qırmızı bir xətt çəkdi.

İlham Əliyev daha bir erməni uydurmasını ifşa etdi: "Dağlıq Qarabağ xalqı" məfhumu mövcud deyil. Dağlıq Qarabağın münaqişəyədək birlikdə yaşayan azərbaycanlılardan və ermənilərdən ibarət əhalisi vardır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır!"

Ali Baş Komandan bir daha bəyan etdi ki, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunmalı, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtması təmin olunmalıdır!

İlham Əliyevin "Qarabağ Azərbaycandır!" nidasını səsləndirməsi Dağlıq Qarabağdan məcburi köçkün düşmüş, etnik təmizləməyə məruz qalmış azərbaycanlıları çox sevindirdi, yurdlarına dönəcəklərinə ümidlərini artırdı.

O cümlədən biz gənclərdə də qələbə əhvalını yüksəltdi. Azərbaycan gəncliyi bu müqəddəs çağırışa hazırdır və bütün gücü ilə bu nidaya dəstək verməyə, vətənə borcunu yerinə yetirməyə qadirdir. Eyni zamanda virtual aləmin imkanlarından da istifadə edib sosial şəbəkələrdə, informasiya müharibəsi gedən bütün platformalarda fəaliyyət istiqamətlərimizi genişləndirməliyik. Qarabağa dair bütün tarixi, sənədli faktları dünya ictimaiyyətinin nəzərinə bir daha çatdırmaq, yalançı erməni təxəyyülünün məhsulu olan uydurma xəbərlərə qarşı mübarizə aparmaq da məhz biz gənclərin üzərinə düşür.

Əminəm ki, bu haqq işdə uğur bizimlədir və tezliklə xalqımız qələbə sevincini qeyd edəcək. Bu inam isə Ali Baş Komandan İlham Əliyevin daxili və xarici siyasətinin uzaqgörənliyindən, qətiyyətindən doğur. Şanlı, qüdrətli Azərbaycan ordusunun zəfər əzmindən irəli gəlir. Biz hər zaman sülh tərəfdarıyıq, amma ana torpağımızın hər qarışı uğrunda çarpışıb vuruşmağı, lazım gəlsə canımızdan belə keçməyi də bacarırıq. Elə bircə Lələtəpə qələbəsində igid ordumuzun əsgərlərinin qəhrəmanlıqlarına, şücaətlərinə nəzər salmaq kifayətdir...

Bu gün Silahlı Qüvvələrimiz dünyanın ən güclüləri sırasındadır. Bu gün ordumuz istər döyüş qabiliyyətinin yüksək olması, istərsə də şəxsi heyətdən tutmuş maddi-texniki təminata qədər əldə etdiyi nailiyyətlər ilə dünya liderləri sırasında yer almağı bacarıb. Elə bu səbəbdəndir ki, ordumuz yağı düşməni getdikcə daha çox lərzəyə salır, təcavüzkar istənilən an ən sərt zərbəni ala biləcəyini yaxşı dərk edir.

Ordusuna tam güvənən hər bir Azərbaycan vətəndaşı, elə dünya ictimaiyyəti də çox yaxşı bilir ki, işğal altındakı ərazilərin azad olunacağı gün uzaqda deyil.

Buna görə də, Dağlıq Qarabağdakı cinayətkar erməni ünsürləri Azərbaycan Prezidentinin qətiyyətli bəyanatlarından lazımi nəticə çıxarmalıdırlar. Artıq bu cinayətkar qruplaşmanın yeganə çıxış yolu Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qəbul etməkdən keçir...

Tezliklə üçrəngli bayrağımız Şuşada, Xankəndidə, Laçında, Kəlbəcərdə, Ağdamda, Qubadlıda, Cəbrayılda, Zəngilanda və işğal altında olan hər qarış torpağımızda dalğalanacaq...

Qarabağ Azərbaycandır, Qarabağ Azərbaycanındır... Bu, dünya var olduqca belə olub və indən sonra da belə olacaq...

***Həbib MİSİROV,***
***"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin sədr müavini***

# Prinsipial mövqe

Təkzibolunmaz bir həqiqətdir ki, Azərbaycan dünyanın aparıcı dövlətlərinin maraqlarının kəsişdiyi bir coğrafi məkan kimi həmişə əhəmiyyətini saxlayır.

Bir neçə gün əvvəl Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səsləndirdiyi fikirlər əbəs yerə deyildir ki, dünya mediasının gündəmindən düşmür.

Tədbirdəki çıxışında ölkəmizin inkişafı haqqında ətraflı məlumat verən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın işğalının nəticələrinə yönəltdi. O, bir daha vurğuladı ki, münaqişənin həllinə ikili standartlarla yanaşan beynəlxalq təşkilatlar 25 ildən artıqdır ki, Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnaməsinin Ermənistan tərəfindən yerinə yetirilməməsinə göz yumurlar.

Prezident İlham Əliyev Ermənistanın baş nazirinin "Qarabağ Ermənistanın tərkib hissəsidir və nöqtə" bəyanatının heç bir tarixi əsası olmadığını faktlarla sübut etdi. 1828-ci il Türkmənçay müqaviləsi ilə Rusiya və İran arasında torpaqları bölüşdürülənədək Azərbaycan həm Qarabağ xanlığının, həm də İrəvan xanlığının sahibi idi. Dövlət başçısı diqqətə çatdırdı ki, 1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın Azərbaycana verilməsindən yox, məhz Azərbaycanın tərkibində qalmasından söhbət gedir.

Respublika Prezidenti çıxışının sonunda belə bir haqlı fikir səsləndirdi: "Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb, Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Prezident İlham Əliyevin çıxışı bir daha göstərdi ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın qan verən ürək yarasıdır. Milyonlarla soydaşımızı narahat edən bu yara hərbi güc hesabına da olsa bağlanmalıdır.

Digər tərəfdən, cənab İlham Əliyev əsrlər boyu yaddaşlarda qalacaq bu çıxışı ilə Dağlıq Qarabağ münaqişəsi ətrafında erməni millətçilərinin və onların havadarlarının yaratdığı informasiya blokadasını qətiyyətlə darmadağın etdi.

"Valday" klubu kimi mötəbər bir təşkilatın, 74 ölkədən min nəfərdən çox nümayəndənin, dövlət və hökumət başçılarının, elm və analitik təhlil mərkəzlərinin rəhbərlərinin qatıldığı tədbirdə ölkə rəhbərinin səsləndirdiyi qətiyyətli mövqe yerində və məqamında nümayiş etdirilən bir fikir kimi dəyərləndirilməlidir.

Mən də bir ziyalı və tarixçi kimi bütün müəllimləri, ziyalıları "Qarabağ Azərbaycandır!" hərəkatına qoşulmağa, Prezident İlham Əliyevin arxasında sarsılmaz bir xalq hərəkatının dayandığını bir daha nümayiş etdirməyə çağırıram!

***Hüseynbala ƏLİYEV,***
***Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi***






# Şəmkirli gənclər Prezident İlham Əliyevi dəstəkləyirlər

*Şəmkirdəki Heydər Əliyev Mərkəzinin qarşısında böyük izdiham yaşanmışdır. Əllərində üçrəngli Azərbaycan bayrağı tutmuş gənclər, eləcə də şəhər məktəbliləri Azərbaycanın Dövlət Müstəqilliyinin 28-ci ildönümü və İlham Əliyevin Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun illik iclasının plenar sessiyasındakı çıxışını dəstəkləmək məqsədilə yürüşə çıxmışdılar.*



Üzlərindən sevinc və fərəh oxunan tədbir iştirakçıları Gənclər Mərkəzinədək yürüş etdilər. Meydanda quraşdırılmış monitorda müasir Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin ikinci dəfə müstəqilliyə qovuşmuş respublikamız haqqında fikirləri, eləcə də Dövlət himni səsləndirilmişdir. Ətrafa yayılan musiqi sədaları gənclərdə xoş ovqat yaratmışdır. Çıxış edənlər müstəqil respublikamızın keçirdiyi çətin günlərdən, Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində qazandığı uğurlardan danışmışlar. Qeyd edilmişdir ki, dünya şöhrətli lider Heydər Əliyev qısa zamanda ölkəmizi dünyada tanıtmış, onu sürətlə inkişaf etdirərək xalqımızı ağ günlərə çıxarmışdır. Ümummilli Lider özündən sonra Azərbaycanı özü qədər inandığı Prezident İlham Əliyevə həvalə etmişdir. Heydər Əliyev kimi Prezident İlham Əliyev də xalqına arxalanaraq ölkəmizi dünyada görünməyən inkişaf yoluna çıxarmışdır. Dövlət başçısı Dağlıq Qarabağ probleminin həll olunması istiqamətində gərgin əmək sərf edir. Mötəbər yığıncaqlarda erməni yalanlarını ifşa etməklə Azərbaycan həqiqətlərini dünyaya çatdırır.

Elə Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun illik iclasının plenar sessiyasındakı çıxışı buna misaldır. Azərbaycan Prezidenti bu çıxışı ilə Ermənistana növbəti dəfə vurduğu siyasi-diplomatik zərbə tarixə düşdü. Bu çıxışı ilə Prezident İlham Əliyevin Dağlıq Qarabağla bağlı qətiyyətli mövqeyi Nikol Paşinyana, bütünlükdə erməni ictimaiyyətinə, həmçinin Ermənistanın havadarlarına olduqca layiqli cavab oldu.

Sonra incəsənət ustaları ölkəmizin uğurlarına həsr olunmuş mahnılar səsləndirmiş, gənclər müstəqil Azərbaycana həsr edilmiş şeirlər söyləmişlər.

Rəsmi hissədən sonra gənclər musiqi sədaları altında rəqs etmiş, müxtəlif tədbirlər həyata keçirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Məcburi köçkünlər doğma yurdlarına qayıdacaqlar

Oktyabr ayının 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilmişdir. Sessiyada Azərbaycan Prezidenti cənab İlham Əliyev dərin məzmunla və yüksək effektli çıxışında ölkəmizin əsas problemini yenidən gündəmə gətirərək Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə bir daha təfsilatı ilə çatdırmışdır.

Möhtərəm Prezident öncə Ermənistanın iç üzünü açaraq onun rəhbərlərinin yalanlarını ortaya qoydu. Cənab İlham Əliyev rəhbər müdrikliyi və siyasətçi məharəti ilə faktlar əsasında sübut etdi ki, Ermənistanın rəhbərləri və siyasətlə məşğul olanları həmişə yalan danışıblar, əslində ermənilər Azərbaycan ərazisinə sonradan köçürülüb, bizim torpaqlarımızda yerləşdiriliblər və ərazilərimiz hesabına özlərinə dövlət qurublar.

"Qarabağ-Azərbaycandır və nida işarəsi" sözləri ilə çıxışını bitirən Prezident İlham Əliyev bununla da beynəlxalq aləmə və Ermənistana çox ciddi və qəti bir mesaj çatdırdı.

Məhz "Valday" forumunda cənab Prezident ermənilərin məhdud yerli dairədə səslənmiş" nöqtə"sinə beynəlxalq miqyaslı forumda "nida" ilə cavab verib bir daha dünyaya bildirdi ki, Azərbaycan ərazi bütövlüyünü təmin edəcək, müstəqil və güclü Azərbaycan Ermənistanın öz işğalçı siyasətini davam etdirməsinə imkan verməyəcək və məcburi köçkünlərimiz doğma torpaqlarına qayıdacaqlar.

Bu tarixi çıxış hər birimizə çox böyük güc, inam və qürur verdi, bütövlükdə gündəmin əsaslı surətdə dəyişdirilməsinə gətirib çıxardı.

Prezidentimiz bu tutarlı və sərrast cavabın təsirini və əhəmiyyətini xüsusi vurğulayaraq bəyan etdi ki, Ermənistanın baş naziri Xankəndidə yığılmış bir neçə adamın qarşısında o cəfəng sözləri demişdir: "Mən ona elə bir yerdə cavab verdim ki, hər kəs eşitsin. Mən canlı efirdə, Rusiyada, mötəbər "Valday" klubunun panelində dedim və bunu bütün dünya eşitdi".

Doğrudan da, Ermənistana elə zərbə vuruldu ki, o zərbədən çətin ki, ayılsınlar. Qarabağ Azərbaycandır və nida işarəsi. Vəssalam. Cəsarət və qətiyyət nümunəsi olan bu ifadənin arxasında möhtəşəm bir gücün dayandığı şəksiz həqiqətdir. Bu güc xalqın iradəsi, qələbəyə sonsuz inam, güclü lider, güclü dövlət, güclü ordu vəhdətidir. Əminik ki, çox yaxın vaxtda xilas olunmuş Qarabağda Prezidentimizin komandanlığı ilə müzəffər ordumuzun möhtəşəm qələbə paradını keçirəcəyik. Hökmən belə olacaq və o gün uzaqda deyil. Prezidentin "Valday"dakı çıxışı xalqın ürəyindən xəbər verdi. İndi hər yerdə adamlar bu çıxışdan danışırlar. Əhali böyük ruh yüksəkliyi ilə Prezidenti dəstəkləyir.

***Ədalət ƏSGƏROV,***
***Cəlilabad Rayon Ağsaqqallar Şurasının sədri***









# Şəffaf xidmət, asan qulluq







*Əvvəli 1-ci səh.*

Digər tərəfdə isə uşaqlar üçün idman alətləri quraşdırılıb.

Mərkəzin daxili də xarici görünüşü kimi çox cazibədardır. Digər mərkəzlərdə olduğu kimi, burada da mühafizəçilər binaya daxil olan vətəndaşları ciddi şəkildə yoxlayırlar. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevlə söhbət edəedə mərkəzlə tanışlığa başlayırıq.

Məlumat Mərkəzinin gülərüz əməkdaşlarının vətəndaşlarla iş prosesini kənardan izləyirik. İçəri daxil olan vətəndaşlar burada ilk dəfə olurlarsa, Məlumat Mərkəzinə yaxınlaşıb istəkləri ilə bağlı müraciət edirlər. Əməkdaşlar vətəndaşların sənədlərini yoxladıqdan sonra onlara hansı xidmət üçün müraciət etməli olduqlarını aydınlaşdırırlar. Beləcə, hər kəs asanlıqla istənilən xidmətdən yararlana bilir.

Məlumat Mərkəzinin əməkdaşı Arzu İsmayılova 2 ildən çoxdur ki, burada çalışır. Ali təhsillidir. Azərbaycan Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin məzunu deyir ki, mərkəz 11 rayonun əhalisinə xidmət etdiyi üçün müraciətlər çox olur. Ancaq buna baxmayaraq, mərkəzin əməkdaşları hər zaman vətəndaşları gülər üzlə, təmkinli şəkildə dinləyir və istiqamət verirlər: "6 ildir ki, bu mərkəz fəaliyyətdədir. İstər işimizdə, istərsə də vətəndaşlarla ünsiyyətdə heç bir çətinliyimiz olmur. Əlimizdən gələni edirik ki, vətəndaşlar məmnun qalsın. Axı biz operativlik, şəffaflıq, nəzakətlilik prinsipləri əsasında fəaliyyət göstəririk".

## Rahat xidmət, kitabxana, istirahət yeri və stress əleyhinə otaq

Mərkəzdə sanki başqa ab-hava var. Elnur Niftəliyev deyir ki, bu gün burada Yaponiya mədəniyyət günləri keçiriləcək. Ona görə də hazırlıq işləri görülür. Biz isə həm göstərilən xidmətlərlə, həm də vətəndaşlara olan diqqət və qayğı ilə maraqlanmaq üçün işimizi davam etdiririk.

Birinci mərtəbədə ana və uşaq otağı, könüllülərin əl işlərindən ibarət guşə, kommunal xidmətlər, hüquqi yardım, laboratoriya, tibb məntəqəsi, gözləmə zalı, saxlama kamerası, hüquqi yardım mərkəzi, bank və yardımçı funksional xidmətlər mövcuddur. İkinci mərtəbədə Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər, sürücülük vəsiqəsinin dəyişdirilməsi, şəxsiyyət vəsiqəsi və ümumvətəndaşlıq pasportunun verilməsi və dəyişdirilməsi, hərbi səfərbərlik, qida təhlükəsizliyi, miqrasiya xidməti, İqtisadiyyat Nazirliyinin lisenziyalarının alınması, vergi xidmətləri həyata keçirilir. Üçüncü mərtəbədə isə əmək pensiyalarının təyin olunması, arxiv arayışlarının verilməsi, daşınmaz əmlakın qeydiyyatı, notariat, gömrük bəyannamələrinin hazırlanması, dördüncü mərtəbədə isə əməkdaşlar üçün kitabxana, konfrans otağı, xidməti istirahət yeri, stress əleyhinə otaq var.

## Nəzakətlilik, məmnunluq, vətəndaşın sevinci...

Rayon sakini Nəsibə Quliyeva şəxsiyyət vəsiqəsinin vaxtı bitdiyi üçün yenisini almağa gəlib. Amma bu dəfə nədənsə fərqli mənzərə ilə qarşılaşıb: "Əvvəllər eləcə sənədləri verirdik və gəlib vəsiqəmizi götürürdük. İndi daha müasirləşib. Barmaqlarımızı xüsusi aparata toxundururuq, elektron formada lövhəyə qol çəkirik. Vallah, dövlətin yaratdığı bu xidmət hamının ürəyindəndir. Kimsə kiməsə rüşvət vermir, heç kim insanı incitmir. Rahat gəlib nə istəyirsən alırsan. Bundan asan nə ola bilər ki?"

Nərminə Gəncəliyeva isə ilk dəfə ümumvətəndaş pasportu alır. 10 gün öncə müraciət edib və bu gün sənədini götürmək üçün mərkəzdə növbə gözləyir. Bir qədər sonra növbə elan edilir və Nərminə xanıma yeni pasport təqdim olunur: "İlk ümumvətəndaşlıq pasportumu aldım. Sevincliyəm. Buraya gələndə insan özünü çox rahat hiss edir. Hətta kimsə bayırdan içəri daxil olanda əsəbi halda olursa, onunla elə nəzakətlə davranırlar ki, tamam sakitləşir. Çox sağ olsunlar ki, bizim üçün belə xidmət yaradıblar. Hər kəs məmnun qalır "ASAN xidmət"dən".

Saməddin Cəbrayılov isə həyat yoldaşı ilə birgə yeni doğulmuş körpələri üçün doğum haqqında şəhadətnamə almağın sevincini yaşayır: "Yenicə dünyaya gəlib. Adını Fatimə qoymuşuq. Gəlmişik ki, qızımız üçün doğum haqqında sənəd alaq. Bizə göstərilən diqqətə görə təşəkkür edirik".

## Təmənnasız xidmət və xeyirxahlıq missiyası - "ASAN Könüllüləri"

6 il öncə Sabirabadda bir ilk də reallaşmışdı. Prezident İlham Əliyevin iştirakı ilə "ASAN xidmət"in açılışından sonra rayonda Heydər Əliyev Mərkəzində "ASAN Könüllüləri"nin I Ümumrespublika Forumu keçirilmişdi.

Könüllülərin fəaliyyətini dəyərləndirən dövlət başçısı demişdir: "Gənclərimiz bizim gələcəyimizdir. Mən şadam ki, Azərbaycanda çox müasir, dövlətə, vətənə bağlı olan gənc nəsil yetişir və "ASAN könüllüləri"nin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Çünki siz bu işlərə könüllü şəkildə qoşulmusunuz, özünüz bu təşəbbüsü göstərmisiniz və işinizlə ölkəmizin ümumi inkişafına töhfənizi verirsiniz. Bu, çox gözəl haldır, təqdirəlayiq hadisədir. Əminəm ki, bütün başqa sahələrdə könüllülər institutu Azərbaycanda daha da sürətlə formalaşacaq və ümumiyyətlə, bu, cəmiyyətin niyyətini ifadə edir. Çünki Azərbaycanda hazırda mövcud olan ictimai-siyasi vəziyyət, gözəl ab-hava belə təşəbbüslərin irəli sürülməsinə imkan yaradır".

Ümumiyyətlə, könüllülük mərhəmət, əliaçıqlıq, ədalət hissi deməkdir. Könüllü olmaq ümid yeri olmaq, savab qazanmaq, xalqına, vətəninə xidmət etmək deməkdir. Hər mərkəzdə olduğu kimi, burada da səmimi, mehriban kollektiv var.



16 yaşlı Rəvan Ağayev 2 aydır mərkəzdə könüllü kimi çalışır. Sabirabad Peşə Liseyinin tələbəsi olan Rəvan deyir ki, burada çalışmaqda məqsədi təcrübə toplamaqdır. Sözlərinə görə, könüllü olmaq dünyagörüşünün artırılması üçün çox yaxşıdır. Azərbaycan Dövlət Dəniz Akademiyasının məzunu olan Rəşad Əliyev 42 gündür burada çalışır: "Akademiyada təhsil aldım, burada isə xeyirxahlıq, mərhəmətin nə olduğunu hiss etdim, insanlara təmənnasız xidmət savabdır".

Könüllülərin əksəriyyəti Sabirabad Dövlət İqtisad Kollecinin tələbələridir. Saatlı, Biləsuvar rayonlarından gəlib burada təhsil alan tələbələrdən Zərifə Cavadova, Solmaz Mirzəli, Günel Əhmədli də kollektiv iş prinsiplərini öyrənməyə çalışırlar. Könüllülərin fikrincə, "ASAN xidmət" onların gələcək planlarının reallaşmasında böyük rol oynayacaq.

## Yaponiya mədəniyyət günləri - suşi və dolma, Sabirabad qarpızı...

Könüllülərlə söhbətləşdikdən sonra mərkəzdə Yaponiya mədəniyyət günləri ilə bağlı maraqlı tədbir başlayır. Elnur Niftəliyev deyir ki, bu tədbir "ASAN Könüllüləri" tərəfindən multikulturalizm mövzusunda reallaşdırılan silsilə tədbirlər çərçivəsində gerçəkləşib.

Yaponiyanın ölkəmizdəki səfirliyinin əməkdaşlarının da iştirak etdiyi tədbirdə bu ölkənin milli geyimləri, mətbəxinin ən məşhur nümunəsi olan suşi nümayiş etdirilirdi. Həmçinin milli mətbəximizin təamları - dolma, şah plov da hazırlanmışdı. Xüsusi guşədəki Sabirabad qarpızı və mərkəzin könüllüləri tərəfindən oriqami üsulunda hazırlanmış əl işlərinin sərgisi də qonaqların diqqətini çəkirdi. Yaponiyanın milli bayramları ilə əlaqədar olan guşədə isə həmin bayramların rəmzləri nümayiş olunurdu.

Mərasimin rəsmi hissəsi yekunlaşdıqdan sonra mərkəzə təşrif buyurmuş qonaqlar, məktəblilər guşələrdə nümayiş olunan yapon və milli təamlarımızdan daddılar, əl işləri, rəmzlərlə yaxından maraqlandılar.

Biz isə mərkəzə təşrif buyuran vətəndaşlara yaxınlaşaraq onlara göstərilən xidmətlərlə bağlı fikirlərini soruşuruq. Rayon sakinləri Dünyamin Musayev və Kamran Mədətov Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin mərkəzdəki xidmətinə müraciət edərək məhkumluqla bağlı arayış almışdılar: "İçəri daxil olanda ilk baxışdan adama elə gəlir ki, burada qarışıqlıqdı. Amma məlumat mərkəzində hər şeyi asanlıqla izah edirlər. Məhkumluqla bağlı arayış lazım idi. İşə qəbul olunmaq üçün tələb olunan vacib sənəd olduğu üçün biz də "ASAN xidmət"ə gəldik. Məhkumluğumuz olmadığı üçün cəmi 15 dəqiqəyə arayışımızı aldıq. Çox əla xidmətdi, hər kəs razılıq edir".

Saatlı rayonundan gələn 69 yaşlı Tahir Məmmədov isə evini qızına bağışlamaq üçün mərkəzdəki notariat xidmətinə müraciət üçün gəlibmiş: "Sizi inandırıram ki, burada olan xidmət bəlkə də dünyanın heç bir yerində yoxdur. Elə asanlıqla hər şeyi başa salırlar ki, heç bir çətinlik çəkmirsən. Adam növbə gözləyəndə də rahat olur. Nəsə başa düşməyəndə gənclər yardım edirlər. Bu da insana xoş təsir bağışlayır. Bir vaxtlar sənədlər almaq üçün neçə-neçə idarə qapılarında qalırdıq. Günlərlə vaxt itkisi olurdu. İndi sağ olsun dövlətimiz, vətəndaşın qayğısına qalır. Çox-çox razıyam və mən tək deyiləm, hər kəs bu xidmətdən razıdı".

## 12 dövlət orqanı, 320 müxtəlif xidmət

Göründüyü kimi, yeni Azərbaycan brendi olan "ASAN xidmət" illərdir öz prinsiplərinə sadiq şəkildə fəaliyyətini davam etdirir. Hazırda ölkədə 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir. Bu il Tovuz, Ağcabədi, Şamaxı, Kürdəmir və Balakəndə "ASAN xidmət" mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulub. Onların hər biri regional xarakter daşıyır.

Həmçinin Prezident İlham Əliyev 5 aprel 2019-cu il tarixdə Bakı şəhərində iki yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında sərəncam imzalayıb.

Bu günə kimi "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 33 milyondan çoxdur. Bu ilin 9 ayı ərzində keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,4 faiz təşkil edir.

Sabirabad "ASAN xidmət" mərkəzində şahidi olduğumuz mənzərə, Prezident İlham Əliyevin söylədiyi kimi, ictimai xidmətlər sahəsində böyük bir inqilabdır. Bu, sadəcə olaraq, vətəndaşlara rahat xidmət mərkəzi deyil, insanlarda böyük dərəcədə dəyişikliklərə səbəb olan, nadir ictimai xidmət mərkəzinə çevrilən bir qurumdur. 7 il öncə yaradılarkən vətəndaşlarda dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, əlavə xərclərin və vaxt itkisinin azalması, etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması əsas məqsədlər idi. Əminliklə deyə bilərik ki, agentlik qısa müddətdə bu məqsədlərə nail ola bilib.

***Rəşad BAXŞƏLİYEV,***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***







Statistika nədən xəbər verir

# Qeyri-neft-qaz məhsullarının ixracı 12 faizdən çox artıb

Cari ilin yanvar-avqust aylarında Azərbaycan dünyanın 182 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 110 ölkəyə məhsul ixrac, 173 ölkədən idxal olunmuşdur.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu dövrdə ölkənin xarici ticarət dövriyyəsi 22 milyard 340,7 milyon, o cümlədən ixracın dəyəri 12 milyard 958,8 milyon, idxalın dəyəri 9 milyard 381,9 milyon dollar təşkil etmiş, nəticədə 3 milyard 576,9 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2018-ci ilin yanvar-avqust ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 10,1, real ifadədə 3,2, o cümlədən idxal 8, ixrac 0,8 faiz artmışdır. 8 ay ərzində ölkədən 1 milyard 277,4 milyon dollar dəyərində qeyri-neft-qaz məhsulları ixrac edilmişdir ki, bu da ötən ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 16,8, real ifadədə 12,2 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, ixracın 28,6 faizini İtaliyaya, 12,9 faizini Türkiyəyə, 7,1 faizini İsrailə, 5,6 faizini Hindistana, 5,1 faizini Çinə, 4,8 faizini Almaniyaya, 4 faizini İspaniyaya, 3,4 faizini Rusiyaya, 3,3 faizini Fransaya, 3,2 faizini Çexiyaya, 2,9 faizini Gürcüstana, 2,3 faizini Birləşmiş Krallığa, 2,2 faizini Portuqaliyaya, 2 faizini Ukraynaya, 12,6 faizini digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (33,4 faiz), Türkiyəyə (21,8 faiz), İsveçrəyə (8,7 faiz), Gürcüstana (8,7 faiz), İtaliyaya (2,6 faiz), Ukraynaya (2,3 faiz), Yunanıstana (2,3 faiz), Çinə (2 faiz), İrana (1,6 faiz) və Niderlanda (1,4 faiz) göndərilmiş malların payı üstün olmuşdur.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 14,6 faizi Rusiya, 12,7 faizi İsveçrə, 10,4 faizi Türkiyə, 9,1 faizi Çin, 6,3 faizi ABŞ, 5,0 faizi Almaniya, 4,2 faizi Kanada, 3,6 faizi İran, 3,2 faizi Ukrayna, 3,1 faizi Avstraliya, 2,6 faizi İtaliya, 2,0 faizi Fransa, 1,7 faizi Birləşmiş Krallıq, 1,6 faizi Qazaxıstan, 19,9 faizi isə digər ölkələrlə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Hesabat dövründə 2018-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 23,5 faiz, şəkər - 1,6 dəfə, tütün - 2 dəfə, meyvə və tərəvəz şirələri - 37,0 faiz, çay - 9,1 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar - 47,7 faiz, pambıq lifi - 1,6 dəfə, pambıq ipliyi - 43,7 faiz, emal olunmamış alüminium - 15,2 faiz, qara metallardan yarımfabrikatlar - 10,4 faiz, bentonit gili - 13,3 faiz artmış, təzə tərəvəz ixracı isə 1,1 faiz, kartof - 7,4 faiz, meyvə və tərəvəz konservləri - 3,5 faiz, bitki yağları - 29,6 faiz, təbii üzüm şərabları və üzüm suslosu - 20,2 faiz, polietilen - 2,9 faiz, qara metallardan borular - 82,5 faiz azalmışdır.

2018-ci ilin yanvar-avqust ayları ilə müqayisədə 2019-cu ilin eyni aylarında buğda idxalı 16,7 faiz, xam şəkər və şəkər - 50 faiz, təzə meyvə - 4,1 faiz, kərə yağı, digər süd yağları və pastaları - 5,1 faiz, quş əti və onun əlavə məhsulları - 11,3 faiz, kartof - 7,9 faiz, mal əti - 14,6 faiz, təzə tərəvəz - 39,1 faiz, minik avtomobilləri - 1,9 dəfə, polad prokatı - 24,4 faiz, mineral gübrələr - 35,7 faiz, hesablama maşınları, blok və qurğuları - 26,1 faiz, rezin şinlər - 10,4 faiz, mebellər - 6,1 faiz, məişət kondisionerləri - 1,6 dəfə, polietilen - 32,5 faiz, yük avtomobilləri - 1,7 dəfə, avtobuslar - 2,5 dəfə, paltaryuyan maşınlar - 15,7 faiz, qara metallardan künclüklər - 16,0 faiz artmış, bitki yağı idxalı isə 2,2 faiz, siqaret - 46,5 faiz, çay - 0,1 faiz, qara metallardan borular - 12,8 faiz, qara metallardan çubuqlar - 19,1 faiz, sement və sement klinkerləri - 24,7 faiz, məişət soyuducuları - 19,2 faiz azalmışdır.

## Ümumi sərmayənin 65,4 faizi istehsal sahələrinə yönəldilib

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 10 milyard 146,2 milyon manat vəsait yönəldilmişdir. Sərf edilmiş vəsaitin 66,7 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil etmişdir.

Ümumi sərmayənin 65,4 faizi məhsul istehsalı sahələrinə, 25 faizi xidmət sahələrinə, 9,6 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 71,5 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 57,5, büdcə vəsaitləri 26,9, bank kreditləri 7,3, əhalinin şəxsi vəsaitləri 6,6, büdcədənkənar fondların vəsaitləri 1,5, sair vəsaitlər 0,2 faiz olmuşdur.

Bakıda Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi, şpris istehsalı zavodu, Pirallahı Rayon İcra Hakimiyyətinin inzibati binası, Pirallahı Rayon Gənclər Mərkəzi, DOST Agentliyinin və ilk DOST mərkəzinin inzibati binası, Qobustan rayonunda "Azərxalça" ASC-nin Qobustan filialı, Qobustan-Poladlı avtomobil yolu, Əmlak Məsələləri Dövlət Komitəsinin Əmlak Xidmətləri Məkanı, Mərdəkan-Qala avtomobil yolu, Sumqayıt şəhərində "SOCAR karbamid" zavodu, polietilen zavodu, Beyləqan rayonunda Olimpiya İdman Kompleksi, tarix-diyarşünaslıq muzeyi, Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli və Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolları, bunlardan əlavə, Bakı şəhərində 960 yerlik ümumtəhsil məktəb binası, 140 yerlik məktəbəqədər təhsil müəssisəsi və 200 çarpayılıq xəstəxana, Naxçıvan Muxtar Respublikasında 1530 şagird yerlik 3 ümumtəhsil məktəb binası, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi, bir növbədə gəlişlərin sayı 50 nəfər olan 3 ambulatoriya-poliklinika müəssisəsi, Şəki şəhərində 624 yerlik, İsmayıllı rayonunda 400 yerlik, Lerik, Cəlilabad və Quba rayonlarının hər birində 180 yerlik olmaqla 3 ümumtəhsil məktəb binası, Goranboy, Qobustan və Şəmkir rayonlarında 440 çarpayılıq 3 xəstəxana və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

***"Azərbaycan"***






# Fermerlər üçün embrion köçürmə texnologiyası mövzusunda təlim keçirilib

**Aqrar Elm və İnnovasiya Mərkəzi Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunda "Azərbaycanda qoyunçuluq sahəsində damazlıq və seleksiya işinin təşkili" layihəsi çərçivəsində "Embrion köçürmə texnologiyası" mövzusunda təlim keçirilib. Təlimdə bölgədə fəaliyyət göstərən fermerlər, istehsalçılar, aqrar ixtisas üzrə təhsil alan tələbələr, elmi-tədqiqat institutlarının əməkdaşları iştirak ediblər.**

Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun direktoru Mahir Hacıyev son illər aqrar sahədə aparılan islahatlara toxunaraq bildirib ki, əhalinin ət məhsullarına olan tələbatının ödənilməsi sahəsində intensiv metodların tətbiqi mühüm əhəmiyyət daşıyır. Xüsusən müasir dünya təcrübəsinə əsaslanaraq xırdabaşlı heyvandarlığın yeni üsullarla inkişaf etdirilməsi müasir dövrün tələblərindən biridir. Bu istiqamətdə qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu Azərbaycanın ənənəvi təsərrüfat sahəsi olan qoyunçuluğun intensiv metodlarla inkişaf etdirilməsi, heyvanların baş sayının artırılması, onların damazlıq keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Türkiyənin bir sıra elmi müəssisələri ilə sıx əməkdaşlığa başlayıb.

Əməkdaşlıq çərçivəsində Türkiyənin Qars Qafqaz Universitetinin professorları Yavuz Öztürklər və Cihan Kaçar, eləcə də Aksaray Universitetinin əməkdaşı, professor Tahir Karaşahin ekspert qismində 1 il müddətində Azərbaycana ardıcıl səfərlər edəcək və yerli mütəxəssislərlə birgə kompleks tədbirlər həyata keçiriləcək. Əməkdaşlıq çərçivəsində yerli fermerlər üçün təlim və seminarlar keçiriləcək, qoyunçuluqda süni mayalanmanın tətbiqi, süngərləmə üsulu ilə bala alınması, damazlıq və seleksiya işinin təşkili və digər məsələlər ətrafında maarifləndirmə işləri aparılacaq.

Təlimdə çıxış edən Türkiyənin Aksaray Universitetinin professoru Tahir Karaşahin təlimdə xırdabaşlı heyvanların süngürlənmə və süni mayalanma üsulu ilə artırılmasının elmi yolları barədə təqdimatla çıxış edib, fermerlərin suallarını cavablandırıb.

Daha sonra təlim iştirakçıları institutda yeni yaradılan yem laboratoriyası və intensiv qoyun ferması ilə tanış olublar. Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

# Kənd təsərrüfatı məhsulları istehsalında 7 faizdən çox artım var











Cari ilin 9 ayı ərzində ölkə üzrə ümumilikdə 6 milyard 273,8 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövründəkindən 7,1 faiz çoxdur.

Dövlət Statistika Komitəsinin bu barədə açıqladığı məlumatda bildirilir ki, sözügedən dövrdə istehsal edilmiş məhsulların 3 milyard 307,3 milyon manatlığı bitkiçilik, 2 milyard 966,5 milyon manatlığı heyvandarlıq məhsulları olmuşdur. Hər iki sahə üzrə ötən ilin analoji dövrünə nisbətən artım qeydə alınmışdır - müvafiq olaraq 11 və 3,1 faiz.

# Yeni səpin texnologiyasının nümayişi olub

**Ölkə ərazisində payızlıq səpinin başlaması münasibətilə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin təşkilatçılığı və Almaniyanın "Claas" şirkətinin Azərbaycandakı nümayəndəliyi olan "4S" şirkətinin dəstəyi ilə Kürdəmir Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin (RAEIM) əkin sahəsində "Səpin Günü" tarla nümayişi keçirilib.**

Tarla nümayişi Kürdəmir RAEİM-in Gəris-Əyribənd kəndi ərazisindəki əkin sahəsində baş tutub. Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olan təşkilatların məsul şəxsləri, yerli icra hakimiyyəti, bələdiyyə nümayəndələri, şirkət əməkdaşları, fermerlər və digər istehsalçılar iştirak ediblər.

Çıxış edənlər bildiriblər ki, tarla gününün keçirilməsində məqsəd istehsalçıları və əlaqədar təşkilat nümayəndələrini səpin texnologiyaları sahəsində ən son innovasiyalarla tanış etmək, yenilikləri təbliğ etməkdir. Qeyd olunub ki, becərmə sahəsində müasir texnikaların tətbiqini yaxından müşahidə etmək torpaq adamları üçün son dərəcə vacibdir: "Qeyd olunub ki, Kənd Təsərrüfatı Nazirliyi sistemində gedən islahatların nəticəsi olaraq Kürdəmir Regional Aqrar Elm və İnnovasiya Mərkəzi yeni fəaliyyət strategiyası müəyyən edib. Bu strategiyanın əsas məqsədi hər bir fermer üçün maraqlı olan bir mərkəzə çevrilməkdir. Bundan sonra mərkəzin əkin sahələrində tez-tez tarla günləri keçiriləcək və ən son elmi yeniliklər barədə fermerlərə mütəmadi məlumat veriləcək".

Azərbaycan Milli Elmlər Akademiyasının Aqrokimya və Torpaqşünaslıq İnstitutunun direktoru Əlövsət Quliyev, "4S" şirkətinin direktor müavini Pərviz Həsənov müasir torpaqbecərmə texnologiyaları barədə danışıblar. Fermerlərin diqqətinə çatdırılıb ki, son illər aran bölgəsindəki əkin dövriyyəsində olan torpaqların düzgün şumlanmaması, hamarlama və digər vacib addımların atılmaması nəticəsində torpaqların meliorativ vəziyyəti kəskin şəkildə pisləşib. Qrunt suları səthə çıxaraq torpaqların strukturunun pozulmasına səbəb olub. Almaniyadan gətirilmiş texnikalar ən ağır struktura malik olan torpaqların şumlanaraq hamarlanmasını həyata keçirir.

Daha sonra müasir texnika və avadanlıqlar vasitəsilə səpin aparılacaq torpaqların düzgün şumlanması, hamar vəziyyətə gətirilməsi, effektiv gübrələmə və səpinin aparılması prosesi nümayiş etdirilib. Yeni səpin texnologiyası ilə bağlı fermerləri maraqlandıran suallar cavablandırılıb.

# Torpağa bağlı ömür

**Fermer Lətif Cəfərovu çoxdan tanıyıram. Uşaqlıq illəri İkinci Dünya müharibəsinin ağrılı-acılı dövrünə təsadüf edib. Orta məktəbdə oxuya-oxuya Təzəkənddəki "Türkmənistan" kolxozunun pambıq sahələrində kətmən vurub, gücü çatdığı digər işlərin qulpundan yapışıb, mal-qara saxlayan valideynlərinə yardımçı olub.**



Orta məktəbi bitirdikdən sonra Salyan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq şöbəsində təhsil alıb doğma kəndlərində aqronom-entemoloq kimi əmək fəaliyyətinə başlayıb. Kolxoz rəhbərliyi təşəbbüskarlığını görüb böyük bir briqadaya başçılığı ona həvalə edib. O da etimadı doğrultmaq üçün gecəsini gündüzə qatıb əvvəllər yol verilən nöqsanların aradan qaldırılması üçün yorulmadan çalışıb. İşə bu cür yanaşması rəhbərlik etdiyi briqadanın hər il rekord miqdarda məhsul yetişdirməsi ilə nəticələnib. Adı o dövrdə şan-şöhrət qazanmış biləsuvarlı Sosialist Əməyi qəhrəmanları Qızqayıt Həsənova və Ərəstun Məmmədovla yanaşı çəkilib. Qazandığı nailiyyətlərə görə keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunub, yüksək mükafatlara layiq görülüb.

Bir neçə il öncə Lətif kişidən soruşmuşdum ki, mükafatların hansı sənin üçün əzizdir. Cavabında demişdi: "Ulu Öndər Heydər Əliyevin 1974-cü ilin yayında Biləsuvar rayonuna səfəri zamanı briqadamda olub mənə mükafat verdiyi "QAZ-24" markalı minik maşını. O zaman belə bir maşın hər kəsə nəsib olmurdu".

SSRİ-nin süqutundan sonra kolxoz və sovxozlar da dağıldı. İş yerlərinin bağlanması, iqtisadi əlaqələrin pozulması, istehsalın dayanması insanların yaşayış səviyyəsinə mənfi təsir göstərdi. Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasına, apardığı torpaq islahatına sevinənlərdən biri də Lətif Cəfərov oldu.

Payına düşən torpağın yaşadığı Təzəkənddən xeyli uzaq olması da onu məyus etmədi. Hər gün kəndə gedib-gəlməmək üçün torpağın bir küncündə çiy kərpicdən koma tikdirib ailəsini ora köçürdü.

Mülkiyyətçilərin əksəri yüksək gəlir əldə etmək məqsədilə başqa bitkilər, günəbaxan, qarğıdalı əkəndə o, "ağ qızıl" yetişdirdi. Buna görə çoxları Lətif kişini "pambıq Məcnunu" çağırsalar da, bundan incimədi. Bilirdi ki, pambıq digər bitkilər üçün yaxşı sələfdir.

Dövlətin aqrar sahəyə göstərdiyi diqqət bütün fermerlər, torpaq mülkiyyətçiləri kimi, onun da köməyinə çatır. Qazancı çoxaldıqca əlavə torpaq sahələri, kənd təsərrüfatı texnikaları alır. Dədə-baba yurdları olan Təzəkənddə oğlanları Mehdi, Mübariz, Əsgər və Anarın hər biri üçün müasir, yaraşıqlı yeni ev tikdirib, minik maşını alıb. Nəvələrinin əksəriyyəti ata-babaların yolu ilə gedir. Ali təhsilli nəvəsi Səbuhi təsərrüfatın mühasibidir.

L.Cəfərovun 50 baş iribuynuzlu, 80 baş xırdabuynuzlu mal-qarası var. Həyətində kifayət qədər toyuq-cücə yetişdirir. Deyir ki, kəndli qənd-çaydan, paltardan savayı heç nəyə pul verməməlidir. Özünü, ailəsini geninə-boluna ət, süd, yağ, yumurta və digər məhsullarla təmin etməklə bərabər həmin məhsulları üstəlik bazara da çıxarmalıdır.

Bu günlərdə yolum yenə Lətif kişinin fermer təsərrüfatına düşmüşdü. 85 yaşlı fermerlə söhbətimiz pambıq tarlasının kənarında oldu. Hal-əhval tutandan sonra dedi ki, 30 hektar sahədə pambıq əkiblər. İndiyə kimi 130 tondan çox pambıq yığıblar. 13 hektarın məhsulunu maşınlarla toplayıblar. Orta məhsuldarlığa gəldikdə, yığılan sahələrin hər hektarından 43 sentner məhsul götürülüb. Həmin sahələrdə məhsul hələ çoxdur. Yəqin ki, tam yığılanda 50 sentnerə çatacaq.

2017-ci ildə qocaman pambıqçı əldə etdiyi yüksək məhsuldarlığa görə "Tərəqqi" medalı ilə təltif edilib. Lətif kişi deyir ki, qazandığımız uğurda pambıqçı qızlarımızın əməyi böyükdür. Onlar həmişə "ağ qızıl"ın bir kiloqramını belə sahədə qoymamaq əzmi ilə çalışırlar.

Bu, həqiqətən də belə idi. Payız günəşi yavaş-yavaş qüruba ensə də, qız-gəlinlər yığımın sürətini azaltmadan işləyirdilər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# "GİLAN ORHADC"ın məhsulu bu il də boldur

**"GİLAN ORHADC" Lənkəran rayonunun fermer təsərrüfatlarındandır. Təsərrüfatın əməkçiləri 60 hektar ərazidə salınmış sitrus bağlarında bol məhsul yetişdirirlər.**

Onlar ölkənin ərzaq təhlükəsizliyinə töhfələrini getdikcə artırmağa çalışırlar. Hər il yeni sitrus tingləri basdıraraq gələcəyin daha bol məhsulunun təməlini qoyurlar.

"GİLAN ORHADC"ın əməkçiləri keçən il 70 ton sitrus meyvəsi toplamış, bunun 20 tonunu Rusiya bazarlarına göndərmişlər.

Təsərrüfatda sitrus meyvələrindən əlavə, çay da becərilir. Bu il 8 hektar çay plantasiyasından 3,5 ton yaşıl çay yarpağı toplamaq nəzərdə tutulub.





*Şəkildə: sahə rəhbəri Ziyafət Əliyev və aqronom Xalıq Talıbov fəhlələrlə birlikdə bağlara baxış keçirirlər.*

***Foto Fərman BAĞIROVUNDUR,***
***"Azərbaycan"***

# Cəbhə xəttinə yaxın kəndin yolları yenidən qurulub

**Tərtər rayonunun təmas xəttinə yaxın Hüsənli kəndində yol infrastrukturunun yenidən qurulması işləri yekunlaşıb. Yevlax-Xocalı avtomobil yolunun 45-ci kilometrliyindən ayrılan Hüsənli yerli əhəmiyyətli avtomobil yolu asfaltlanıb.**

Tikinti işləri çərçivəsində çınqıl materialından istifadə etməklə 10 metr enində yol yatağı inşa olunub. Yola müxtəlif yerlərdə 23 suötürücü boru qoyulub. Kəndin küçələri də daxil olmaqla yola eni 6 metr, uzunluğu isə 3 kilometr olmaqla asfalt-beton örtük döşənib. Hazırda zəruri yerlərdə yol nişanları quraşdırılır. 2020-ci ildə isə rayonun uzunluğu 30,5 kilometr olan Səhlabad, Əskipara, Qarağacı, Yuxarı Qaradağlı, Qapanlı, Qaynaq, Yuxarı Qapanlı, Qazyan avtomobil yollarının da yenidən qurulması nəzərdə tutulur.

Hüsənli kəndində yolların təmir edilməsi sakinlərin sevincinə səbəb olub. Hüsənli kənd tam orta məktəbin müəllimi Leyla Məmmədova deyib: "Kəndimizdə bütün infrastruktur yaradılıb. Təkcə yollarımız narahat idi. Uşaqlar da, müəllimlər də yağıntılı hava şəraitində məktəbə çətinliklə gedirdi. İndi dövlətimizin qayğısı sayəsində bu çətinliyimiz aradan qaldırılıb. Bu, biz sakinləri sevindirir".

Digər sakin Kamal Hümbətov isə bildirib ki, kəndimiz rayon mərkəzindən uzaqda, cəbhə xəttinə yaxın məsafədə yerləşsə də, dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub: "Kənd qazlaşdırılıb, elektrik, içməli su, rabitə ilə təmin edilib. Kəndin küçələri də gecələr işıqlı olur. İndi isə yollarımız asfaltlanıb. Bütün bunlara görə kənd sakinləri adından dövlətimizin başçısına minnətdarlığımı bildirirəm".

# Milli Qəhrəmanın xatirəsi anılıb

**Masallıda Azərbaycanın ilk Milli qəhrəmanlarından olan Səfəralı Məmmədovun doğum günü onun böyüyüb boya-başa çatdığı Sərçuvar kəndində, adını daşıdığı məktəbdə qeyd olunub.**

Milli Qəhrəmanın abidəsi önündə keçirilən tədbirdə əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, şəhidlərin ruhuna dualar oxunub.

Anım tədbirində çıxış edənlər Milli Qəhrəmanın keçdiyi ömür yolundan, Qarabağ savaşındakı şücaətindən söz açıblar. Qeyd olunub ki, şəhid Səfəralı Məmmədov 1990-cı ildə Ağdam Rayon Daxili İşlər Şöbəsində post-patrul batalyonunda taqım komandiri olub. 1992-ci il fevralın 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini xilas edən zaman onun komandir olduğu taqım minaya düşüb. İgid döyüşçü aldığı xəsarətlərdən 29 yaşında dünyasını dəyişib.

# Daha bir kənddə modul tipli məktəb binası quraşdırılıb

**Yardımlı rayonunun Avun kənd ümumi orta məktəbi üçün inşa edilmiş modul tipli bina istifadəyə verilib. 56 şagirdlik yeni məktəb binasında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb.**

Açılış mərasimində çıxış edənlər məktəbin müəllim və şagirdlərini əlamətdar hadisə münasibətilə təbrik edərək, onlara ən xoş arzularını çatdırıblar. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyatın bütün sahələrində mühüm nailiyyətlər əldə edilib. Dövlət proqramlarının və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində şəhər, kənd və qəsəbələr simasını dəyişib, müasirləşib, əhalinin rifah halı daha da yaxşılaşıb. Məhz bu inkişafın nəticəsidir ki, bu gün kəndlərimizə abad yollar çəkilir, infrastruktur yenilənir, əhalinin sosial-məişət problemləri həll olunur.

Mərasimdə çıxış edənlər Dövlət Müstəqilliyi Günü ərəfəsində onlara ərməğan edilən bu gözəl töhfəyə, ucqar dağ rayonunun inkişafına göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

*Xəbərlər hazırlanarkən AZƏRTAC-ın informasiyalarından istifadə edilmişdir*

# Dövlət dəstəyi arıçılığa marağı artırıb

**Kəlbəcərlilər Ermənistan hərbi birləşmələri tərəfindən öz ata-baba yurdlarından didərgin düşsələr də, müvəqqəti yaşadıqları rayonlarda əkin-biçinlə məşğul olur, aqrar sahənin inkişafına müəyyən töhfələr verirlər.**



Rayon icra hakimiyyəti fəaliyyətini Gəncədə davam etdirir, "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq kənd təsərrüfatı sahəsində çalışan sakinlərə lazımi şəraitin yaradılmasını daim diqqətdə saxlayır. Belə sahələrdən biri arıçılıqdır.

Xüsusilə ölkə rəhbərinin "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" 2018-ci il 5 mart tarixli sərəncamından sonra bu işlər bir qədər də genişləndirilmişdir. Həmin sərəncama əsasən, fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə 10 manat subsidiya ödənilir. Kəlbəcərli arıçılar bu qayğıdan daha da ruhlanaraq həm arı ailələrinin sayını, həm də bal istehsalını xeyli artırmışlar. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, hər arı ailəsinə görə Goranboy rayonunda 16 kəlbəcərli fermerə 3950, Yevlax rayonunda 33 fermerə 12290 manat, Samux və Göygöl rayonlarında 94 fermerə 33310 manat, Abşeron rayonunda 7 arıçıya 2140 manat subsidiya ödənilmişdir.

Rayon Aqrar İnkişaf Mərkəzinin əməkdaşları da arıçılığı inkişaf etdirmək üçün baytarlıq idarəsi, fitosanitar nəzarəti xidmətində çalışanlarla birlikdə mütəmadi olaraq arıçılara baş çəkir, onlarla görüşlər keçirir, qayğı və problemlərini öyrənib müvafiq tədbirlər görürlər.

Elə bunun nəticəsidir ki, arıçılığa maraq göstərənlərin sayı xeyli artıb. Məsələn, Yevlax rayonunda məskunlaşan Asəf Cabbarov 108, Ağqulaq kəndində məskunlaşan Mübariz Cabbarov 130, Yevlaxın Kövər kəndində məskunlaşan Sabir Mustafayev 124, Salahlı kəndində fəaliyyət göstərən fermer Nüsrət Heydərov 106, Gəncədə məskunlaşan Oqtay Hümbətov 106, Samux rayonunun Burunqovaq kəndində Ələkbər Ələkbərov 142, Ağdaş rayonunda Dilqəm Xanlarov 68, Göyçayda 5 fermer 215 arı ailəsinə baxır. Kəlbəcər Rayon Arıçılıq Assosiasiyasının sədri Vahid Məmmədov 127 arı ailəsi saxlayır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Günah kimdədir?!



## Toyxanalardan dünyaya çıxarılan muğamlarımız və dünyadan şadlıq saraylarına endirilən mahnılarımız

*Ay doğar, ulduz yanar*

*Yazı var ki, bir saata yazılır, yazı da var ki, bir ilə də yazıb qurtarmaq mümkün olmur. Əgər bu il Nəsiminin 650 illik yubileyi keçirilməsəydi və Sami Yusuf Böyük Britaniyadan gəlib Nəsiminin qəzəlinə bəstələdiyi mahnını Bakıda ifa etməsəydi, bu yazı da başa çatmayan mövzu kimi kənara atılıb yarımçıq qalasıydı. Sami o mahnını Bakıda ifa etməklə Azərbaycan musiqisinin cavab tapılmayan bütün suallarına aydınlıq gətirdi, vurğuları yerbəyer etdi, tariximizin, dilimizin, mədəniyyətimizin, poeziyamızın və musiqimizin mükəmməlliyini kamil sənət nümunəsi kimi ortaya qoydu və bizə də imkan yaratdı ki, yarımçıq mövzuya bütün qüsurlara rəğmən nikbin yekun vura bilək, Azərbaycan musiqisinin ümumbəşəri dəyərini, hədsiz-hüdudsuz imkanlarını bütün mövcud aşınmalara rəğmən dərk edək.*

Təsəvvür edin ki, musiqimizin mizan-tərəzisini qurmusunuz. Tərəzinin bir gözündə intibah dövrünü yaşayan muğam, digərində şadlıq saraylarında can verən estrada musiqisidir. Muğamın yüksəlişi barədə ayrı deyəcəyik.

Əvvəlcə ölkənin estrada musiqisinin uzun illər şadlıq saraylarının toy havasında ləngərləyərək tənəzzüllə əsnəməsinin səbəblərini araşdıraq. Zahirən oxuyanlar da, dinləyənlər də gileyli deyillər. Telekanallarda özündən müstəbid müğənnilərin "mənim xalqım" deməkdən dili qabar olub. Xalq da ki, sarayların toy karusellərində ucuz əppək naminə tənəzzül yallısı gedən "manıslar"a çarəsiz çəpik çalır. Məclislərimiz hələ gur və qaydasında keçsə də, yavaş-yavaş şadlıq saraylarının bir qismi cildini dəyişib göbələk kimi mərasim zalı qiyafəsində qəbiristanlıqların ətrafında "bitirlər".

Müğənnilərə gəldikdə isə heç kim istedadından gileyli deyil. Hamı "əjdaha"dı, hamı "kral"dı, "madonna"dı, danışanda ağızlarına çullu dovşan sığışmır. Xalq da canını dişinə tutub bu üzdəniraq "manıslar"ın zillətinə dözür. Hamı bir-birindən gileylidir və gileylilərin görüş yeri də bezdiyimiz, ölkədə minlərlə ailənin büdcəsini dağıdan şadlıq saraylarıdır...

### Fransızsayağı müqəddimə

Qərbdə şadlıq sarayları yerlidibli yoxdur. Parisdə, Londonda, Berlində belə saray biznesi qurmaq kiminsə ağlına gəlməz. Avropadan tələbəlik dostum Sövdat təəccüblənir və sualıma sualla cavab verir ki, məgər evlənmək üçün ayrıca saray tikməyə ehtiyacmı var? ABŞ da bu məsələdə kaldır, hələ yetişməyib. Amma bu o demək deyil ki, Qərbdə heç kim evlənmir, müğənnilər də acından ölür, küçələrə tökülüşüb dalay-dalayla dilənirlər. Millət evlənir də, boşanır da, çalıb oxuyanlar da gileyli deyil ruzilərindən. Hər kəs bacarığına, istedadına görə baş girləyir. Aylıq çörəyini çıxaran da var, illik qazancı yüz milyon dolları aşan da. Yüz ildən çoxdur ki, avropalı müğənnilər sənətlərinə ayrı cür yanaşırlar. Təfəkkür fərqlidir. Sadəcə, bir nümunə göstərək. Məşhur fransız şansonu Fransua Klod ötən əsrin 70-ci illərində adi restoranlardan şöhrətin zirvəsinə ucalır, Fransanın böyük stadionlarında, məşhur konsert zallarında çıxış edir. Ağlının, istedadının və dinclik bilmədən çalışmağının hesabına onu uzun illər izləyən kasıbçılıqdan qurtularaq məşhurlaşır. Fransua haqqında çəkilən bədii filmdə maraqlı bir səhnə var. O öz gitaraçısından soruşur ki, haçansa həyat onu sındırıb yenidən musiqi karyerasını başladığı restoranların səhnəsinə tullasa, onun aqibətinə şərik çıxıb arxasınca gələcəkmi?

Fransua Kloda gitaraçısının verəcəyi cavabdan daha da maraqlısı odur ki, nədən ötən əsrin 70-ci illərinin Qərb ulduzları konsert zallarından restorana, bara geri qayıtmağı faciə, karyeranın sonu kimi qəbul edirdi, amma bizim müğənnilər isə bu gün, aradan yarım əsrdən artıq vaxt ötəndən sonra belə həmin restoranlarda - şadlıq saraylarında oxumağı sənətin zirvəsi sayırlar, bununla öyünürlər?! Hələ bu azmış kimi həya etmədən, arsızcasına özlərini "toylar kralı", "toylar şahı", "saray madonnası", "saray primadonnası" elan edirlər. Ürək bulandıran bu titullardan yana üstəlik, ölüm-dirim savaşına da çıxır, harada gəldi bir-birlərinin leşinə çırpırlar. Bəlkə maraq xətrinə keçmişə dönək, yarım əsr geriyə boylanaq?

### Müslümün fəth etdiyi zirvələrin ətəklərində

50 il əvvəl F.Klod öz şöhrətinin zirvəsinə ucalanda onun Müslüm Maqomayev qədər pərəstişkarı yox idi! Müslümün üzünə Avropanın ən məşhur konsert salonlarının qapıları taybatay açılardı, onu SSRİ-dən qoparmaq üçün əldən-ayaqdan gedirdilər, vəd olunası mümkün olan hər şeyi, hətta mümkün olmayanı da boyun olurdular. Amma Müslüm nə Bakıdan, nə də Moskvadan ayrıldı. Biri anam, biri də atamdı dedi. Onu ən ağır təhlükələrdən, risklərdən qoruyan, onun şöhrətinə kölgə salmağa çalışanların hücumlarını dəf edən, Azərbaycanın neftlə Müslüm kimi iki sərvəti var deyərək, qadağalardan sonra Müslümün böyük səhnəyə təkrar çıxışını təmin edən Heydər Əliyev kimi dahi bir siyasətçi var idi. Ulu Öndər onu öz övladı kimi qoruyurdu.

Müslüm eyni zamanda yalnız Ulu Öndərin yox, milyonların sevimlisi idi. Onun pərəstişkarlarının, ona aşiq olanların, ondan yana ağlını itirən gözəllərin sayı-hesabı yox idi. Dünyanın ən fantastik xanımları Müslümə səcdə edər, arxasınca göz yaşları tökərdilər. Mindiyi maşının şüşələrinə, gövdəsinə, hətta təkərlərinə də ona dəlicəsinə pərəstiş edən gözəllərin dodaqlarının pomadası al kəpənəklər kimi qonardı. Müslim dünyanın sevimlisi idi. Fransua Klodun dünyanın estrada səltənətində yeri Müslüm Maqomayevin fəth etdiyi zirvələrin ətəyində idi.

Müslümdən xeyli əvvəl 1940-50-ci illərdə Rəşid Behbudov öz ecazkar tenor səsi ilə SSRİ-də və dünyanın digər ölkələrində şöhrət qazanmışdı. 60-cı illərdə Vaqif Mustafazadə muğam üstündə sovet caz məktəbinin əsasını qoyur, Azərbaycanın yeni caz musiqisini yaradırdı. Vaqif yeni caz fikrinin təsisçisi oldu, Azərbaycan musiqisinin, muğamının klassik Amerika caz musiqisi ilə sintezini yaratdı. Caz-muğam devizi ilə Azərbaycan Muğam Caz Hərəkatının memarına çevrildi.

Ələkbər Tağıyev bu gün bizdən bütün Şərqin və bir də ermənilərin oğurladığı "Sən gəlməz oldun" mahnısını bəstələyirdi.

50 il əvvəl Azərbaycanda sənətinə hörmət qoyan müğənni toyda oxumağa razılıq verənədək yüz dəfə ölçüb biçər, hər məclisdə çıxış etməyi özünə ar bilərdi. O zaman nə "krallar", nə "şahlar", nə də "primadonnalar" var idi. Sadəcə, Müslüm Maqomayev var idi, Rəşid Behbudov var idi, Vaqif Mustafazadə var idi. Onların arxasınca Rübabə, Sara, İslam, Zeynəb, Nəzakət və başqaları gəlirdi. "Krallar", "madonnalar" olmasa da, hər səhnəyə çıxan müğənninin bir xan duruşu, xanım ləyaqəti vardı.

Bu gün özlərini kral sayanları, madonna elan edənləri ötən əsrin müğənniləri ilə müqayisə etmək mümkün deyil. Bugünkülər məğlubiyyətlərinə çəpik çalanlar, cılızlıqlarını bütə çevirənlərdir. Özləri qəlp şöhrətin "zirvələr"ində qıy vurduqca həm nüfuzlarını itirir, həm də musiqimizi çılızlaşdıran addımlar atırlar.

### Qərbdə və bizdə

Qərb müğənniləri ilə bizimkilərin ifaları müxtəlif olduğu kimi, qazanc yolları da fərqlidir. Qərbdə müğənnilər yalnız oxumaqdan pul qazanmırlar. Onların gəlirləri konsertlərdən, turlardan, reklamdan, albomların, geyimlərin, ətirlərin və hətta köhnə hitlərin satışından formalaşır. Məsələn, Madonna 2008-ci ildə "Confession" adlı konsert turnesindən heç bir müğənninin heç vaxt qazanmadığı məbləği - 260 milyon dollar əldə edib! 2017-ci ildə Qərbdə müğənnilərin qazancı milyonları aşıb. "Forbes" jurnalı 2017-ci ilin iyunundan 2018-ci ilin iyununadək ən çox qazanan 100 məşhurun reytinqini dərc etmişdi. Birinci yerdə 285 milyon dollar qazanan amerikalı boksçu Floyd Meyvezerdir. 239 milyon dollarla Hollivud aktyoru Corc Kluni ikinci, 166,5 milyon dollarla model Kayli Cenner üçüncü yerdə qərar tutub. Bu məbləğlər yalnız bir ilin ərzində qazanılıb. Birinci onluğa 147 milyonluq qazancı ilə teleaparıcı Cudit Çonson, 124 milyon dollarla aktyor Dueyn Conson, 118 milyon dollarla "U2" və 115,5 milyon dollarla "Coldplay" qruplarının musiqiçiləri və 110 milyon dollarla müğənni Ed Şiran daxil olub. Yəni gördüyünüz kimi, məşhurların siyahısında müğənnilər də yer ala biliblər. "Forbes"in 100 nəfərdən ibarət olan reytinq siyahısına 100 və 83,5 milyon dollarlıq gəlirlə iki müğənni - Bruno Mars və Keti Perri də daxil ola biliblər. Bizim qələm əhli üçün o da maraqlı ola bilər ki, 83 və 46 milyon dollarlıq qazancla iki yazıçı Çeyms Patterson və Coan Roulinq də "Forbes"in siyahısına düşən məşhurlardandır.

Bizim "toy şahları"nın qazancları nədənsə qapalı mövzudur. Bu barədə danışmaq ayıb sayılır, xətirlərinə dəymək olmaz. Evlərindəki çəkilişlərdə özlərini "xan" kimi aparırlar, amma puldan, gəlirdən, vergi ödəməkdən danışanda isə dəsmal tutub zülüm-zülüm ağlaşırlar. Bir sözlə, nə qazandıqları bəllidir, nə də ki sənətə verdikləri töhfə.

Hər "məşhur"un boğazında sarayların qapısına bağlanan bir zəncir var. Müğənnilər də, bəstəkarlar da sarayların diktəsindən, əsarətindən qurtarmaq iqtidarında deyillər, daha doğrusu, alışıblar, vərdiş ediblər, canbir qəlbdirlər. Amma bu, reallıq deyil, həqiqət fərqlidir.

Müasir Qərb meyarları ilə yanaşsaq, Azərbaycanın musiqi bazarında kommersiya musiqisi ağalıq edir. Belə musiqi tamaşaçını düşündürmür, dərin deyil, Qərbdə diskotekaların, bizdə isə toyların tələbinə cavab verirlər. Əsas odur ki, 60 saniyədə 120 dəfə zərb alətlərinə barmaqlar çırpılsın, ayaqlar durmadan yeri eşsin, heç kim yeməsin, içməsin, diskoteka əhvali-ruhiyyəsi qızışsın və millət dingildəsin! Qərbdə bu qəbildən olan müğənnilər restoranlarda, barlarda ömürlərini çürüdür və heç kimin də ağlına gəlmir ki, onlardan kimsə restoran "kral"ı, bar "madonna"sıdır. Qərbdə karyerasını düşünən musiqiçi ağır zəhmətə qatlaşır, öz yolunu axtarır, üslubunu yaradır və məşhurlaşır, varlanır da.

Qərbdə musiqi biznesi ilk öncə işgüzar münasibətlərin səlis hazırlanmış modelidir. Musiqiçi öz sənəti, ustalığı, mükəmməlliyi və yeni musiqi ideyaları ilə sənətin heç kimə bəlli olmayan zirvələrini fəth edir. Şöhrət də, pul da bu yoldadır.

Əksər postsovet ölkələrində olduğu kimi, respublikamızda da müğənnilərin böyük bir qismi musiqi biznesinin tələblərini qulaqardına vurur, yalnız toy rəqabətində qladiator kimi ölümünədək vuruşmağı üstün tuturlar. Amma ədalət naminə bizim müğənnilərin həllində aciz olduqları çətinlikləri də demək lazımdır. Hansı müğənnimiz mahnılarını telekanallara sata bilir, ya da disklərini, albomlarını buraxıb pul qazanır, varlanır? Hansı müğənnilərin arxasınca ölkənin konsert salonları qaçıb səhnələrinə dəvət etmək üçün əldən-ayaqdan gedir, hansı müğənnilərimiz ciddi xarici turnelərə çıxa bilirlər? Təəssüf ki, bu sualların çoxunun cavabı yoxdur. Azdan-çoxdan kimin uğuru varsa da, geniş ictimaiyyətə bəlli deyil. Bizdə bu biznesin müasir dünya təcrübəsinə əsaslanan bünövrəsi hələ qoyulmayıb. Üzdə olan, telekanalda zəhlə tökən, internet resurslarında bir-birini aşağılayan müğənnilərin rəqabət üsulları qaydasız döyüşə bənzəyir.

Bizdə musiqiyə pul verməsən də qulaq asa bilərsən: gir internetə, pulsuz köçür və dinlə! Müğənnilərin başqa yolu yoxdur, çünki bazar münasibətləri tam formalaşmayıb. Hamının qazancı əsasən restoran və şadlıq saraylarından asılıdır. Beş-altı zalı olan şadlıq sarayları var ki, bir bölük müğənnini aylıq maaşa otuzdurub, "karusel"də dələ kimi zaldan-zala fırladır. Keçmiş "krallar" və "madannolar" bir toya 5-10 min manata getməyi ayıb sayırdılarsa, dəbdən düşdükcə, müştəriləri azaldıqca saraylar nə versə, ona qane olmaqdan başqa çarələri qalmır. Beləliklə, böyük sənətin qapılarını birdəfəlik üzlərinə bağlayırlar.

### Ağ qarğalar

Amma elə ifaçılar da var ki, sadəcə, saraylara arxa çöndərsələr də, sənətlərinə daha sıx bağlanırlar. Onlardan ikisi haqqında danışmağa dəyər. Biz bu mövzunu araşdırmağa başlayanda onların heç biri məşhur deyildi. Amma hər ikisi sarayların meyxana ritmlərinə baş əymədi, ölkənin musiqi məkanında inadkarcasına ala qarğa kimi qalmağa üstünlük verdilər. Aysel Quluzadə saray müğənnisinə çevrilməsə də, Bakının məşhur şirkətlərinin korporativ tədbirlərinə dəvət alan müğənniyə çevrildi. Sonra Avstriyada təhsil aldı, ingilis dilini mükəmməlləşdirdi. Biz Ayselə danışanda o bizə feysbukda Avropanın musiqi mərkəzi sayılan Motsartın vətəni Vyanadan yazırdı: "Azərbaycanda dünya mədəniyyətinin etiraf etdiyi sənət əsərləri mövcuddur. Bu o deməkdir ki, musiqi üçün üstündə boy verib ucalmağa münbit mühit var. Vyana da musiqini və sənəti yaşada bilən şəhərdir. Toylarda belə ifa edilən mahnılar darıxdırıcı deyil. Hər yerdə hamı üçün klassik musiqi üst sənət kimi vacibdir. Hətta küçə musiqiçiləri də mükəmməlliyə can atır, tamaşaçını heyrətləndirməyi bacarırlar. Polşanın Krakov şəhərində bir əlil küçədə skripka çubuğu ilə adi mişarda onlarla adamı ifasına heyran qoymuşdu. Gəzdiyim əksər Avropa dövlətlərində gördüyüm odur ki, hər bir müğənni dinləyicilərinin qəlbini fəth etməyə can atır. Avropa şəhərlərində küçə musiqiçiləri leqallaşdırılıb və sizə nə qədər bayağı gəlsə də, bu, yeni istedadları üzə çıxarmağa imkan verir. Dinləyicinin maarifləndirilməsi, gözəl musiqiyə səmtlənməsi vacibdir, bunu telekanallar, elektron KİV etməlidir. Sənət yaradıcılıqdan ibarət olduğu qədər də ifaçını yaşatmaq gücünə qadir olmalıdır. Bu halda milli musiqimiz də zövqlü tərzdə önə çıxacaq".

Aysel Bakıda ona təklif olunduğu kimi, cana yaxın - melodik meyxana tipli mahnılarla önə çıxmaqdan imtina etdi. Fərqli bir yol seçdi, bir neçə filmə bəyənilən mahnılar bəstələdi, amma yuxusuz gecələrinin dəyəri ödənilmədi, o da əməyini yanlış yerdə yanlış insanlara sərf etdiyinə təəssüfləndi. İtaliyada, Macarıstanda, Slovakiyada və Polşada məhdud çərçivədə kiçik, amma uğurlu konsertlər verib, Vyanada isə tələbə yoldaşlarının və xüsusən də serblərin ulduzuna çevrildi: "Gələcəyimlə bağlı əminəm ki, mənə hər şeyin ən yaxşısı nəsib olacaq. Mənim ölkəm əxlaqı, mədəniyyəti, insanları ilə birlikdə ən gözəl sevgilərə layiqdir. Harada olsam, atdığım istənilən addım, qazandığım istənilən uğur vətənimə sevgimin çalarlarından gözəl naxışlar düzəcək.

Ardı 11-ci səh.

# Vətəndaşların qəbulu keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Ağcabədi rayonunda məcburi köçkünləri qəbul edib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbulda Ağcabədidə müvəqqəti məskunlaşmış məcburi köçkünlər iştirak ediblər. Müraciətlər əsasən, dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, vahid aylıq müavinətin təyin edilməsi və məşğulluq məsələləri ilə bağlı olub. Vətəndaşlara məlumat verilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsinə daim diqqət göstərir. Məcburi köçkünlər üçün yeni qəsəbələr salınır, onlara mənzillərin verilməsində ədalət və şəffaflıq təmin edilir.

Bildirilib ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların problemlərinə həssaslıqla yanaşan Birinci vitse-prezident xanım Mehriban Əliyevanın hələ də ən ağır vəziyyətdə və qəzalı şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı tapşırığının icrası davam etdirilir.

Qəbul zamanı məcburi köçkünlərin qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Digər məsələlərin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Dövlət komitəsinin sədr müavini Fuad Hüseynov isə Bərdə rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünləri qəbul edib.

# 15 ildə 3200-dən çox məktəb binası tikilib

Əvvəli 1-ci səh.



Cari tədris ilində 15-i modul tipli olmaqla 35 yeni məktəb inşa edilib, 8 məktəb əsaslı təmir olunub.

Cari ilin sonunadək 35-i modul tipli olmaqla daha 40 yeni məktəb inşa ediləcək, 1 məktəb əsaslı təmir olunacaq və beləliklə, 2019-cu ildə yeni tikilən məktəblərin sayı 75-ə (50-si modul tipli olmaqla), əsaslı təmir olunmuş məktəblərin sayı 9-a çatacaq.

Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən 14 məktəbin tikintisi, 8 məktəbin əsaslı təmiri aparılmaqdadır. Eyni zamanda 253 məktəbin cari təmiri, 448 təhsil müəssisəsinin qazlaşdırılması ilə bağlı tədbirlər həyata keçirilməkdədir.

Ölkə Prezidentinin təşəbbüsü ilə 2017-ci ildən etibarən kəndlərdə modul tipli məktəb təcrübəsi tətbiq edilməyə başlanıb. 2017-2018-ci illərdə 243 belə məktəb istifadəyə verilib. Modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddətdə quraşdırılması, asan daşınması, sinif otaqlarının şagirdlərin sayına uyğun azaldılıb-artırıla bilməsindədir.

Onu da qeyd etmək lazımdır ki, ölkənin bütün regionlarında, ucqar kəndlərdə ən müasir standartlara uyğun təhsil müəssisələrinin tikintisi və əsaslı təmiri ümumilikdə cəmiyyətdə təhsilə münasibəti yaxşı mənada dəyişir.

Hər il Prezident İlham Əliyevin, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yeni istifadəyə verilən məktəblərin açılış mərasimlərində iştirakı, kollektivlərlə görüşü, verdikləri tövsiyələr müəllim və şagirdlərin həyatında unudulmaz hadisəyə çevrilir, təhsil ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır.

Cari tədris ilində də ölkə Prezidenti Bakı şəhərinin Binəqədi rayonunda 300 nömrəli məktəbin yeni tədris korpusunun, Sənaye və innovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib, Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli məktəbdə, həmin rayonda əsaslı təmir və yenidənqurmadan sonra 101 nömrəli məktəbdə olub, Birinci vitse-prezident Şamaxı rayonunda yeni inşa edilmiş Məlikçobanlı kənd tam orta məktəbində, Bakı şəhəri Kürdəxanı qəsəbəsində yenidənqurmadan sonra 113 nömrəli məktəbdə və bir sıra uşaq bağçalarında yaradılmış şəraitlə yerindəcə maraqlanıb.

**Xəyalə MURADLI,**
**"Azərbaycan"**

# KOBİA-dan daha bir biznes layihəsinin reallaşdırılmasına dəstək




Bakıda Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə "Churros" ictimai-iaşə obyekti fəaliyyətə başlayıb. KOBİA-dan AZƏRTAC-a bildirilib ki, "Fəvvarələr meydanı"nda yerləşən "Churros"da İspaniya şirniyyatı olan "churros"un hazırlanması və satışı həyata keçirilir. Eyni zamanda, burada müxtəlif çeşiddə çaylar, kofe növləri, kokteyllər və digər sərinləşdirici içkilər hazırlanaraq satılır. Hazırda "Churros"da 5 nəfər işlə təmin edilib.

KOBİA tərəfindən "Churros" ictimai-iaşə obyektinin yaradılmasına konsaltinq və hüquqi məsləhət xidmətləri, aidiyyəti dövlət qurumları ilə əlaqələndirmə və sair kimi istiqamətlərdə dəstək göstərilib.

"Churros" şəbəkəsinin genişləndirilməsi və Bakının digər ərazilərində də yaradılması nəzərdə tutulur.

KOBİA mikro və kiçik sahibkarların ölkə iqtisadiyyatında rolunun və məşğulluqda payının artırılması üçün bir sıra biznes təşəbbüslərin və layihələrin reallaşdırılmasına dəstək göstərib. Agentlik dövlət dəstəyi mexanizmləri və öz xidmətləri hesabına startapların və sahibkarların biznes təşəbbüslərinin və layihələrinin reallaşdırılmasına dəstəyini davam etdirəcək.

# Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Yarımca, Ağdam rayonunun Sarıcalı, Acarlı, Novruzlu, Füzuli rayonunun Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Regionda fəaliyyət göstərən sahibkarlara növbəti güzəştli kreditlər verilib

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair növbəti işgüzar forumu Zaqatalada keçirib.

Forum çərçivəsində güzəştli kreditlərin verilməsi mexanizmi barədə treninq təşkil edilib, Zaqatala rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan kənd turizmi, tütünçülük, bağçılıq, arıçılıq təsərrüfatlarının, quru tütün saxlanılması üçün anbar kompleksinin, fındıq emalı müəssisəsinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dövlət başçısının müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf kursuna uyğun olaraq, özəl sektorun davamlı inkişaf etdiyini, sahibkarlıq fəaliyyətinin daha da genişlənməsi üçün sistemli və ardıcıl tədbirlərin, kompleks islahatların həyata keçirildiyini vurğulayıb. Sahibkarların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu diqqətə çatdıran S.Məmmədov Sahibkarlığın İnkişafı Fondunun özəl bölmənin inkişafında gördüyü işlər barədə məlumat verib. Bildirilib ki, 2019-cu ilin ötən dövründə sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsinə 134,1 milyon manat güzəştli kredit verilib. Bu investisiya layihələrinin reallaşdırılması 4000-dən çox iş yerinin açılmasına imkan yaradır. Qeyd edilib ki, bu dövrdə verilən güzəştli kreditlərin 65 faizi ölkə regionlarının, 35 faizi Bakı və onun qəsəbələrinin payına düşür.

İşgüzar forum çərçivəsində həmçinin Şəki-Zaqatala iqtisadi rayonunda heyvandarlıq, bağçılıq və s. sahələr üzrə 39 investisiya layihəsinin maliyyələşdirilməsinə 491 min manat güzəştli kredit verilib. Bu layihələrin reallaşdırılması nəticəsində 50-dək yeni iş yeri açılacaq.

Məlumat üçün bildirək ki, ümumilikdə verilən son kreditlər də daxil olmaqla, indiyədək Şəki-Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2400-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə 119,7 milyon manat güzəştli kredit verilib.

Sahibkarlığın İnkişafı Fondu ilə əməkdaşlıq edən müvəkkil kredit təşkilatlarının nümayəndələrinin də iştirak etdiyi forumda sahibkarların sualları cavablandırılıb, təklifləri dinlənilib.

*"Azərbaycan"*

# Veteran pəhləvanımız beşqat dünya mükafatçısı oldu



Ölkəmizdə güləş idman növü tarixən ənənəsini qoruyub saxlamışdır. Pəhləvanlarımız dünya və Avropa çempionatlarında, Olimpiya Oyunlarında və digər mötəbər yarışlarda öz peşəkarlığı və ustalıqları ilə xalqımızı sevindirir, Azərbaycan bayrağını ucaldır.

Digər idman növləri kimi, güləş də ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Son illər beynəlxalq yarışlarda böyük uğurlar qazanan yeniyetmə, gənclər və əsas komanda üzvləri ilə yanaşı, veteran idmançılarımız da iştirak etdikləri bütün turnirlərdən müxtəlif əyarlı medallarla vətənə qayıdırlar.

Bu günlərdə Gürcüstanın paytaxtı Tbilisidə başa çatmış veteran güləşçilər arasında 21-ci dünya çempionatı da bu baxımdan istisna deyil. Turnirdə məşhur pəhləvanımız, 130 kiloqram çəki dərəcəsində mübarizə aparan Rövşən İsmayılxanlı yunan-Roma növündə Qazaxıstan, ABŞ, Macarıstan və digər ölkələrin təmsilçilərinə qalib gələrək bürünc medal əldə etmişdir. Bu, veteran güləşçimizin ardıcıl olaraq dünya çempionatlarında qazandığı beşinci medaldır.

Rövşən İsmayılxanlı 2015-ci ildə Yunanıstanda bürünc, 2016-cı ildə Finlandiyada gümüş, növbəti il Bolqarıstanda gümüş və 2018-ci ildə Rusiyada gümüş medala sahib çıxmışdır. Hazırda Naxçıvan Dövlət Universitetində Hüquq fənləri kafedrasında müəllim vəzifəsində çalışan veteran idmançı Ulu Öndər Heydər Əliyevin "Azərbaycanda güləş milli və ən məşhur idman növüdür, bütün dövrlərdə bizim çox məşhur güləşçilərimiz olmuşdur. Onlar müxtəlif beynəlxalq yarışlarda böyük uğur qazanmışlar" sözlərini daim rəhbər tutaraq gənc nəslin təlim-tərbiyəsində, idmana cəlb edilməsində və zərərli vərdişlərdən uzaq olmasında yaxından iştirak edir və bunun üçün səylərini əsirgəmir.

Gənc və veteran idmançılara hərtərəfli dəstəyə görə universitet rəhbərliyinə təşəkkürünü bildirən R.İsmayılxanlı növbəti mundialda da layiqli çıxış edərək vətənə qızıl medalla dönmək arzusundadır.

Onu da qeyd edək ki, Tbilisidəki dünya çempionatında 73 ölkənin veteran idmançıları mübarizə aparmışdır. Bu mötəbər yarışlarda hakimlərimiz Xəyal Əliyev və Eldar Məmmədov ölkəmizi təmsil etmiş və beynəlxalq dərəcəli hakim olmaq üçün müvafiq imtahan vermişlər.

***Rizvan CƏFƏROV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# "YARAT"da "Özünü kəşf et" adlı ustad dərsləri keçiriləcək



Oktyabrın 22-23-də "YARAT" Müasir İncəsənət Mərkəzində böyüklər üçün "Danışır Bakı: 1900-1940-cı illər" sərgisi çərçivəsində "Özünü kəşf et" adlı ustad dərsləri keçiriləcək.

"YARAT"dan AZƏRTAC-a bildirilib ki, "Özünü kəşf et"- yaradıcılıq ab-havası ilə dolu, yeni rəngarəng layihədir. Ustad dərsləri zamanı iştirakçılar gündəlik həyat işlərini kənara qoyub, özlərini tamamilə yaradıcılığa həsr edə bilirlər.

Dost və ailə mühitində yaradıcılıq vasitəsilə hisslərini bölüşmək istəyənlər üçün ideal bir fürsət olan ustad dərsləri hər çərşənbə 19:00-21:00 saatlarında keçirilir. Dərslər zamanı iştirakçılar bütün ləvazimatlarla təmin olunur.

# Beynəlxalq aləm

## ABŞ Kubaya qarşı yeni sanksiyalar tətbiq edir



ABŞ Kubaya qarşı yeni sanksiyalar tətbiq edəcək. Bu barədə ABŞ Ticarət Nazirliyi yanında Sənaye və Təhlükəsizlik Bürosu məlumat vermişdir.

Vaşinqton aviasiya texnikası və telekommunikasiya avadanlığının ixracı və təkrar ixracı qaydalarını sərtləşdirir. Məsələn, Kubanın hava gəmilərini kirayə etmək üçün mövcud lisenziyalar geri çağırılacaq, yeni sifarişlər rədd ediləcək.

Bundan əlavə, ABŞ Kuba hökuməti, yaxud hakim Kommunist Partiyası ilə əlaqəli təşkilatlara ianə göndərilməsinə qadağa qoyur.

Büronun məlumatında qeyd edilir ki, sanksiyalar "rejimin Kuba xalqına münasibətdə repressiyaları", habelə Havananın Venesuela Prezidenti Nikolas Maduronu dəstəkləməsi üzündən tətbiq olunur.

2014-cü ilin dekabrında ABŞ-ın ovaxtkı Prezidenti Barak Obama Kuba ilə münasibətlərin normallaşdırılacağını və sanksiyaların yumşaldılacağını elan etmişdir. Donald Tramp hakimiyyətə gəldikdən sonra bu siyasəti yanlış hesab etmiş, embarqonu qüvvədə saxlamış və amerikalıların Kubaya səfər etmək qaydalarını sərtləşdirmişdir.

## Barselonada yarım milyonluq etiraz aksiyası



İspaniyanın Kataloniya bölgəsində ümumxalq tətili çərçivəsində təxminən 525 min nəfər Barselona küçələrinə çıxmışdır. Bu barədə yerli polis məlumat vermişdir.

Kütləvi tədbir üzündən şəhərin mərkəzi bağlanmışdır. Bir neçə metro stansiyası işləməmişdir. Ümumilikdə yürüş dinc keçmişdir. Lakin fəallar polis şöbələrinin birinin yaxınlığında Daxili İşlər Nazirliyinin əməkdaşları ilə toqquşmuşlar. Kataloniya regionunun sabiq rəhbərlərinin həbsinə etiraz edənlər asayiş keşikçilərinə müxtəlif əşyalar atmış, habelə fişənglər partlatmışlar.

"Frans Press" agentliyinin xəbərinə görə, polis nümayiş iştirakçılarına qarşı rezin güllələrdən istifadə etmişdir. Bundan əlavə, aksiya iştirakçılarını dağıtmaq üçün gözyaşardıcı qaz və təzyiqli su tətbiq olunmuşdur. Son məlumata görə, azı 10 nəfər saxlanmışdır.

## Rusiya mədənində bənd dağıldı: 15 nəfər həlak oldu

Rusiyanın Krasnoyarsk diyarında Seyba çayının üstündə qızıl hasil edən artelin texnoloji nohurunun bəndi dağılmışdır. Bu barədə Fövqəladə Hallar Nazirliyinin regional idarəsi məlumat vermişdir.

Hadisə nəticəsində 15 nəfər həlak olmuşdur, 13 nəfərin aqibəti müəyyənləşdirilir. Səhiyyə Nazirliyinin regional idarəsinin mətbuat xidmətindən bildirmişlər ki, 14 nəfər yaralanmışdır. Onlardan 3-nün vəziyyəti ağırdır.

Diyar hökumətinin sədri Yuri Lapşin bildirmişdir ki, bənd kustar üsulla tikilmişdir. Məmur qeyd etmişdir ki, qurğu bütün normaların pozulması ilə inşa olunmuşdur. Diyarın qubernatoru Aleksandr Uss isə "Rossiya 24" telekanalının efirində dəqiqləşdirmişdir ki, obyekt heç bir yerdə rəsmən qeydiyyata alınmamışdır.

# ADAU-da təcrübə dərsləri keçirilib

Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) ilə İstanbul Universiteti arasında imzalanmış müqaviləyə əsasən, mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi, ölkənin balıqçılıq üzrə mütəxəssislərlə təminatının yaxşılaşdırılması əsas prioritetlərdən sayılır.

Həmin məqsədlə həyata keçirilən tədbirlərin mühüm istqamətlərindən biri Türkiyənin aparıcı ali təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlıqdır. Bu əməkdaşlıq çərçivəsində İstanbul Universitetinin Su bilimləri fakültəsinin müəllimi, doktor dosent Farhad Çağlıtay ADAU-nun Baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin balıqçılıq ixtisasının tələbələrinə mühazirə oxuyub, təcrübə dərsləri keçib. Bu müddət ərzində tələbələr balıqların bəslənilməsi, süni mayalandırılması, suyun keyfiyyəti və digər mövzularda mühazirələr dinləyiblər.

*"Azərbaycan"*



# Günah kimdədir?!

## Toyxanalardan dünyaya çıxarılan muğamlarımız və dünyadan şadlıq saraylarına endirilən mahnılarımız

*Əvvəli 10-cu səh.*

Mən Üzeyir bəy kimi dahinin möhtəşəm kölgəsində çiçək kimi boy verib uğura sahib olmaq üçün çox istəyimi qurban verərdim. Lakin sarayların meyxana küylü dalanlarına heç vaxt dönən deyiləm".

Haqqında danışmaq istədiyimiz ikinci müğənni isə Nahidə Babaşlıdır. Onu bir dəfə bizim telekanallardan birində aparıcının ədalı və etik çərçivələrə sığmayan davranışından diksindiyini gördüm. Aparıcı bütsayağı yuxarıdan-aşağı deyirdi ki, Nahidə, sən niyə bizim verilişlərə gəlmirsən, o isə ev uşaqlarına məxsus utancaq tərzdə cavab verdi ki, çağırılanda gəlir. Yəni dialoq elə qurulmuşdu ki, aparıcı guya yerin-göyün ağası, Nahidə də səcdəyə gəlməyə məhkum edilən günahkar bəndədir.

Bir neçə ay sonra Nahidəni Türkiyənin TRT kanalında "Gənc səs" adlı verilişi aparan gördüm. TRT bir saatdan artıq gedən verilişi başdan-ayağa ona həvalə etmişdi. Oxudu və danışdı, bütün Türkiyənin sevimli müğənnisinə çevrildi. İndi "Youtube"da mahnılarına 20-50 milyonu aşan baxışlar var. Yəni dünyanın ən məşhur müğənniləri ona həsəd apara bilər! Bakıda hansı kanalın Nahidəyə efirinin bir saatını etibar etdiyini xatırlaya bilmirəm.

### Əssalamü əleyküm, "Youtube"!

Lakin estrada musiqisinin durumuna görə bədbin saray əhvali-ruhiyyəsinə köklənmək o qədər də düzgün olmazdı. "Youtube" şadlıq sarayı deyil, burada meyarları yalnız tamaşaçılar təyin edir, xoşlarına gələn ifaları bəyənir, "layk" edərək səs verirlər. Bu minvalla dünyanın əksər müğənniləri milyonlarla səs yığır, ağlasığmaz tamaşaçı rəğbətini qazanırlar. Etiraf etmək lazımdır ki, sarayların diktəsindən çıxmağa cəhd edən, yaradıcılıqlarına fərqli yanaşan musiqiçilərin yeni nəsli yetişməkdədir. Bu nəslin nümayəndələri saraylarda oxusalar da, toylara getsələr də sənətlərini fərqli qaydada təqdim etməyə cəhd edirlər. "Youtube"da onların mahnıları rekordlar qırır, milyonlarla tamaşaçının rəğbətini qazana bilir.

Ümumiyyətlə, müğənnilər bir mahnıya milyon səs yığa bilirlərsə, ifalarını uğurlu sayırlar. Azərbaycanda milyon səs yığan müğənnilərin sayı-hesabı yoxdur. Amma nümunə üçün biz 10-30 milyon arasında səs toplayanları seçdik. 10 milyon səs o deməkdir ki, artıq mahnıya ölkədən kənarda daha çox adam qulaq asır.

Damlanın "Bilirmisən"i 12,2 milyon, Vasif Əzimovun "Dərdimi dinlə" mahnısı 19,8 milyon, Zamiq Hüseynovun "Kaman"ı 23,9 milyon, Asif Məhərrəmovun "Gecə, gecə"si 13,1 milyon baxış toplayıb. Talib Talenin "Balım" mahnısına 16 milyon, "Bilirsən ki" ifasına 25 milyon nəfər qulaq asıb.

Baxışların sayı 30 milyonu keçən ifaçılar da var. Səbnəm Tovuzlunun "Xəstəyəm"inə 36,7 milyon, gənc müğənni Nahidə Babaşlının ifa etdiyi "Ay yüzlüm"ə 52,8 milyon, "Anlasana" mahnısına 43 milyon nəfər baxıb. Azərbaycanda o qədər dəbdə olmayan Üzeyir Mehdizadə "Youtube"un qəhrəmanına çevrilib. Onun "Yaxsı olar" mahnısına 101 milyon, "Gül balam, ağlama, həmişə yaxşı olar"a da bir o qədər adam baxıb. "Əlvida keçmişim" mahnısı isə 30 milyon dəfədən artıq dinlənilib. Lakin məsələ orasındadır ki, "Youtube"da 20-30, ya da 100 milyon dinləyicinin qulaq asdığı mahnıların heç də hamısı milli estrada musiqisinin simasını təqdim etmək gücünə qadir deyil. "Youtube"da səs yığan mahnıları süzgəcdən keçirəndə görürük ki, dəyərlər dəyişir və nədənsə sözləri və musiqisi dərin olmayan mahnılara da 10 milyonlarla insan baxır!

"Youtube"da azərbaycanlı müğənnilərin uğur qazanmasının səbəblərini araşdıranda yeni məqamlar üzə çıxır. Bizim müğənnilərin mahnılarına yazılan şərhlərdən aydın olur ki, 10 milyonlarla səs yalnız müğənniyə verilən qiymətdən ibarət deyil. Bu rəylərdə müxtəlif ölkələrdəki dinləyicilərin Azərbaycan xalqına, mədəniyyətinə, dilimizin zənginliyi və gözəlliyinə qədərsiz rəğbəti, sonsuz sevgisi də hiss olunur. Belə deyək, musiqimizin Azərbaycan brendi deyilən bir siması formalaşır. Bizim musiqi mədəniyyətimizlə bağlı qardaş xalqların içində bir yanğı, ecazkar sevgi var.

Bu şərhlərdə aydın sezilir: "Türkiyədən bütün aşiqlərə salam olsun!", "Elə içdən oxuyursunuz ki, Allah səsinizi qorusun", "Məni səsinin qanadlarına alıb da uzaqlara aparan azərbaycanlı qardaşlarıma eşq olsun"!

Azərbaycan dəyişir, gözəlləşir və mükəmməlləşir. Bu da bizə xüsusi diqqətin artmasına səbəb olur. Biz inkişaf etdikcə ölkəmizə, mədəniyyətimizə və dilimizə bağlananların da sayı getdikcə bütün dünyada artır. Yəni bu baxışlar sırf bir müğənninin istedadı ilə bağlı deyil. Bütün kommentlərdən ana xətt kimi musiqi qədər də ölkəmizə rəğbət və sevgilər boy verib ucalır. Bəzən bir mahnıya yazılan kommentlərin sayı 30 minə çatır! Bizə kimlər qulaq asmır ki! Bu şərhlər Türkmənistandan, Qazaxıstandan, Qırğızıstandan gəlir. Özbəkistan və Türkiyədən, Şamdan, İraq türkmənlərindən gəlir. Bizim mahnılara Moskvada, Dağıstanda, Tatarıstanda da qulaq asanlar kifayət qədərdir.

"Youtube"da diqqətçəkən tendensiyalardan biri də odur ki, artıq başqa xalqların müğənniləri Azərbaycan mahnılarını oxumağı sevirlər. Bizim bəstələrə Türkiyədə necə qulaq asırlarsa, Orta Asiya respublikalarında da elə böyük sevgi ilə dinləyirlər. Özbəkistanda isə özünə hörmət qoyan hər bir müğənni azərbaycanca oxumağı borc bilir. Eləsi də var ki, ümumiyyətlə, repertuarında Azərbaycan mahnıları üstünlük təşkil edir. Özbək müğənnilərindən Leylanın repertuarında Azərbaycan dilində mahnılar var. Sevinc Muminova unutduğumuz "Kölgəm qədər yaxınsan" mahnısını özbək ləhcəsində özünəməxsus tərzdə elə gözəl ifa edir ki, heyran qalmamaq mümkün deyil.

Daşkənddən musiqi müəlliməsi Firuzə Kurbanbayeva şərhlərin birində yazır ki, uşaqlıqdan Azərbaycan mahnılarına qulaq asıblar, bu mahnıları seviblər, ruhlarına hopdurublar. Ən böyük arzusu da Fikrət Əmirovun əsərlərinin konsertini öz məktəblərində ifa etməkdir.

Rus müğənnilərindən Stas Pyexa, Filipp Kirkorov, Nikolay Baskov və başqaları azərbaycanca oxuyurlar. Azərbaycan dilində yəhudilər də, ukraynalılar da oxuyur. İfaları da zəif deyil, əksinə, elə bizimki qədər güclüdür. Moskvada elə restoranlar var ki, orada Azərbaycan dilində oxumasalar olmur.

Digər bir tərəfdən, türkdilli ölkələrin müğənniləri azərbaycanlı müğənnilərlə birlikdə kliplər çəkdirir, hətta çəkilişlər üçün Bakıya gəlirlər. Artıq paytaxtımızı hamı dünyanın ən gözəl şəhərlərindən biri kimi tanıyır. İndi hamı anlayır ki, Bakı nağıl kimi şəhərdir, burda çəkilən klip də təbii ki, tamaşaçını cəlb edəcək. Yəni Azərbaycan mahnılarının Şərq ölkələrində özünəməxsus yeri yalnız musiqimizin gücü ilə yox, həm də dilimizin gözəlliyi, Bakının paytaxt kimi möhtəşəm bir şəhərə çevrilməsi ilə bağlıdır. Bundan savayı, türkdilli xalqların arasında Azərbaycan dili gözəlliyi, şirinliyi və məlahəti ilə hamını valeh edir. Bunu qazaxlar da, özbəklər də, türkmənlər, qırğızlar da etiraf edirlər. "Youtube"da rekordlar qıran bəzi mahnılarımız dinləyiciləri öz ölkələrində olmayan ritmlərə görə cəzb edirlər.

### Birinci xanımın nəcibliyi

İndi də bir neçə kəlmə muğamın yüksəlişindən deyək. Ölkənin birinci xanımı Mehriban Əliyevanın fədakar əməyi sayəsində muğam sənəti sərbəst inkişaf edir, muğam ifaçıları ötən əsrdəki nüfuzunu və ləyaqətlərini bu gün də qoruyub saxlayır və inkişafdan qalmırlar. Muğam elə möhtəşəm musiqi janrıdır ki, onun fəlsəfi tutumu, bədii-estetik gücü heç vaxt sarayların tələbləri səviyyəsinə enməyəcək.

Əgər muğam estrada mahnıları sayağı şadlıq saraylarının ümidinə qalsaydı, bu gün bəlkə də bir janr kimi musiqi tariximizdən silinib gedərdi. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva muğamı xalqımızın milli ruhu kimi göylərə qaldırdı. Onun gərgin əməyi sayəsində 2003-cü ildə UNESKO muğamın bədii dəyərini etiraf etdi, "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil etdi. Birinci xanımın qəyyumluğu ilə "Muğam televiziya müsabiqələri"nin keçirilməsi, Bakıda, rayonlarda və hətta cəbhə bölgələrində muğam mərkəzlərinin yaradılması Azərbaycan muğamını həmişə ucaldığı ənginliklərdən daha yüksəyə qaldırdı, pərvazlandırdı, musiqi mədəniyyətimizin şah əsəri titulunu muğama qaytardı. Muğamlarımızın qorunması istiqamətində ən zəruri addımlar atıldı. Dövlət başçısı dəfələrlə etiraf edib ki, Azərbaycan xalqı və dövləti öz milli sənəti olan muğama çox böyük sevgi ilə yanaşır, məhəbbətlə onu qoruyur: "Biz son illərdə muğamın demək olar ki, dirçəlməsini görürük. Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi". İlham Əliyev muğamı həm ədəbiyyatımızı, həm musiqimizi, həm də Azərbaycan dilinin saflığını qoruyan müqəddəs sənət növü kimi dəyərləndirir.

Əslində, estrada musiqisinin də vəzifəsi ana dilini qorumaq, onu ünsiyyətin bərq vuran mükəmməl alətinə çevirməkdir. Dilimizin zənginliyi istənilən fikri, istənilən poetik metaforanı kamil və gözəl ifadə etməyə imkan verir. Muğamın dilimizin inkişafında, milli qürurun, milli mənliyin formalaşmasında oynadığı rolu estrada musiqisi də davam etdirə bilərdi. Amma təəssüf ki, bunun əvəzinə bəzən də elə olur ki, şit və hərdən də əxlaq meyarları ilə uzlaşmayan estrada mahnıları dilimizin saflığına, mənəviyyatımıza mənfi təsir edir. Belə müğənnilərin, bəstəkar və şairlərin adlarını onlar üçün reklam olduğuna görə sadalamırıq. Amma bircə onu qeyd edək ki, nə yazsalar, bəstələsələr də, nə oxusalar da adları Azərbaycan musiqisi tarixinə düşməmiş silinəcək və unudulacaq.

İncəsənətin, ədəbiyyatın, musiqinin missiyası milli ruhumuzu, mədəniyyətimizi və əxlaqımızı cilalamaq, daha yüksək səviyyəyə qaldırmaqdır. Təəssüf ki, dili "mənim xalqım" deməkdən qabar olan "krallar", "primadonnalar" və "toy şahları" istəsələr də bunu bacarmayacaqlar, aciz qalacaqlar. Çünki hamısı şadlıq saraylarının küllüklərinə alışıblar.

### Epiloq əvəzi

Bir daha yazının əvvəlinə, Sami Yusufun "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" qəzəlinə yazdığı mahnıya qayıtmağa zərurət var. Belə ki, o mahnının arxasında Azərbaycan dövlətinin Nəsiminin anadan olmasının 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasına ciddi hazırlıq dayanır. Sami Yusuf da öz xalqına, tarixinə və mədəniyyətinə bağlı insan kimi, bu tapşırığın öhdəsindən ləyaqətlə gəldi, dahiyanə əsər yarada bildi.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva dünyaca məşhur Azərbaycanəsilli müğənni və bəstəkar Sami Yusufla görüşdü, ona "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu təqdim etdi. Birinci vitse-prezident Sami Yusufun II Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalındakı iştirakını yüksək dəyərləndirdi, Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində keçirilən konsertdəki çıxışını da xatırladı. Bu konsertin ən yüksək səviyyədə təşkil edildiyini və Azərbaycan ilə UNESKO arasındakı əlaqələrə töhfə olduğunu vurğuladı.

İndi şadlıq saraylarından qopa bilməyən, konsert zallarından diksinib qaçan müğənnilər nə fikirləşirlərsə, maraqlı deyil. Maraqlısı odur ki, Sami Yusuf yaratdığı əsərlə Azərbaycan musiqisinin möhtəşəmliyini, əzəmətini ortaya qoydu və bir daha sübut etdi ki, Azərbaycan musiqisi bütün dünyanı riqqətə gətirmək gücünə qadirdir. Bu yenilməz bir qüvvədir. Onun qarşısında toyxana musiqisi, bayağı havalar acizdir.

Azərbaycan musiqisi elə bir müqəddəs və möhtəşəm qüvvəyə malikdir ki, göbələk kimi paytaxtı bürüyən şadlıq sarayları və onların yeritdiyi qaydalar bu musiqinin yönümünü və istiqamətini dəyişməkdə acizdir. Onların tələbləri, səhnəyə çıxardıqları musiqilər, düşünən, dərk edən beyindən daha çox ayaqların sərxoş ritmlərinə hesablanmış "bəstə" və "ifaları" ölü doğulur, elə həmin sarayların içində də ömürlərini başa vururlar.

Müslim Maqomayev, Rəşid Behbudov, Zeynəb Xanlarova kimi dahiləri yetişdirən xalq və onun incəsənəti heç vaxt sarayların girovuna çevrilməyəcək. Bu birmənalıdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

**Dünya olduğu kimi**

# Cazibə qüvvəsinə tabe olmayan daş



**Bu, bir fiziki qanunauyğunluqdur - cazibə qüvvəsi hər şeyi Yerin mərkəzinə cəzb edir. Məhz cazibə qüvvəsi əşyaları yerə düşməyə, Ayı Yerin ətrafında fırlanmağa məcbur edir, bizə kosmosa uçub getməyə imkan vermir. Lakin Yer kürəsində elə məkanlar da var ki, bu qravitasiyaya tabe olmurlar.**

Fizikanın məntiq və qanunlarını pozan belə məkanlardan biri Argentinada Buenos-Ayresdən cənub-şərqdə yerləşən Tandilia şəhərindədir.

Bu şəhərdə qayanın üzərində dayanan "Davasko" daşının min illərlə yaşı var. 300 ton ağırlığı olan "Davasko" daşı qayanın dik kənarında balanslı şəkildə dayanar, külək əsəndə isə aşmadan yellənərmiş.

Davasko - Günəşin oğlunun adıdır. Daşın adı onun şərəfinə qoyulub. Başqa adı isə "Piedra Movediza"dır. Bu, ispan dilindən tərcümədə "hərəkətli daş" mənasını verir.

"Davasko" daşını ilk dəfə XIX əsrdə Avropadan gələn səyyahlar sirli, möcüzəvi məkan kimi təsvir ediblər. O vaxtdan bəri minlərlə turist təbiətin inanılmaz möcüzəsinin şahidi olmaq üçün o şəhərə gedib.

"Davasko" daşı ilə bağlı yerli sakinlər arasında müxtəlif əfsanələr, rəvayətlər dolaşır.

Bir əfsanəyə görə, Tandilia qəbiləsinin başçısı qədim ənənəni kobud şəkildə pozur. Bu, əhalinin hiddətinə səbəb olur və üsyanla nəticələnir. Üsyana isə qəbilə başçısının həyat yoldaşı Mini liderlik edir. Lakin xalq üsyanı başçı tərəfindən amansızcasına yatırılır. Zalım rəhbər tutulan bütün üsyançıları dağa aparıb, böyük bir daşa bağlamağı, işgəncə verib qayadan aşağı atmağı əmr edir. Mini qayadan atılanda dəhşətli ildırım çaxır və bu sözlər hər yanda əks-səda verir: "Ah Tandilia, ölümüm bu dağı sarsıdacaq və sən həmişə burda döyünən ürəyimi görəcəksən".

Başqa bir rəvayətdə isə deyilir ki, əsrlər öncə Günəşin sevimli oğlu Davasko əcdadlarımıza bu yerlərin yolunu göstərib. Onlara maldarlığı və əkinçiliyi öyrədib. Bir müddət insanlarla yaşayan Davasko xalqının artıq onsuz baş çıxara biləcəyi qənəatinə gəlir və insanları tərk edərək atasının - Günəşin yanına gedir. Getməzdən öncə xalqına söz verir ki, vaxt gələcək və o, yenidən Yer üzünə həmişəlik geri qayıdacaq. Xalqının onu unutmaması üçün Davasko nəhəng bir daşı dağın başına qaldırır. Onu qayanın lap kənarına qoyur və deyir ki, dönüşünə qədər daş heç bir zərər görmədən orda qalacaq.

Lakin bu əzəmətli təbii abidənin də sonu gəlir. 29 fevral 1912-ci ildə "Davasko" daşı sıldırımdan qoparaq aşağı düşür və parçalara ayrılır...

Əsrlər boyu tərpənmədən eyni vəziyyətdə qalan daşın qayadan düşmə səbəbi ilə bağlı elm adamları ortaq bir məxrəcə gələ bilmirlər. Bəzi alimlər buna eroziyanın və yaxınlıqdakı mədənlərdə iş zamanı partlayışların səbəb ola biləcəyini düşünür. Bəzi mütəxəssislər isə hesab edirlər ki, əslində, daş heç vaxt tək bir yerdə tərpənmədən, möhkəm dayanmayıb. Həmişə cazibə qüvvəsi altında hərəkət edib, sanki uçuruma doğru sürüşüb. Sadəcə olaraq bu proses o qədər zəif gedib ki, daşın tarazlığının pozulması nöqtəsinə çatana qədər min illər keçib.

Günəşin oğlunun daşı yerindən qopanda bütün şəhər əhli bu hadisədən sarsılır. Ancaq onlar ruhdan düşməmək qərarına gəlirlər. 95 il keçdikdən sonra, 2007-ci il mayın 13-də səhər saat 07:58 radələrində Tandilia sakinləri öz tarixi simvollarını bərpa edirlər. Amma parçalanmış daşları bir-birinə birləşdirərək yox, onun nüsxəsini yaratmaqla. Daşın plastik nüsxəsi qayanın uc hissəsində, eyni yerdə quraşdırılıb. Sadəcə təbii daşdan bir fərqi var - külək əsən zaman yellənmir.

Bu məkan yerin cazibə qüvvəsinə tabe olmayan təbiət möcüzəsi kimi illərdir turistlər tərəfindən ziyarət olunur. Qayanın ətrafında isə milli park salınıb - "Park Lithic The Movediza".

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Bilirsinizmi...



- Şəhadət barmağı insan əlinin ən hissiyatlı barmağıdır;
- Bütün tarix boyu Nil çayı iki dəfə - IX və XI əsrlərdə donub;
- İl ərzində bir dəfə də olsun insan doğulmayan yeganə ölkə Vatikandır;
- Akulalarda xərçəng xəstəliyinə qarşı immunitet var;
- Yer üzündə alov yuxarı yüksəlir, kosmosda qravitasiya qüvvəsi olmadığına görə alov bütün istiqamətlərdə yayılır;
- Yaponiyaya atılan ilk atom bombası "Enola Gay", ikinci isə "Bocks Car" adlanan təyyarələrdə yerləşdirilib;
- Şimpanze güzgüdə özünü tanıya bilən yeganə heyvandır;
- Merkuri planeti qəribə trayektoriyalı orbitə malikdir. Onun bu orbitlə 1 sutkalıq hərəkəti Yerdəki 58 sutkaya bərabər olur. Əgər siz Merkuridən Günəşə baxsanız, sizə elə gələcək ki, Günəş səmada o tərəf-bu tərəfə hərəkət edir;
- Cek-Patroşitel XIX əsrin ən tanınmış qatilidir. O, öz cinayətlərini yalnız bazar günləri həyata keçirib;
- Gözlər beyini ən çox yükləyən orqandır.

# Rəssam şimpanzenin sərgisi

Londondakı "The Mayor Gallery" qalereyasında Konqo adlı şimpanze tərəfindən çəkilmiş rəsmlərin satış sərgisi keçiriləcək. Sərgidə dəyəri 1800-7400 dollar məbləğində qiymətləndirilən 55 rəsm nümayiş etdiriləcək.

Qeyd edək ki, rəssam-zooloq Desmond Morris 1956-cı ildə meymunların bədii qabiliyyətlərini tədqiq edərək Konqoya qələm tutmağı öyrədib. Üç il ərzində 400-dən çox rəsm çəkən Konqo 1964-cü ildə vərəm xəstəliyindən ölüb.

Pablo Pikasso, Xuan Miro və Salvador Dali kimi rəssamlar şimpanzenin çəkdiyi bəzi rəsmləri öz kolleksiyaları üçün alıb. 2005-ci ildə isə şimpanzenin rəsmləri "Bonham's" hərracında Uorhol və Renuarın əsərlərindən baha qiymətə - 25 min dollara satılıb.



**Təbiətin dostları**

# Kisəli heyvan



**Kenquru Avstraliya qitəsinin bəzəyi sayılır. Bəzi mənbələrə görə, "kenquru" aborigen dilində "mən sizi anlamıram" mənasını verir.**

Belə ki, Avstraliyaya ilk dəfə gələn ingilislər hələ o vaxta qədər dünyanın heç bir yerində rast gəlmədikləri qəribə heyvan görürlər. Onların adını aborigenlərdən soruşurlar. Yerlilər də ingilislərin nə dediyini anlamadıqları üçün "ken-qu-ru" deyirlər. İngilislər də elə bilirlər ki, bu, elə həmin heyvanın adıdır. Bununla da kenquru adı bütün dünyaya yayılır.

Digər məlumatlara görə isə kenquru (ganguru) Botani körfəzində danışılan "Guugu Ymithirr" dilindən gəlir və böyük boz, ya da qara kenquru deməkdir.

Bu heyvanlar Avstraliyadan başqa dünyanın heç bir yerində yaşamır. Avstraliyada kenquruların sayı insanların sayından çoxdur. Hətta bəzi yollarda üzərində kenquru şəkli olan yol maşınları qoyulur ki, sürücülər onunla ehtiyatlı davransınlar.

Kenqurunun 69 növü var. Ən kiçiyi vallabidir (70 sm-dək boyu, 7-25 kq çəkisi). Ən böyüyü isə qırmızı kenqurudur. Onun boyu normal insan boyundan da hündür olur. Çəkisi də təqribən 90 kq-dır. 16 ilədək yaşayırlar.

Möhkəm arxa ayaqlarının hesabına kenquru 3 metr hündürlüyədək olan maneələri tullana bilir. Özü də ancaq irəliyə tullana bilir. O, saatda 60 kilometr məsafə qət edə bilir. Qaçış zamanı quyruğunun sayəsində tarazlığı saxlayır.

Kenquru əsasən otlarla qidalanır. Suya çox ehtiyac duymur və aylarla susuz qala bilir.

360 dərəcə fırlana bilən sanballı qulaqlarının hesabına kenqurular vəhşi heyvanları, insanları uzaq məsafədən çox yaxşı eşidir. Təhlükə duyanda ayaqlarını yerə çırpmaqla digərlərini xəbərdar edir. İti caynaqları və qüvvətli arxa ayaqlarının sayəsində insanın da həyatına son qoya bilər.

Kenquruların hamiləlik dövrü 27-40 gün davam edir. Təzə doğulmuş kenquru balası çox kiçik olur - cəmi 2 santimetr. Balalar doğulduqda tüksüz, gözləri bağlı, bədən üzvləri inkişaf etməmiş olur. Çünki kenquru balaları ana bətnində inkişafını tamamlamadan dünyaya gəlirlər. Buna görə də ananın bədənindəki tüklü kisə balalar üçün mühüm qorunma yeridir. Bala böyüdükcə bu kisə də genişlənir. Kisənin girişində balanın düşməyinin qarşısını alan xüsusi əzələlər var. Ana kenquru suya girdiyi zaman bu əzələlər vasitəsilə suyun içəriyə dolmasının qarşısını alır.

Ana kenquru balanı çəkisi 9 kiloqrama çatana qədər - 10 ayadək kisəsində gəzdirir, südlə qidalandırır. Qidalandırması da maraqlıdır. Ananın 4 süd vəzisi var və körpənin inkişaf mərhələsinə uyğun olaraq hər bir vəzi fərqli tərkibə malik süd istehsal edir. Süd balaların tələbatına uyğun xüsusiyyətdə olur. Südün tərkibindəki yağ və digər birləşmələr balanın böyüməsinə və ehtiyaclarına uyğun olaraq dəyişir.

Kenquru balalayan kimi qarnında yeni bir bala yaranır və o, anasının kisəsinin boşalmasını gözləyir. İlk bala süd əmərkən yeni doğulan ikinci bala üçün də asan həzm olunan süd verilməyə başlayır. Üçüncü bala dünyaya gəldikdə isə fərqli tərkibə malik üç süd növü əmələ gəlir. Təbii ki, ana kenqurunun bu prosesləri şüurlu şəkildə tənzimləməsi qeyri-mümkündür. Bu qeyri-adi proses kenqurunun yaradılışındakı mükəmməllikdən qaynaqlanır.

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti Yaşıllaşdırma işləri üçün mal-materialların satın alınması üzrə

***açıq tender elan edir***

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: Yaşıllaşdırma işləri üçün mal-materialların satın alınması.**

Müqavilənin icra müddəti **23 dekabr 2019-cu il** tarixinə kimi müəyyən edilir.

Tender iştirakçıları https://etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**

**VÖEN: 1700774621**
**H\h: AZ03AIIB33050019443600287106**
**Bank: "Kapital Bank" ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **08 noyabr 2019-cu il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **19 noyabr 2019-cu il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **20 noyabr 2019-cu il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Dövlət Məşğulluq Xidməti qeyri-formal məşğulluğun qarşısının alınması sahəsi üzrə xidmətlərin satın alınması ilə bağlı keçirilən

***açıq tenderə dəvət edir***

Tender 1 LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https//www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 70 (yetmiş) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**

**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**H/h: AZ18CTRE00000000000004788202**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İstirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının vergi şəhadətnaməsinin və nizamnaməsinin təsdiq edilmiş surəti;*
- *iddiaçının bank rekvizitləri haqqında məlumat;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mənfəət vergisi bəyannaməsinin surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *bənzər layihələr üzrə iş təcrübəsi haqqında məlumat;*
- *ixtisas uyğunluğunun müəyyənləşdirilməsi üçün sənədlər;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *digər sənədlər (--).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 noyabr 2019-cu il saat 15:00-dək**, tender təklifi və bank təminatını isə **20 noyabr 2019-cu il saat 15:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **20 noyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə əhalinin özünüməşğulluğunun təmin edilməsi üçün zəruri olan kənd təsərrüfatı sahəsi üzrə malların təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (012) 596-32-73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 31 oktyabr 2019-cu il saat 17:00-dək qəbul olunur.
İddiaçıların təklifləri 2019-cu il 01 noyabr saat 15:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

# Dövlət sərhədini pozan şəxslər saxlanılıb









Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, oktyabrın 16-da Füzuli rayonunun Bala Bəhmənli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində, İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmuş Cəbrayıl rayon sakini 1990-cı il təvəllüdlü Quluzadə Müşfiq Mehman oğlu saxlanılıb. İlkin araşdırma zamanı sərhəd pozucusunun 2017-ci ildə rəsmi qaydada ölkə ərazisini tərk edərək İran İslam Respublikasına getməsi, barəsində cinayət işinin aparılması və 2017-ci ildən etibarən Azərbaycan Respublikasının hüquq mühafizə orqanları tərəfindən axtarışda olması müəyyənləşdirilib.

Oktyabrın 17-də "Astara" dövlət sərhədindən buraxılış məntəqəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına gələn İran İslam Respublikası vətəndaşları 1985-ci il təvəllüdlü Bahonar Bastak Abad Salah Salehin və 1992-ci il təvəllüdlü Yousefkikani Şirzad Aminin üzərinə sərhəd və gömrük baxışı keçirilərkən daxili orqanlarından 630 qram narkotik vasitə aşkarlanaraq götürülüb. Narkotik vasitələrin qanunsuz dövriyyəsinin digər iştirakçılarının müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində DSX-nin və Daxili İşlər Nazirliyinin əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İran vətəndaşlarını qarşılayan Azərbaycan vətəndaşı Astara rayonunun Ərçivan kənd sakini 1969-cu il təvəllüdlü Cavadov Qadir Adil oğlu şübhəli şəxs qismində saxlanılıb.

Oktyabrın 18-də Xaçmaz rayonunun Yalama kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində Rusiya Federasiyasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmuş Bakı şəhər sakini 1993-cü il təvəllüdlü Bayramov Kamran Vidadi oğlu saxlanılıb. Araşdırma zamanı sərhəd pozucusunun barəsində cinayət işinin aparılması və 2012-ci ildən etibarən Azərbaycan Respublikasının hüquq mühafizə orqanları tərəfindən axtarışda olması müəyyənləşdirilib.

Hər üç cinayət faktı ilə bağlı aidiyyəti üzrə əməliyyat istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Vəkil Məmmədova həyat yoldaşı

**ADİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası və katibliyin rəhbərliyi Komissiya Katibliyinin Təşkilat şöbəsinin sabiq müdiri

**ZEMFİRA EMİNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Əli Hacıyevə əzizi

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu Fizika fakültəsinin Ümumi fizika və fizikanın tədrisi metodikası kafedrasının professoru

**NAZİM MÜRSƏL OĞLU NƏSRULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini Eynulla Mədətli Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8959
Sifariş 3452
Qiyməti 40 qəpik